

## Ermənistan münaqişənin miqyasını genişləndirməyə cəhd edir

*Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Qubadlı rayonu ərazisindən oktyabrın 15-də saat 10:44-də atdığı əməliyyat-taktiki raket Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu ərazisində partlayıb. Bu barədə "Unikal"a Azərbaycan Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən məlumat verilib. Dinc sakinlərə və mülki obyektlərə zərər dəyməyib. "Ermənistan bütün vasitələrlə münaqişənin coğrafi əhatəsini...*

Səh.13


# UNİKAL

№35 (2030) 17 oktyabr 2020-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




## "Şuşanı işğaldan azad etməsək, işimiz yarımçıq qalmış olar" - İlham Əliyev

*"Bu, erməni faşizminin növbəti təzahürüdür. Onlar adətən döyüş meydanında məğlubiyyətə uğrayanda dinc əhaliyə atəş açırlar. Bunu biz Birinci Qarabağ müharibəsində də görmüşdük". Unikal.org xəbər verir ki, bunu Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsi zamanı Tərtərə hücumu şərh edərkən bildirib. "Xocalı soyqırımını törədən həmin bizim mənfur qonşularımızdır. Bu dəfə də görəndə ki, artıq döyüş meydanında Azərbaycan Ordusunun qarşısında acizdirlər və işğal edilmiş torpaqlarda bizə müqavimət göstərə bilmirlər onlar yenə də mülki vətəndaşları hədəfə aldılar və namərd təcavüz nəticəsidnə bizim insanlarımız həlak oldu: həm Gəncədə, həm də dünən Tərtərdəki qəbiristanlıqda. Bu da insanların dəfn mərasimində iştrak etdiyi bir yerdir. Hər bir insan üçün müqəddəs bir yer sayılır. Ancaq bizim mənfur qonşularımız üçün müqəddəs anlayışı, görünür ki, yoxdur. Bu, insanlığa qarşı cinayətdir.*

Səh.2

Səh.2




## Azərbaycanda karantin rejimi sərtləşdirildi

## "Qarşı tərəf görməlidir ki, Azərbaycan həqiqətən tək deyil"



*Azərbaycan Ordusu əks-hücum əməliyyatlarını uğurla davam etdirir. Bununla yanaşı, Azərbaycan tərəfi siyasi və diplomatik mübarizəni də yüksək səviyyədə apararaq, qarşı tərəfin işğalçılıq və terrora söykənən siyasətini ifşa edir. Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər "Unikal" qəzetinə...*

Səh.4

## Əbülfəs Qarayevlə bağlı daha bir şok fakt...



*Sabiq Mədəniyyət naziri Əbülfəs Qarayevin vəzifədən kənarlaşdırılmasının üzərindən bir neçə ay keçir. Bununla belə, mütəmadi olaraq onun həmin postu tutduğu dövrdə Azərbaycan mədəniyyətinə vurulan zərbələr barədə yeni nəsə öyrənirik. Elə təzəlikcə tanınmış bəstəkar Firudin Allahverdinin bir...*

Səh.12

## Etibar Məmmədov partiyalara müraciət etdi



*AMİP lideri, Beynəlxalq Demokrat İttifaqının sədr müavini Etibar Məmmədov BDİ sədri Stefan Harperə, BDİ Baş katibi Kristian Kattnerə və eləcə də bu qurumun üzvü olan dünyanın aparıcı siyasi partiyalarına müraciət ünvanlayıb. AMİP-in mətbuat xidmətindən "Unikal"a bildirilib ki, müraciətdə Dağlıq Qarabağ münaqişəsi...*

Səh.6

## "Şuşanı işğaldan azad etməsək, işimiz yarımçıq qalmış olar" - İlham Əliyev



***"Bu, erməni faşizminin növbəti təzahürüdür. Onlar adətən döyüş meydanında məğlubiyyətə uğrayanda dinc əhaliyə atəş açırlar. Bunu biz Birinci Qarabağ müharibəsində də görmüşdük".***

Unikal.org xəbər verir ki, bunu Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsi zamanı Tərtərə hücumu şərh edərkən bildirib. "Xocalı soyqırımını törədən həmin bizim mənfur qonşularımızdır. Bu dəfə də göründə ki, artıq döyüş meydanında Azərbaycan Ordusunun qarşısında acizdirlər və işğal edilmiş torpaqlarda bizə müqavimət göstərə bilmirlər onlar yenə də mülki vətəndaşları hədəfə aldılar və namərd təcavüz nəticəsidnə bizim insanlarımız həlak oldu: həm Gəncədə, həm də dünən Tərtərdəki qəbiristanlıqda. Bu da insanların dəfn mərasimində iştrak etdiyi bir yerdir. Hər bir insan üçün müqəddəs bir yer sayılır. Ancaq bizim mənfur qonşularımız üçün müqəddəs anlayışı, görünür ki, yoxdur. Bu, insanlığa qarşı cinayətdir. Bir daha Ermənistanın yırtıcı xislətini göstərir. Bir də onu göstərir ki, bu namərd təcavüzlər bizi yolumuzdan döndərə bilməz", - Prezident qeyd edib.

"Atəşkəsdən sonra 3 dəfə Hadrud qəsəbəsini yenə də işğal etmək istədilər, 3 dəfə ora həmlə etdilər"- deyən İlham Əliyev söyləyib ki, "Amma 3 dəfə də məğlub oldular. Onların niyyəti itirilmiş və onlara mənsub olmayan torpaqları yenə də qaytarmaq və beləliklə işğalçılıq siyasətini davam etdirməkdir. Dünən mən 6 kəndin işğaldan azad edilməsini elan etdim".

O bildirib ki, bu proses davam edir: "Demək olar ki, hər gün yeni yüksəkliklər, ərazilər işğaldan azad edilir. Füzulinin əksər kəndləri bizdədir, Füzuli artıq bizim gözümüzün önündədir. Bütün istiqamətlərdə böyük uğurlar əldə etmişik".

"Mən Azərbaycanın kəndlərini bir-birindən fərqləndirmirəm" deyən Prezident bunları əlavə edib.

"Amma Şuşasız bizim işimiz yarımçıq qalar. Bizə danışıqlar prosesində təklif edirdilər ki, 5 rayon, sonra 2 rayon verilsin. Bizə deyirdilər bütün əraziləri istəməyin, belə kompromis olmur. Şuşanın azad edilməsi bizim hədəflərimiz arasındadır, nə zaman olacaq, bunu görərik".

## "Ermənilər Avropada COVID-19 yayırlar" - Hikmət Hacıyev

***"Ermənistan hökumətinin təşəbbüsü ilə Avropa şəhərlərindəki erməni lobbi qrupları magistral yolların hərəkətini pozur, insanlar üçün çətinliklər yaradır, iqtisadiyyatlara zərər verir və COVID-19 yayırlar".***

Unikal.org xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Twitter"də yazıb.

"Ermənistan bu cür təxribatlara getmək əvəzinə Azərbaycan torpaqlarının işğalına son qoymalıdır", - o əlavə edib.

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

## Hərbi əməliyyatlara son qoymağa hazırıq – Ermənistan MN

***Ermənistan humanitar atəşkəsin şərtlərinə əməl etməyə və hərbi əməliyyatlara son qoymağa hazırdır.***

Unikal.org xəbər verir ki, belə bir bəyanatı Ermənistanın Müdafiə Nazirliyi yayıb. "İrəvan beynəlxalq ictimaiyyətdən, xüsusən də ATƏT-in Minsk Qrupundan Azərbaycana atəşkəslə bağlı çağırış etmələrini xahiş edir", - bəyanatda deyilir.

ELAN

**Fövqəladə Hallar Nazirliyi tərəfindən Fərzəliyev Rafael Soltan oğluna verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.**

# Azərbaycanda karantin rejimi sərtləşdirildi

***Nazirlər Kabineti yanında Operativ Qərargah məlumat yayıb.***

"Unikal"a daxil olan məlumatda bildirilir ki, son günlər bir sıra ölkələrdə, o cümlədən Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxma hallarında kəskin artım müşahidə olunmaqdadır. Bu səbəbdən mövcud sanitar-epidemioloji vəziyyət nəzərə alınaraq, xüsusi karantin rejimi çərçivəsində bir sıra məhdudiyyətlərin tətbiq olunmasına qərar verilmişdir.



Sanitar-epidemioloji vəziyyət, koronavirusa yoluxmuş aktiv xəstə sayı və yoluxma sürəti əsas götürülməklə aşağıdakı məhdudiyyətlər tətbiq edilir:

- 2020-ci il 19 oktyabr saat 00:00-dan 2 noyabr saat 06:00-dək Bakı metropolitenində sərnişindaşıma fəaliyyəti dayandırılır;

- 2020-ci il 19 oktyabr tarixindən 2 noyabr tarixinədək ölkə üzrə bütün təhsil müəssisələrində tətil elan olunur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq tapşırığına əsasən, dövlət qurumlarında çalışan işçilərin say həddi 30 faizədək azaldılaraq digər əməkdaşlar məsafədən iş rejiminə keçirilir. Özəl sektorda və digər sahələrdə fəaliyyət göstərən qurum və təşkilatlara eyni qaydanın tətbiq edilməsi tövsiyə olunur.

Yüksək risk qrupuna daxil olan 65 yaşdan yuxarı şəxslərin ən zəruri hallarda yaşayış yerlərini tərk etmələri tövsiyə edilir.

Bir daha vətəndaşlarımızı COVID-19 ilə bağlı hazırkı vəziyyətdə şəxsi gigiyena, eləcə də tibbi-profilaktik qaydalara ciddi əməl etməyə, qoruyucu maskalardan istifadə etməyə, evdən yalnız zəruri ehtiyac yarandıqda çıxmağa, ictimai yerlərdə kənar şəxslərlə minimum kontaktda olmağa, mövcud karantin şərtlərinə əməl etməyə çağırırıq.

Onu da qeyd edək ki, Milli Ordumuzun Ermənistanın təcavüzünə qarşı uğurlu əks-hücum əməliyyatları apardığı zamanda hər birimiz virusun geniş yayılmaması üçün müvafiq qaydalara riayət etməklə dövlətimizə, ordumuza dəstək vermiş olarıq.

***İnformasiya Şöbəsi***

## Əli Əsədov məktəblərlə bağlı qərarı təsdiqlədi

***Baş Nazir Əli Əsədov xüsusi karantin rejimi dövründə Azərbaycanda fəaliyyət göstərən təhsil müəssisələrinin fəaliyyəti ilə bağlı qərara imza atıb:***

Unikal.org xəbər verir ki, qərarda deyilir:

1. Azərbaycan Respublikasının ərazisində 2020-ci il 19 oktyabr tarixindən 2 noyabr tarixinədək:



1.1. məktəbəqədər, məktəbdənkənar və əlavə təhsil müəssisələri istisna olmaqla, bütün təhsil müəssisələrində əlavə tətil günləri (ümumi təhsil müəssisələrində payız tətili ilə əvəz olunmaqla) müəyyən edilsin;

1.2. məktəbəqədər, məktəbdənkənar və əlavə təhsil müəssisələrinin fəaliyyəti dayandırılsın.

2. Azərbaycan Respublikasının Təhsil Nazirliyi, tabeliyində təhsil müəssisələri olan digər icra hakimiyyəti orqanları və dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və özəl təhsil müəssisələrinin təsisçiləri bu Qərarın icrası ilə bağlı zəruri tədbirlərin görülməsini təmin etsinlər.

## Tural Gəncəliyev AŞPA-nın onlayn iclasında erməni təxribatından danışdı

***AŞPA-nın Miqrasiya, Qaçqınlar və Məcburi Köçkünlər Komitəsinin onlayn iclası keçirilib.***

"Unikal" xəbər verir ki, iclasda erməni nümayəndə heyətinin üzvləri ölkəmizin əleyhinə əsassız ittihamlar səsləndiriblər. Erməni deputatlarının ardınca çıxış edən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri, AŞPA-dakı Azərbaycan nümayəndə heyətinin üzvü, millət vəkili Tural Gəncəliyev tutarlı faktlarla erməniləri susmağa məcbur edib. İcma rəhbəri avropalı parlamentarilərin diqqətinə Ermənistan silahlı qüvvələri tərəfindən Gəncədə mülki əhalinin atəşə tutulması, çoxmənzilli binaların dağıdılması, Tərtər rayonunda dəfn mərasimi keçirilən qəbiristanlığın raket atəşinə məruz qalması və nəticədə mülki insanların həlak olması, döyüş bölgəsində AZTV-əməkdaşlarının atəşə tutulması faktlarını çatdırıb.

T.Gəncəliyev bütün bunlarla yanaşı Şuşa sakini olduğunu və Ermənistanın işğalçılıq siyasətindən əl çəkməməsi üzündən 28 ildir öz yurduna qayıda bilməməsini iclas iştirakçılarının diqqətinə çatdırıb.



## Ərdoğan İstanbulda Zelenski ilə görüşdü

***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İstanbulda Ukrayna Prezidenti Vladimir Zelenski ilə görüşüb.***

Unikal.org-un "Anadolu" agentliyinə istinadən verdiyi xəbərə görə, Vəhdəddin Sarayında keçirilən görüş mətbuata qapalı keçirilib.



## "Şuşadakı kilsənin "vurulması" ermənilərin növbəti təxribatıdır" - QMİ sədri

***"Şuşada olan Rus Provaslav Kilsəsinin vurulması ilə bağlı iddialar ermənilərin növbəti təxribatıdır. Onlar bununla demək istəyirlər ki, bizim kilsələri dağıdırlar, vururlar".***

Unikal.org xəbər verir ki, bunu Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə deyib. "Mən öz dövlətimi bilirəm. Azərbaycan dövləti heç bir zaman dini məbədlərə hücum etməz. Biz heç vaxt məbədlərə qarşı çıxmamışıq".

# XİN uşaqlara qarşı törədilən kobud hüquq pozuntuları ilə bağlı məlumat yaydı

***Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsi Ermənistan tərəfindən Azərbaycan Respublikasında uşaqlara qarşı törədilən kobud hüquq pozuntularına dair məlumat yayıb.***

"Unikal"a daxil olan məlumatda deyilir: "Təxminən otuz on ildir ki, Azərbaycan Respublikasında yüz minlərlə uşaq Ermənistanın davamlı təcavüzündən və onun uzunmüddətli təsirlərindən əziyyət çəkir. Bu müddət ərzində Ermənistan mənəvi öhdəliklərinə və qanunla nəzərdə tutulmuş məsuliyyətinə məhəl qoymayaraq azərbaycanlı uşaqları beynəlxalq sənədlərdə təsbit olunmuş əsas hüquqlardan, habelə Uşaq Hüquqları Konvensiyasında təsbit edildiyi kimi BMT Nizamnaməsində elan edilmiş ideallar, xüsusilə də barış, ləyaqət, bərabərlik və həmrəylik ruhunda tərbiyə edilmək hüququndan məhrum etmişdir. Ermənistan Mülki şəxslərin müdafiəsi haqqında IV Cenevrə Konvensiyası və I Əlavə Protokolla uşaqlar üçün təmin edilməli olan müdafiəni, xüsusilə yaşamaq hüququ, fiziki cəza, işgəncə və kollektiv cəzanın qadağan edilməsi, eləcə də bu sənədlərdə müəyyən edilmiş müharibənin aparılması qaydaları, o cümlədən mülki şəxslər və döyüşçülər arasında fərq qoymağın zəruriliyi və mülki şəxslərə qarşı hücumların qadağan edilməsi kimi qaydaları daim pozmuşdur. Bundan əlavə, Ermənistan, I Əlavə Protokolda yer alan "uşaqlar xüsusi hörmət obyekti olmalı və hər cür nalayiq hücumlardan qorunmalıdırlar" kimi müəyyənləşdirilmiş xüsusi qoruma prinsipindən irəli gələn öhdəliyinə açıq şəkildə məhəl qoymayıb.

Ermənistan əhalini qorxutmaq və qaçmağa məcbur etmək üçün soyqırımı aktından istifadə edib. Yalnız 1992-ci ildə Xocalı qətliamında, 63-ü uşaq olmaqla 613 mülki şəxs Ermənistan silahlı qüvvələri tərəfindən vəhşicəsinə öldürülmüş və bir çoxu şikəst edilmişdir. IV Cenevrə Konvensiyasının 49-cu maddəsinə zidd olaraq üçdə biri uşaq olan 1 milyon azərbaycanlı zorla evlərindən qovulmuşdur. Təxminən 15 il məcburi köçkün uşaqların böyük bir hissəsi Azərbaycan Respublikası hökumətinin böyük səyləri və ayırdığı büdcə vəsaitləri sayəsində sonradan ləğv edilmiş çadır şəhərciklərində və dəmir yolu vaqonlarından ibarət kəndlərdə yaşamaq məcburiyyətində qalmışdır. Azərbaycandakı məcburi köçkün uşaqlar, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş 822, 853, 874 və 884 saylı qətnamələri də daxil olmaqla, müvafiq sənədlərin müddəalarına baxmayaraq, təhlükəsiz şəkildə və ləyaqətlə öz torpaqlarına könüllü qayıtmaq hüququndan yararlana bilmirlər.

IV Cenevrə Konvensiyasının uşaqlara qayğı və təhsillə bağlı bütün qurumların fəaliyyətinin işğalçı dövlət tərəfindən təmin edilməsini nəzərdə tutan 50-ci maddəsinin əksinə olaraq, Ermənistanın Azərbaycan Respublikasına qarşı davamlı silahlı təcavüzü ölkəmizdə uşaqlar üçün infrastruktura ciddi ziyan vurmuşdur. Özünü Təhlükəsiz Məktəb Bəyannaməsinin "dəstəkçilərindən" biri kimi təqdim edən Ermənistan, Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində-ki 1107 təhsil obyektinin və 855 uşaq bağçasının tamamilə məhv edilməsinə cavabdehdir. Etnik təmizləmə siyasəti nəticəsində bütün azərbaycanlı məktəblilər və tələbələr doğma yurdlarından didərgin salınıblar. On minlərlə azərbaycanlı uşaq təhsil hüquqlarını davamlı köçkünlükdən qaynaqlanan ciddi problemlərlə üzləşərək həyata keçirirlər. Cəbhə xəttinə yaxın ərazilərdə yaşayan çoxlu sayda uşaq daima Ermənistan silahlı qüvvələrinin mülki şəxsləri hədəfə alan atəş təhlükəsi altında dərslərinə qatılırlar.

IV Cenevrə Konvensiyasının girov götürülməsini açıq şəkildə qadağan edən 34-cü maddəsinə və Uşaq Hüquqları Konvensiyasının 38-ci maddəsinin 1-ci və 4-cü bəndlərinə zidd olaraq, 224 uşaq Ermənistan tərəfindən girov götürülmüş və sonradan sərbəst humanitar hüququn kobud şəkildə pozulması və bu dövlətin irqçi və ksenofob siyasətinin bariz nümayişidir. Uşaqları öldürmək və yaralamaq, eləcə də məktəb və xəstəxanaları atəşə tutmaqla Ermənistan BMT Təhlükəsizlik Şurasının 1261 saylı (1999) qətnaməsinə əsasən münaqişələr zamanı uşaqlara qarşı ağır cinayətləri törətməkdə davam edir.

Uşaqlar gələcəyi təmsil edir. Bu gün beynəlxalq birlik bütöv bir nəslin on illərdir davam edən əzablarına məhəl qoymayaraq, haqq və qanunun aliliyini təmin etməməklə münaqişələrin davam etməsinə toxum səpir və gələcək nəsli qorumaq və onları təhlükəsiz mühitlə təmin etmək üçün ümumbəşəri mənəvi borcunu yerinə yetirməməklə dünyanın gələcəyini bənin aparılması qaydaları, o cümlədən mülki şəxslər və döyüşçülər arasında fərq qoymağın zəruriliyi və mülki şəxslərə qarşı hücumların qadağan edilməsi kimi qaydaları daim pozmuşdur. Bundan əlavə, Ermənistan, I Əlavə Protokolda yer alan "uşaqlar xüsusi hörmət obyekti olmalı və hər cür nalayiq hücumlardan qorunmalıdırlar" kimi müəyyənləşdirilmiş xüsusi qoruma prinsipindən irəli gələn öhdəliyinə açıq şəkildə məhəl qoymayıb.

Ermənistan əhalini qorxutmaq və qaçmağa məcbur etmək üçün soyqırımı aktından istifadə edib. Yalnız 1992-ci ildə Xocalı qətliamında, 63-ü uşaq olmaqla 613 mülki şəxs Ermənistan silahlı qüvvələri tərəfindən vəhşicəsinə öldürülmüş və bir çoxu şikəst edil-kin düşmüşdür.

Atəşkəs rejimi dövründə də Ermənistan uşaqları hədəf olaraq istifadə etmək kimi çirkin fəaliyyətlərdən çəkinməmişdir. Bu müddət ərzində 35-dən çox Azərbaycanlı uşaq Ermənistan silahlı qüvvələri tərəfindən qətlə yetirilib.

27 sentyabr 2020-ci il tarixdə Ermənistanın silahlı qüvvələri Azərbaycana qarşı yeni təcavüzə əl atıb. Nəticədə 3-ü uşaq olmaqla, 47 azərbaycanlı mülki şəxs öldürülüb, 15-dən çoxu uşaq yaralanıb, 38 məktəb də daxil olmaqla mülki obyektlər dağıdılıb. Sentyabrın 27-də Azərbaycanın Naftalan rayonunun Qaşaltı kəndində bir ailənin beş üzvü, o cümlədən iki məktəbli, 13 yaşlı Şəhriyar Qurbanov və 14 yaşlı Fidan Qurbanova Ermənistan silahlı qüvvələri tərə-



buraxılmış, 29 uşaq hələ də erməni girovluğunda sayılır. 71 uşaq itkin düşmüşdür.

Atəşkəs rejimi dövründə də Ermənistan uşaqları hədəf olaraq istifadə etmək kimi çirkin fəaliyyətlərdən çəkinməmişdir. Bu müddət ərzində 35-dən çox Azərbaycanlı uşaq Ermənistan silahlı qüvvələri tərəfindən qətlə yetirilib.

27 sentyabr 2020-ci il tarixdə Ermənistanın silahlı qüvvələri Azərbaycana qarşı yeni təcavüzə əl atıb. Nəticədə 3-ü uşaq olmaqla, 47 azərbaycanlı mülki şəxs öldürülüb, 15-dən çoxu uşaq yaralanıb, 38 məktəb də daxil olmaqla mülki obyektlər dağıdılıb. Sentyabrın 27-də Azərbaycanın Naftalan rayonunun Qaşaltı kəndində bir ailənin beş üzvü, o cümlədən iki məktəbli, 13 yaşlı Şəhriyar Qurbanov və 14 yaşlı Fidan Qurbanova Ermənistan silahlı qüvvələri tərəfindən öldürülüb. Ermənistanın hücumları cəbhə zonasının və Ermənistanla sərhədin yaxınlığındakı yüzlərlə məktəbdə təhsil prosesinə ciddi ziyan vurub və azərbaycanlı uşaqların təhsil almaq hüququ bir daha pozulub.

Oktyabrın 11-də gecə saatlarında cəbhə xəttindən uzaqda yerləşən Gəncə şəhərindəki yaşayış binalarının raket atəşinə tutulması nəticəsində 10 mülki şəxs öldürülüb, uşaqlar da daxil olmaqla, 34 nəfər yaralanıb. 3 uşaq hər iki valideynini itirib.

Azərbaycan tərəfinin çoxsaylı xəbərdarlıqlarına baxmayaraq, Ermənistanın mülki şəxsləri, o cümlədən uşaqları və mülki infrastrukturu hədəfə alması beynəlxalq təhlükə altına alır. Bu baxımdan, beynəlxalq ictimaiyyəti, xüsusilə müvafiq beynəlxalq təşkilatları Ermənistanın Azərbaycan Respublikasında uşaqları və təhsil müəssisələrini qəsdən hədəfə almasına qarşı açıq şəkildə reaksiya verməyə və otuz ildir davam edən cəzasızlıq mühitini dayandırmaq üçün təsirli tədbirlər görməyə çağırırıq. Biz, həmçinin Ermənistanın Azərbaycan Respublikasında uşaqlara qarşı ciddi qanun pozuntuları törətməsinə töhfə verən hərəkətlərdən, yəni bu ölkəyə siyasi, maliyyə və xüsusilə də hərbi dəstək verilməsindən çəkinməyə çağırırıq.

Təxminən otuz on ildir ki, Azərbaycan Respublikasında yüz minlərlə uşaq Ermənistanın davamlı təcavüzündən və onun uzunmüddətli təsirlərindən əziyyət çəkir. Bu müddət ərzində Ermənistan mənəvi öhdəliklərinə və qanunla nəzərdə tutulmuş məsuliyyətinə məhəl qoymayaraq azərbaycanlı uşaqları beynəlxalq sənədlərdə təsbit olunmuş əsas hüquqlardan, habelə Uşaq Hüquqları Konvensiyasında təsbit edildiyi kimi BMT Nizamnaməsində elan edilmiş ideallar, xüsusilə də barış, ləyaqət, bərabərlik və həmrəylik ruhunda tərbiyə edilmək hüququndan məhrum etmişdir. Ermənistan Mülki şəxslərin müdafiəsi haqqında IV Cenevrə Konvensiyası və I Əlavə Protokolla uşaqlar üçün təmin edilməli olan müdafiəni, xüsusilə yaşamaq hüququ, fiziki cəza, işgəncə və kollektiv cəzanın qadağan edilməsi, eləcə də bu sənədlərdə müəyyən edilmiş müharimişdir. IV Cenevrə Konvensiyasının 49-cu maddəsinə zidd olaraq üçdə biri uşaq olan 1 milyon azərbaycanlı zorla evlərindən qovulmuşdur. Təxminən 15 il məcburi köçkün uşaqların böyük bir hissəsi Azərbaycan Respublikası hökumətinin böyük səyləri və ayırdığı büdcə vəsaitləri sayəsində sonradan ləğv edilmiş çadır şəhərciklərində və dəmir yolu vaqonlarından ibarət kəndlərdə yaşamaq məcburiyyətində qalmışdır. Azərbaycandakı məcburi köçkün uşaqlar, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş 822, 853, 874 və 884 saylı qətnamələri də daxil olmaqla, müvafiq sənədlərin müddəalarına baxmayaraq, təhlükəsiz şəkildə və ləyaqətlə öz torpaqlarına könüllü qayıtmaq hüququndan yararlana bilmirlər.

IV Cenevrə Konvensiyasının uşaqlara qayğı və təhsillə bağlı bütün qurumların fəaliyyətinin işğalçı dövlət tərəfindən təmin edilməsini nəzərdə tutan 50-ci maddəsinin əksinə olaraq, Ermənistanın Azərbaycan Respublikasına qarşı davamlı silahlı təcavüzü ölkəmizdə uşaqlar üçün infrastruktura ciddi ziyan vurmuşdur. Özünü Təhlükəsiz Məktəb Bəyannaməsinin "dəstəkçilərindən" biri kimi təqdim edən Ermənistan, Azərbaycan Respublikasının işğal olunmuş ərazilərindəki 1107 təhsil obyektinin və 855 uşaq bağçasının tamamilə məhv edilməsinə cavabdehdir. Etnik təmizləmə siyasəti nəticəsində bütün azərbaycanlı məktəblilər və tələbələr doğma yurdlarından didərgin salınıblar. On minlərlə azərbaycanlı uşaq təhsil hüquqlarını davamlı köçkünlükdən qaynaqlanan ciddi problemlərlə üzləşərək həyata keçirirlər. Cəbhə xəttinə yaxın ərazilərdə yaşayan çoxlu sayda uşaq daima Ermənistan silahlı qüvvələrinin mülki şəxsləri hədəfə alan atəş təhlükəsi altında dərslərinə qatılırlar.

IV Cenevrə Konvensiyasının girov götürülməsini açıq şəkildə qadağan edən 34-cü maddəsinə və Uşaq Hüquqları Konvensiyasının 38-ci maddəsinin 1-ci və 4-cü bəndlərinə zidd olaraq, 224 uşaq Ermənistan tərəfindən girov götürülmüş və sonradan sərbəst buraxılmış, 29 uşaq hələ də erməni girovluğunda sayılır. 71 uşaq it-findən öldürülüb. Ermənistanın hücumları cəbhə zonasının və Ermənistanla sərhədin yaxınlığındakı yüzlərlə məktəbdə təhsil prosesinə ciddi ziyan vurub və azərbaycanlı uşaqların təhsil almaq hüququ bir daha pozulub.

Oktyabrın 11-də gecə saatlarında cəbhə xəttindən uzaqda yerləşən Gəncə şəhərindəki yaşayış binalarının raket atəşinə tutulması nəticəsində 10 mülki şəxs öldürülüb, uşaqlar da daxil olmaqla, 34 nəfər yaralanıb. 3 uşaq hər iki valideynini itirib.

Azərbaycan tərəfinin çoxsaylı xəbərdarlıqlarına baxmayaraq, Ermənistanın mülki şəxsləri, o cümlədən uşaqları və mülki infrastrukturu hədəfə alması beynəlxalq humanitar hüququn kobud şəkildə pozulması və bu dövlətin irqçi və ksenofob siyasətinin bariz nümayişidir. Uşaqları öldürmək və yaralamaq, eləcə də məktəb və xəstəxanaları atəşə tutmaqla Ermənistan BMT Təhlükəsizlik Şurasının 1261 saylı (1999) qətnaməsinə əsasən münaqişələr zamanı uşaqlara qarşı ağır cinayətləri törətməkdə davam edir.

Uşaqlar gələcəyi təmsil edir. Bu gün beynəlxalq birlik bütöv bir nəslin on illərdir davam edən əzablarına məhəl qoymayaraq, haqq və qanunun aliliyini təmin etməməklə münaqişələrin davam etməsinə toxum səpir və gələcək nəsli qorumaq və onları təhlükəsiz mühitlə təmin etmək üçün ümumbəşəri mənəvi borcunu yerinə yetirməməklə dünyanın gələcəyini təhlükə altına alır. Bu baxımdan, beynəlxalq ictimaiyyəti, xüsusilə müvafiq beynəlxalq təşkilatları Ermənistanın Azərbaycan Respublikasında uşaqları və təhsil müəssisələrini qəsdən hədəfə almasına qarşı açıq şəkildə reaksiya verməyə və otuz ildir davam edən cəzasızlıq mühitini dayandırmaq üçün təsirli tədbirlər görməyə çağırırıq. Biz, həmçinin Ermənistanın Azərbaycan Respublikasında uşaqlara qarşı ciddi qanun pozuntuları törətməsinə töhfə verən hərəkətlərdən, yəni bu ölkəyə siyasi, maliyyə və xüsusilə də hərbi dəstək verilməsindən çəkinməyə çağırırıq".

***İnformasiya şöbəsi***

# “Qarşı tərəf görməlidir ki, Azərbaycan həqiqətən tək deyil”

## Sülhəddin Əkbər: “Əgər Azərbaycan Türkiyə, Pakistan, İsrail və onun yəhudi lobbisinin gücündən istifadə edərək Amerikadan, İngiltərədən aldığı dəstəyi artırarsa, önləyici çəkindirici güc qazanar”

***Azərbaycan Ordusu əks-hücum əməliyyatlarını uğurla davam etdirir. Bununla yanaşı, Azərbaycan tərəfi siyasi və diplomatik mübarizəni də yüksək səviyyədə apararaq, qarşı tərəfin işğalçılıq və terrora söykənən siyasətini ifşa edir.***

***Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər “Unikal” qəzetinə müsahibəsində də bu istiqamətdə mühüm məqamlara toxunub.***

***-Sülhəddin bəy, Ordumuzun son 20 gündəki əks-hücum əməliyyatlarını və əldə edilən uğurları necə dəyərləndirirsiniz?***

-Öncə obyektiv şəraiti dəyərləndirmək lazımdır. Düşmən Rusiyanın hərtərəfli dəstəyini alaraq 30 ilə yaxındır ki, işğal bölgəsində möhkəmlənmiş hərbi rayonlar qurub. Digər tərəfdən, relyefi nəzərə almaq lazımdır. Bilirsiniz ki, işğalda olan ərazilər dağlıq, dağətəyi bölgələri, strateji yüksəklikləri əhatə edir. Azərbaycan Ordusu dağlara doğru hərəkət etməli olur, həm də möhkəmləndirilmiş hərbi rayonlara hücum edir. Ümumiyyətlə, bilirsiniz ki, hücum etmək müdafiə olunmaqdan çox çətindir. Bütün bu faktorları nəzərə alsaq, Azərbaycan Ordusunun irəliləyişini yüksək qiymətləndirirəm. Azərbaycan Ordusu yüksək səviyyəli döyüş aparır. Həm strateji düşüncə, ağıl, həm təhcizat, hərbi texnika baxımından, eyni zamanda savaşın digər parametrləri baxımından ordumuzun fəaliyyətini yüksək qiymətləndirməliyik.

***-Digər parametrlər deyəndə nəyi nəzərdə tutursunuz?***

-Digər parametrlər deyəndə onu nəzərdə tuturam ki, indi savaşlar əsasən strateji xarakter alır. Yəni savaşlar çox tərəflidir. Bunun siyasi, diplomatik, iqtisadi, hərbi, eyni zamanda, kəşfiyyat, informasiya, psixoloji və sair tərəfləri var. Dərindən analiz etsək, görərik ki, Azərbaycan dövlət səviyyəsində strateji savaş aparır, özü də bunu yüksək səviyyədə həyata keçirir. Dediyim, bütün çətinlikləri nəzərə alsaq, Azərbaycan Ordusu bu günə qədər ciddi uğurlar əldə edib. Arzumuz odur ki, bu uğurlar qələbəyə qədər davam eləsin.

***-Ötən həftə Moskvada hər iki tərəfin xarici işlər nazirlərinin iştirakı ilə görüş keçirildi və nəticədə birgə humanitar atəşkəs mahiyyətli bir bəyanat verildi. Həmin atəşkəsə əməl olunmasa da, bu, Rusiyanın prosesə ilk müdaxiləsi kimi dəyərləndirilə bilər. Bu müdaxilə nə dərəcədə ziyanlıdır?***

-Məlumdur ki, Moskva uyğun bir zamanda özünə uyğun formada proseslərə müdaxilə edəcəkdi. Təbii ki, baş verənlər, böyük geopolitik savaşdır. Burada üst səviyyəli - geopolitik, geostrateji, geoekonomik, geofiltralmaraqlar var. Eyni zamanda, savaşın alt səviyyəli - siyasi, iqtisadi, hərbi və mədəni tərəfləri var. Mən, məsələnin bütün tərəflərinə toxunub oxucuları yormaq istəmirəm. Amma bəzi aktual məsələlərə toxunmaq istəyirəm. Onu deyim ki, Moskva bir addımla bir neçə məqsədə nail olmaq istəyir.

Birincisi, Moskva konfliktin yenidən qızışması ilə qaz müharibəsi sahəsində gediş eləmək istədi. Burada söhbət TAP-ın istifadəyə verilməsindən gedir. Şimal Axını 2-yə sanksiyaların tətbiq olunduğu bir vaxtda Azərbaycanın uğurlu enerji siyasəti aparması və TANAP-ın davamı olan TAP-ın inşasını başa çatdırması Rusiyanı qıcıqlandırır. Bilirsiniz ki, bu TAP xətti ilə Azərbaycandan Avropaya ildə 10 milyon kub metr qaz ötürüləcəkdir. Yeri gəlmişkən, bir məqamı da diqqətinizə çatdırmaq istəyirəm. Xatırlayırsınızsa, 2016-cı ildə aprel döyüşləri başlamışdı. Bu, hansı ərəfəyə təsadüf edir? Bu, məhz TAP-ın tikintisinə başlanılma, təməlinin atılma ərəfəsində oldu. İndi isə TAP-ın istifadəyə verilmə ərəfəsidir. Tovuz təxribatı oldu, ardı ilə də müharibənin alovlanması baş verdi. Yəni, buradaqaz müharibəsi gedir. Bundan əlavə, qarşıdakı ildə Rusiya “yaxın xaricdə” güclənmək istəyir, əks tərəfdə isə gərginliyin artmasını istəyir. Yəqin ki, Belarusdakı hadisələri, Qırğızıstanda baş verənləri, Azərbaycandakı prosesləri izləyirsiniz. Bilirsiniz ki, bu ayın 30-da Gürcüstanda, noyabrın 1-də də Moldovada seçkilər var. Bir məsələni də xatırladım ki, Ukrayna 2020, yəni, Ukrayna Silahlı Qüvvələrinin NATO standartlarına uyğunlaşdırılması prosesi bu ilin sonu başa çatır. Bundan əlavə, 2021-ci ildə Türkiyənin Qara dənizdə iki missiyanı yerinə yetirməsi gözlənilir. Sadaladıqca, proses daha da mürəkkəbləşəcək. Yəni, burada həm enerji, qaz bazarı uğrunda mübarizə var. İkincisi, geopolitik savaş gedir. Nəhayət, üçüncüsü burada siyasi maraqlar var. Kremlin düşüncəsinə görə, Qərbpərəst Paşinyan hakimiyyətini Azərbaycanın əli ilə cəzalandırmaq, sonra da uyğun bir vaxtda proseslərə müdaxilə edib sülhməramlı qüvvələr adı altında ordusunu Dağlıq Qarabağda yerləşdirsin. Ola bilsin ki, Rusiya Azərbaycanın bu qədər yüksək səviyyədə döyüş aparacağını gözləmirdi. Gördü ki, Azərbaycan belə davam eləsə, çox böyük uğurlar əldə edəcək. Bu uğurlar da Rusiyanın imicinə böyük zərbə vurur.



***-Hansı mənada zərbə vurur?***

-Çünki Azərbaycan Silahlı Qüvvələrinə Türkiyə yardım edib. Heç kimə sirr deyil ki, Ermənistan Silahlı Qüvvələri də Rusiya tərəfindən hərtərəfli hazırlanıb təchiz olunub. Yəni, burada həm də iki sistemin mübarizəsi gedir. Döyüş meydanında rus texnikasının necə asanlıqla sıradan çıxarılması Rusiyaya hərbi-texniki, silah satışı baxımından da, çox böyük zərbə vurur. Ona görə də məcbur qalaraq, prosesə müdaxilə etmək qərarı verdi. Əgər Azərbaycan prosesi uğurlu aparıb, ard-arda qələbələr əldə etməsəydi, bəlkə də Rusiyanın müdaxiləsi gecikəcəkdi. Çünki Ermənistanda daxili siyasi böhran lazım olan həddə çatmayıb, hələ yeni başlayıb.

***-Maraqlı məqamlardan biri də odur ki, Rusiya prosesdə Türkiyənin hər hansı bir formada iştirakından narahatdır. Lavrovun son çıxışında bu məqamlar daha çox qabarıq görsəndi. Sizcə, Moskva Türkiyənin Azərbaycana dəstəyindən niyə bu qədər narahatdır?***

-Ona görə ki, onlar görürlər ki ,Azərbaycanın hərbi-texniki, hərbi təhsil sahəsində Türkiyə ilə strateji tərəfdaşlığı bizi kifayət qədər gücləndirib. Türkiyə bu dəqiqə açıq şəkildə Azərbaycanın yanında olduğunu bəyan edir. Müharibənin genişlənəcəyi, ikinci tərəfin qoşulacağı təqdirdə Azərbaycanın yanında olacağını bildirməkdən çəkinmir. Bu da Azərbaycanı cəsarətləndirir. Həm siyasi-mənəvi, həm mənəvi-psixoloji dəstək verir, eyni zamanda, cəmiyyətdə ruh yüksəkliyi yaradır. Rusiya düşünür ki, Türkiyə olmasaydı, Azərbaycana daha asanlıqla təzyiq edərdi. Moskvadan Azərbaycana əsas təzyiqlərdən biri o idi ki, sülhməramlı qüvvələr adı altında Rusiyanın silahlı qüvvələri bölgəyə yeridilsin. Azərbaycan tərəfi buna razı olmayıb. Heç şübhəsiz burada Türkiyənin də təsiri var. Hazırda müharibə getdiyinə görə deyə bilmədiyim çoxlu faktorlar var. Rus kəşfiyyatı dünyanın ən güclü kəşfiyyatlarından biridir və onlar nəyin baş verdiyini çox gözəl görürlər. Ona görə də Türkiyədən qıcıqlanırlar. Hiss edirsinizsə, Türkiyənin hətta danışıqlar prosesindən kənarda qalmasına çalışırlar. Görürsünüz ki, sülhməramlı adı altında qüvvələrini bura soxa bilmədilər, indi də Rusiyanın hərbi müşahidəçiləri adı altında gəlmək istəyirlər. Bu barədə Şoyqunun da həm Ermənistan, həm Azərbaycanın müdafiə nazirləri ilə telefon danışığında da müzakirə olunub. Moskva görür ki, regiona sülhməramlı adı altında gələ bilmir, hərbi müşahidəçilər adı altında atəşkəsə nəzarət üçün gəlmək istəyir.

***-Bəs bu formatda gəlişin təhlükəsi nə qədərdir?***

-Təbii ki, bu gəlişin təhlükəsi var. Burada təhlükəli məqam ondan ibarətdir ki, vasitəçilik Rusiyanın dövlət başçısı səviyyəsində edildiyinə görə, Putinin xarizması cızıldığına və atəşkəsin baş tutmadığına görə, Rusiyanın daha sərt addımlar ata biləcəyindən bir qədər qayğılanıram. Ona görə də Azərbaycanın Türkiyə və Pakistanla daha sıx kordinasiyalı işləməsinin tərəfdarıyam, intensiv siyasi və hərbi dialoqun baş tutmasını istəyirəm. Qarşı tərəf görməlidir ki, həqiqətən Azərbaycan tək deyil. Yəni, Azərbaycan önləyici çəkindirici güc yığmalıdır. Rusiya da bu gücü görməlidir. Önləyici çəkindirici güc yığa bilməsək, üstümüzə gələcəklər.

***-Həm ölkədəki durumu, həm geopolitik vəziyyəti analiz etdiniz. Ümumilikdə bütün detalları nəzərə alsaq, prosesin hansı istiqamətdə yekunlaşacağı ilə bağlı hansısa versiyalar irəli sürmək olarmı?***

-Açığı konkret fikir söyləmək çox risklidir. Əgər Azərbaycan dövləti Türkiyə, Pakistan, İsrail və onun yəhudi lobbisinin gücündən istifadə edərək Amerikadan, İngiltərədən aldığı dəstəyi artıraraq davam edərsə, önləyici çəkindirici güc qazanar. Azərbaycan önləyici çəkindirici gücə çevrilərsə, Rusiya daha sərt addımlar atmaqdan çəkinər. Hazırda həlledici və strateji məqam olaraq, bunu vurğulamaq istəyirəm. Rusiyanın kobud müdaxiləsinin qarşısını ancaq belə almaq olar.

***-Yəni, Ordumuzun qazandığı qələbəni bu yolla beynəlxalq güclərin dəstəyi ilə təsdiqləmiş olacağıq...***

-Bəli. Azərbaycan Ordusunun qarşısında duran əsas operativ taktiki vəzifə düşmənin işğalçı ordusunun döyüş əzmini qırmaqdır. Siyasi cəhətdən isə əsas məsələ Ermənistanda siyasi böhranın dərinləşməsinə və onun sistem böhranına çevrilməsinə nail olmaqdır.

***Z.Məmmədli***

# Fazil Məmmədovun "biznes imperiyası" da "qüruba" yaxınlaşır

## Sabiq nazirin şirkətlər qrupunun əvvəlki illərlə müqayisədə kəskin şəkildə zəifləməsinin sirri nədir?

***Azərbaycanın keçmiş Vergilər naziri Fazil Məmmədova məxsus olan şirkətlər qrupu özünün yaxşı günlərini yaşamır. Söhbət “Synergy Group”dan gedir.***

Məlumatlı mənbələrdən ”Unikal” qəzetinə daxil olan xəbərlərdə deyilir ki, Məmmədovun nazir postundan kənarlaşdırılmasının və bundan bir qədər sonra səhhətində ciddi problemlər ortaya çıxmasının ardından onun ”biznes imperiyası” da zəifləməyə başlayıb. Belə ki, ”Synergy Group”a daxil olan şirkətlərdən bəziləri fəaliyyətini dayandırıb, bəzilərinin isə fəaliyyəti minimuma enib.



Xatırladaq ki, Fazil Məmmədovun nazir olduğu, necə deyərlər, ”qılıncının dalının da, qabağının da kəsdiyi vaxtlarda” yaradılan adıçəkilən şirkətlər qrupu istehsalat, tikinti, kənd təsərrüfatı, İKT, hotelçilik, təhsil, səhiyyə və bank işi sahələri üzrə iri yatırımlar edib. 2010-cu ildə təsis edilmiş, şüarı “Davamlı gələcəyə doğru” olan “Synergy Group” qısa vaxtda Azərbaycanda fəaliyyət göstərən ən iri özəl investisiya şirkətlərindən birinə çevrilib, qeyri-neft sektorunda müxtəlif və inkişaf yönümlü şirkətlərdən ibarət holdinq kimi tanıdılıb. İki-üç il öncəyədək qrupa daxil olan şirkətlərin böyük əksəriyyəti Bakıdan kənarda yerləşməklə, regionların sosial-iqtisadi inkişafında mühüm paya malik olduğu bildirilirdi. Holdinqdə rəsmi olaraq, 30-a yaxın, qeyri-rəsmi isə 60-dan çox şirkətin birləşdiyi deyilir, həmin şirkətlərin bəzisində xarici kapitalın da iştirak etdiyi vurğulanırdı. “Synergy Group”un tərkibindəki “Excelsior Hotel Shamkir”, “AzAqro” qızılgül istixanaları, Zəyəm Texnologiyalar Parkı, “Zəka” Gənclər Mərkəzi kimi bəzi şirkətlərin uzun illər Fazil Məmmədovun kurasiyasında olduğu Şəmkirdə yerləşdiyi vurğulanırdı.Onu da deyək ki, Məmmədov nazir postunu itirdikdən bir müddət sonra onun hələ də bu rayonda söz sahibi olduğuna dair iddialar vardı. Lakin qəzetimizə daxil olan son iddialarda sabiq ”vergi şefi”nin Şəmkirdəki təsir imkanlarının azaldığı deyilir. Bildirilir ki, F.Məmmədov vəzifədən getdikdən sonra, hər nə qədər səhhətində ciddi problemlər yaşasa da, öz ”biznes imperiyasının” idarəçiliyini birbaşa üzərinə götürüb. Lakin bu da onun şirkətlər qrupunun əvvəlki illərlə müqayisədə kəskin zəifləməsinin qarşısını ala bilməyib. Bu iddiaları doğrulayan bəzi faktlar da var. Məsələn, 2019-cu ilin iyulunda ”Agro Pack” MMC könüllü ləğv edildiyini elan edib. Halbuki şirkət həmin tarixdən cəmi il yarım əvvəl 100 manat kapitalla Şəmkir rayonunda təsis olunmuşdu. Onun direktoru isə məhz ”Synergy Group”da təmsil olunan Fərid Hüseynov idi.

”Agro Pack”dan bir neçə ay öncə isə ”Asset House” MMC-nin kreditorları könüllü ləğv olunduqları barədə məlumat yayıblar. Məhz Fazil Məmmədovun holdinqinə daxil olan və 2013-cü ilin mart ayında yaradılan həmin şirkətin fəaliyyətinin də məhz keçmiş ”vergi şefi”nin ”vurulmasından” sonra dayandırılması diqqət çəkicidir.

(Bu yerdə daha bir kiçik xatırlatma: hazırda 56 yaşı olan F.Məmmədov 17 il Vergilər naziri işlədikdən sonra 2017-ci ildə bu postdan kənarlaşdırılıb. Onun nazir olduğu dövrdə vergi sektorunda rüşvət və korrupsiyanın dərin kök saldığı hər kəsə aydın həqiqət idi).

Sabiq ”vergi şefi” ”vurulduqdan” hardasa bir il sonra onun şirkətlər qrupuna daxil olan daha bir firma - “Synergy Sport” MMC ləğv olunduğunu elan edib.

Beləliklə, aydın görünür ki, Fazil müəllimin holdinqi, o, vəzifəsini tərk etdikdən qısa müddət sonra zəifləməyə başlayıb və iddialar bu yöndədir ki, həmin zəifləmə prosesi hələ də davam edir. ”Bunda təəccüblü heç nə yoxdur. Azərbaycanda məmur-oliqarxların öz postlarını itirdikdən sonra onların bizneslərinin də qüdrətindən məhrum olmağa başlaması adi haldır. Eyni zamanda məntiqəuyğunluqdur. Çünki məmurların biznesi daha çox korrupsiya pullarına söykənir, eyni zamanda vəzifəli şəxslərin təsir imkanlarına adekvatdır. Hər hansı məmurun ”vurulması” ilə bu korrupsiya pullarının da arası kəsilir, eyni zamanda siyasi təsir və nüfuz da aradan qalxır, nəticədə həmin məmurun biznesi də sarsılmağa başlayır” deyə qəzetimizə danışan qaynaqlar bildiriblər.

Onu da qeyd edək ki, bir neçə ay öncə “Synergy Group” MMC-nin dövlət qarşısında vergi borcunun olduğu üzə çıxmışdı. Bunu İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumat bazasından əldə olunan rəqəmlər də təsdiqləyirdi. Həmin rəqəmlərə əsasən, “Synergy Group” MMC-nin 54 min 568 manat vergi borcu varmış.

Qeyd edək ki, bu borclar barədə son məlumat 23 iyun 2020-ci il tarixinə qədər olandı.Və həmin məlumatdan da başa düşmək olar ki, həqiqətən də Fazil Məmmədovun Vergilər naziri postudan kənarlaşdırılması ilə onun bir zamanlarkı gözqamaşdırıcı biznesi də artıq öz parıltısını itirməyə başlayıb və necə deyərlər, qürub etməkdədir.

***Sənan Mirzə***

# Baş Nazirdən Suqovuşanla bağlı sərəncam



***Baş Nazir Əli Əsədov ”Azərbaycan Respublikasının Tərtər rayonunun Madagiz kəndinin Suqovuşan kəndi adlandırılması haqqında” qanunun tətbiqi ilə bağlı bəzi məsələlər barədə sərəncam imzalayıb.***

Unikal.org xəbər verir ki, sərəncama əsasən, qanunun tətbiqinin təmin edilməsi məqsədilə Ədliyyə Nazirliyi icra prosesində müəyyən ediləcək aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, Nazirlər Kabinetinin normativ hüquqi aktlarının “Azərbaycan Respublikasının Tərtər rayonunun Madagiz kəndinin Suqovuşan kəndi adlandırılması haqqında” Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində Nazirlər Kabinetinə təqdim etməlidir.

Həmçinin, razılaşdırma prosesinin iştirakçıları (əsas və birgə icraçılar) bu Sərəncamın icrası ilə bağlı normayaratma vəzifələrindən irəli gələn məsələlər üzrə (layihə və təkliflərin baxılması, hazırlanması, razılaşdırılması, təqdim edilməsi və s.) müvafiq tədbirlər görüb icra vəziyyəti tələb etdikdə, məlumatları icra üçün ayrılmış müddətin birinci yarısı başa çatanadək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etməlidirlər. Eyni zamanda, hüquqi aktların layihələrini əsas icraçıya təqdim edən subyektlər “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununun müvafiq maddələrinin tələblərinə əməl olunmasını təmin etməlidirlər.

Mərkəzi icra hakimiyyəti orqanları üç aydan gec olmayaraq, Qanunun tətbiqinin təmin edilməsi məqsədilə öz səlahiyyətləri daxilində normayaratma vəzifələrindən irəli gələn tədbirlər görüb, normativ hüquqi aktlarını və ya təkliflərini olmadığı barədə məlumatı Ədliyyə Nazirliyinə təqdim etməli və icra vəziyyəti tələb etdikdə, Nazirlər Kabinetinə məlumat verməlidirlər.

Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların Qanuna uyğunlaşdırılmasını təmin edib, bu barədə dörd ay müddətində Nazirlər Kabinetinə məlumat verməlidir.

Sərəncamın icrası Nazirlər Kabineti Aparatının Hüquq və qanunvericilik şöbəsinə həvalə edilir və Sərəncam imzalandığı gündən qüvvəyə minir.

# DYP-dən vətəndaşlara çağırış: "Diqqətli olun!"




***Baş Dövlət Yol Polisi İdarəsi vətəndaşlar üçün bildiriş yayıb.***

Unikal.org-a daxil olan məlumatda deyilir:

“Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2020-ci il fərmanı ilə Respublikanın bütün ətazilərində 2020-ci il 28 sentyabr tarixi saat 00:00-dan hərbi vəziyyət elan edilmiş, həmçinin həmin fərmana əsasən, Respublikanın bir sıra şəhər və rayonarında, o cümlədən paytaxt Bakı şəhərində hərbi vəziyyət dövründə saat 21:00-dan saat 06:00-dək komendant saatı tətbiq olunur.

Qeyd olunan dövr ərzində Ermənistan tərəfindən ölkədəki sabitliyi, ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yarartmaq, dövlət hakimiyyət orqanları tərəfindən qərar qəbul edilməsinə təsir göztərmək məqsdəilə terror və təxribatlar törədilməsi ehtimalı ilə bağlı dövlət təhlükəsiliyi orqanlarına məlumatlar daxil olub.

Bununla əlaqədar təşvişə düşmədən ayıq-sayıq olmanız, əhalinin sıx cəmləşdiyi ərazilərdə, ictimai nəqliyyatda, eyni zamnda rəhbərlik etdiyiniz idarə və təşkilatlarda, həmçinin mülkiyyətinizdə və istifadənizdə olan nəqliyyat vasitələrində və ətrafında şübhəli şəxslər, bağlamalar və şübhə doğuran hər hansı əşya müşahidə etdikdə dərhal “102” xidmətinə, eləcə də yaxınlıqdakı polis orqanlarına və əməkdaşlarına məlumat verməyiniz xahiş olunur”.

# Komitə sədri: "Karantin müddəti noyabrın 2-dən sonra da uzadılacaq"



***Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxma hallarında kəskin artım müşahidə olunmaqdadır. Bu səbəbdən mövcud sanitar-epidemioloji vəziyyət nəzərə alınaraq, oktyabrın 19-dan xüsusi karantin rejimi çərçivəsində bir sıra məhdudiyyətlərin tətbiq olunmasına qərar verilib.***

Milli Məclisin Sosial siyasət komitəsinin sədri Musa Quliyev Modern.az-a bildirib ki, Nazirlər Kabineti yanında Operativ Qərargah çox yerində qərar verib: "Təəssüflər olsun ki, payızın gəlməsilə əlaqədar olaraq, bütün dünyada koronavirusa yoluxma meylləri artıb. Bir çox ölkələr karantin rejiminin sərtləşdirilməsilə bağlı qərar qəbul edib.

Dağlıq Qarabağda gedən azadetmə müharibəsilə bağlı vətəndaşlarımızda həddindən artıq coşqu, həmrəylik, birlik var. Bunun fonunda insanlar karantin qaydalarına riayət etmirlər. Bu da koronavirus epidemiyasının genişlənməsinə gətirib çıxarır. Eyni zamanda, payız fəslinin gəlişilə temperatur rejiminin ciddi şəkildə dəyişməsi də virusun daha da artmasına səbəb olur. Məktəb və bağçaların açılması, ictimai nəqliyyatın fəaliyyətinin bərpa olunması, sərnişindaşımada nəzarətin zəifləməsi bu nəticələrə gətirib çıxartdı. Ona görə də hər birimiz anlamalıyıq ki, virusun dərmanı tapılmayıb, vaksin geniş yayılmayıb, hər kəs özünü qoruma tədbirlərinə ciddi şəkildə riayət etməlidir".

Komitə sədri qeyd edib ki, metro bağlanırsa, xətlərə əlavə avtobuslar buraxılmalıdır: "Hər hansı şərait yaradılmalıdır ki, insanların hərəkəti təhlükəsiz şəkildə təmin olunsun. Həmçinin iş yerlərində qrafiklər dəyişdirilməlidir ki, hamı eyni vaxtda işdə olmasın. Distant idarəetmə mümkün olanlar evdən çalışmalıdır. Yaxud işçilər növbəli şəkildə çalışsınlar".

M.Quliyevin sözlərinə görə, karantin müddəti noyabrın 2-dən sonra da uzadılacaq: "Çünki qarşıdan soyuq havalar gəlir".

Deputat deyib ki, distant təhsilə keçilməsi bəzi çətinliklər yarada bilər: "Təbii ki, əyani təhsilin yerini heç nə vermir. İnşallah, Qarabağdakı azadlıq müharibəsilə bağlı qələbə xəbərlərini eşidəcəyik. Düşünürəm ki, bundan sonra hər şey öz qaydasına düşəcək. Prezidentin də pandemiyanın əvvəlində söylədiyi kimi, ən əsası insanların sağlamlığıdır. Əgər insan sağlam olarsa, bir ildən sonra da itirdiklərini bərpa edə bilər".

# Milli Qəhrəmanın 12 yaşlı nəvəsi qəpik-qəpik yığdığı pulu Orduya bağışladı



***Azərbaycanın şəhid Milli Qəhrəmanı Tofiq Hüseynovun azyaşlı nəvəsi Azərbaycan Silahlı Qüvvələrinə maddi dəstək göstərib.***

Bu barədə sosial şəbəkələrdə ASAN Xidmət əməkdaşlarının paylaşımı yayılıb. Şəhid babasının adını daşıyan 12 yaşlı Tofiq Hüseynov ailə üzvlərindən xəbərsiz ASAN Xidmət-in "Əsgərə məktub" layihəsinə və Silahlı Qüvvələrə Yardım Fonduna ianə kampaniyasına qoşulub. Məktəblinin dediyinə görə, bir neçə ay imiş ki, şəxsi kassa düzəldib və kassaya yalnız 50 qəpiklik yığırmış. Məqsədi yığdığı pulla özünə fotoaparat almaq olub. Amma sentyabrın 27-də Ermənistan Silahlı Qüvvələrinin cəbhə xəttində təxribat törətməsi, Azərbaycan Ordusunun əks-həmlə hücumuna başlaması onun da fikrindən daşınmasına səbəb olub. Belə ki, 12 yaşlı igid fotoaparat almaq üçün yığdığı pulunu cəbhədə torpaqlarımızın azadlığı uğrunda döyüşən əsgərlərimizə kömək üçün göndərmək niyyətinə düşüb. Elə bu fikirlə məktəbə gedərkən, qəpik kassasını da özü ilə götürüb və 5 saylı ASAN Xidmət mərkəzinə yaxınlaşıb. ASAN Xidmət əməkdaşlarının köməyi ilə yığdığı pulu hesablayıb və 103 manat 50 qəpik məbləğində ödənişi Silahlı Qüvvələrə Yardım Fonduna ianə edib.

Balaca qəhrəman ASAN Xidmət əməkdaşlarına "pulumun hamısını əsgərlərə göndərəcəm ki, onların üşüməməsi üçün isti əlcək və corab alınsın" - deyərək hər kəsin gözlərinin yaşardıb. Tofiq Hüseynov adını daşıyan balaca qəhrəman babasını heç vaxt görmədiyini, Xocalıya gedərək, babasının və nənəsinin qoxusunu o torpaqlardan almaq istədiyini də söyləyib.

Milli Qəhrəmanın nəvəsinin bu addımı sosial şəbəkələrdə və cəmiyyətdə böyük təqdirlə qarşılanıb, xoş duyğulara səbəb olub.

# Dövlət Məşğulluq Xidmətinə ittihamlar...

## Bu qurumun rayon və şəhərlərdəki Mərkəzlərindən şikayətlər səngimək bilmir




***Son vaxtlar sosial şəbəkələrdə və xəbər saytlarında Dövlət Məşğulluq Xidmətinin müxtəlif şəhər və rayonlarda fəaliyyət göstərən Mərkəzləri ilə bağlı şikayət xarakterli müraciətlərin, məlumatların artdığı hiss olunur. Həmin müraciətlərdə və məlumatlarda sözügedən Mərkəzlərdə vətəndaşların incidildiyi, get-gələ salındığı, onlardan rüşvət tələb olunduğu barədə iddialar yer alır.***

Deyilənlərdən belə aydın olur ki, xüsusilə bölgələrdəki Məşğulluq Mərkəzlərində işsiz şəxslərə yönələn müavinətlərin mənimsənilməsi və özünüməşğulluq proqramına cəlb edilmək üçün təlimlərin təşkilində maliyyə qanunsuzluqlarının mövcud olması halları geniş yayılıb.

Düzdür, Dövlət Məşğulluq Xidməti bu və bənzər iddialarla bağlı olaraq davamlı şəkildə təkzib yolu tutur, şikayətlərin, giley-güzarların yalan olduğunu və sözügedən Mərkəzlərin fəaliyyətinin şəffaf, az qala qüsursuz təşkil edildiyini söyləyir. Lakin bir sual həmişəki kimi cavabsız qalır: əgər vəziyyət doğrudan da Xidmət rəhbərliyinin iddia etdiyi kimidirsə, necə ola bilər ki, ölkənin ən müxtəlif şəhərlərindən, rayonlarından az qala eyni məzmunlu narazılıqlar yüksəlir? Belə çıxır ki, bütün vətəndaşlar yalan danışır, doğrunu isə ancaq adıçəkilən qurumun rəsmiləri söyləyirlər?

Yeri gəlmişkən, unutmayaq ki, hazırda rüşvət və korrupsiyaya görə həbs həyatı yaşayan, işini və azadlığını itirən eks məmurların çoxu da vaxtilə bu cür davranırdılar. Haqlarındakı tənqidləri birmənalı şəkildə təkzib edir, yalan və böhtan adlandırır, fəaliyyətlərinin şəffaf olduğunu söyləyirdilər. Lakin əlaqədar qurumların yoxlamaları, hüquq-mühafizə orqanlarının həyata keçirdiyi əməliyyatlar həmin deyilənlərin, söylənilənlərin uydurma olduğunu, özünü sudan quru çıxarmaq məqsədi daşıdığını ortaya qoydu.

Dövlət Məşğulluq Xidməti ilə bağlı şikayətlərə, gilery-güzarlara, irad və ittihamlara qayıtmalı olsaq, indiyədək bu qurumun yerlərdəki Mərkəzlərində yaşanan özbaşınalıqlarla bağlı az qalmaqal yaşanmayıb. Bunlardan bir neçəsini ötəri yada salmaq kifayətdir. Məsələn, hələ ötən il Cəlilabad rayon Məşğulluq Mərkəzinin üç əməkdaşının korrupsiya faktına görə saxlanıldığı barədə məlumat yayılmış, Mərkəzin direktorunun, baş mühasibinin və aparıcı mütəxəssisinin özünüməşğulluq proqramı çərçivəsində 2018-ci il üzrə işsiz və işaxtaran 60 nəfərə yaxın vətəndaşa mal və materialların verilməsi üçün hərəsindən 1500-2000 manat rüşvət almaqda şübhəli bilindiyi deyilmişdi. Sonradan direktorun və baş məsləhətçinin həbsi rəsmən təsdiqlənmiş, Baş Prokurorluqdan açıqlanan məlumatda onların müxtəlif vədlər verərək işsiz və işaxtaran şəxslərdən ümumilikdə 7.400 manat məbləğində rüşvət almalarına, habelə eyni məqsədlə 1 nəfər rayon sakinindən 1.000 manat rüşvət almağa cəhd etmələrinə şübhələr üçün əsaslar müəyyən edildiyi, nəticədə cinayət işi başlandığı bildirilmişdi.Yaxud elə bu ilin aprelində Dövlət Təhlükəsizlik Xidməti (DTX) tərəfindən keçirilən əməliyyat zamanı Biləsuvar rayonu Məşğulluq Mərkəzinin direktoru Mübariz Mustafayevin saxlanıldığı barədə məlumat yayılmışdı. Həmin vaxt Dövlət Məşğulluq Xidmətinin tabe olduğu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən bildirilmişdi ki, Mübariz Mustafayev işində yol verdiyi ciddi nöqsanlara görə bir müddət əvvət Biləsuvar rayon Məşğulluq Mərkəzinin direktoru vəzifəsindən azad edilib. Hər bir halda Mərkəz direktorunun işində ciddi nöqsanlara yol verdiyi rəsmən təsdiqlənir. Onun saxlanılmasında da məhz vəzifədəikən özbaşınalıqlara imza atmasının ciddi rol oynadığı şübhəsizdir.

Beləliklə, elə yuxarıdakı faktların özü də təsdiqləyir ki, Dövlət Məşğulluq Xidmətinin tabeliyindəki Məşğulluq Mərkəzlərinin az qala idela fəaliyyət göstərdiyinə dair ictimai rəy yaratmağa çalışmaq mənasızdır. Reallıq durumun tam fərqli olduğunu və vətəndaşların heç də boş yerə şikayətlənmədiyini, giley-güzar etmədiyini ortaya qoyur.

Ölkədə genişmiqyaslı islahatların həyata keçirilməsi, vətəndaşa xidmətin vəzifəli şəxslər qarşısında ən önəmli borc kimi göstərilməsi fonunda Dövlət Məşğulluq Xidməti yaxşı olardı ki, bu şikayətləri, giley-güzarları ucdantutma yalanlamaq, təkzib etmək yerinə onları obyektiv araşdırsın. Unutmamaq lazımdır ki, problemləri gizlətmək onların olmadığı mənasına gəlmir. Problemləri ört-basdır etmək onları yoluna qoymur, əksinə, onları böyüdür, çoxaldır və sonda daha arzuedilməz mənzərənin yaranmasına, acı nəticələr verməsinə gətirib çıxarır.

***Orxan Həsənli***

# Xaricdəki bir sıra oliqarxlarımızın susqunluğu...

## Onlar Vətən müharibəsi apardığımız bir vaxtda sosial məsuliyyətlərini anlamalıdırlar



***Sentyabrın 27-də işğalçı Ermənistanın cəbhədəki növbəti təxribatı səbr kasamızı daşırdı və şanlı Ordumuz düşmənə layiqli cavab vermək üçün hərbi əməliyyatlara başladı. Qısa vaxtda Silahlı Qüvvələrimiz tarixi uğurlara imza atıb. Həmin uğurların miqyası getdikcə böyüyür. Artıq kiçikdən böyüyə hər kəs işğaldakı son qarış torpağımız terrorçuların, separatçıların caynağından azad edilənədək bu mübarizənin davam edəcəyinə inanır. Hər gün daha da möhkəmlənən bu inam eyni zamanda bizi Vətən müharibəsində əlimizdən gələni əsirgəməməyə sövq edir.***

Söhbət yalnız Azərbaycanda deyil, onun hüdudlarından kənarda yaşayan soydaşlarımızdan da gedir. Dünyanın müxtəlif ölkələrinə səpələnmiş yurddaşlarımızın qəlbi ön cəbhədə, şanlı Ordumuzla birgə döyünür. Onlar bu mübarizəyə öz imkanları daxilində maddi və mənəvi dəstək verməyə çalışırlar. Lakin həmin soydaşlarımızdan, xüsusilə böyük kapitala malik azərbaycanlılardan gözləntilər daha böyükdür. Əlbəttə, dövlətimizin Vətən müharibəsini sonadək davam etdirmək və qələbə ilə taclandırmaq üçün yetərincə gücü var. Bununla belə, xaricdəki Azərbaycan əsilli oliqarxların məhz indi əllərini daşın altına qoymaq, haqq savaşımıza maddi və mənəvi dəstək vermək zamanıdır.

Düzdür, ölkədən kənardakı bir sıra imkanlı soydaşlarımız, damarında azərbaycanlı qanı axan iş adamlarımız hələ iyul ayında, Tovuz döyüşləri vaxtı və ondan sonrakı dövrdə milli təəssübkeşlik hissini konkret əməllərlə ortaya qoyublar. Ancaq istər cəmiyyət arasında, istərsə də sosial şəbəkələrdə gedən müzakirələrdən aydın olur ki, xaricdəki Azərbaycan əsilli bir çox oliqarxın susqunluğu, proseslərə laqeyd münasibəti yaxşı qarşılanmır. Başqa cür mümkün də deyil. İqtisadçı-ekspert Elşad Məmmədovun dediyi kimi, dünyada, o cümlədən Rusiyada yaşayan və fəaliyyət göstərən azərbaycanlı iş adamları Vətənin övladları olmaları ilə bağlı sosial məsuliyyətlərini anlamalıdırlar. Bu gün onların həm maddi, həm də mənəvi dəstəyinə ehtiyac var.Onlar bu xalqın nümayəndələridirlər, Azərbaycana dəstəklərini həmişə ifadə etməli, diaspor təşkilatlarımızın fəaliyyətinin lazımi səviyyədə qurulmasına çalışmalıdırlar.Unutmamalıdırlar ki, müasir müharibələr ancaq hərbi münaqişələrdən ibarət deyil. İnformasiya sahəsində də müharibə aparmaq, Azərbaycanın haqlı mövqeyini dünyaya çatdırmaq lazımdır. Məsələn, bu baxımdan son günlər Rusiya KİV-lərində ciddi boşluqlar var. Azərbaycanın intellektual elitası müzakirələrə az dəvət edilir. İnformasiya müharibəsində mövqelərimizi gücləndirməli, sözümüzü informasiya məkanında da demək üçün intellektual potensiala malik olmalıyıq.

Bunun üçünsə məhz xaricdəki nüfuzlu azərbaycanlıların, o cümlədən də, əsasən böyük kapitala, iri biznesə, bunun nəticəsində isə ciddi siyasi əlaqələrə malik oliqarxlarımız hərəkətə keçməlidirlər. Əllərindəki imkanları Vətən müharibəsindəki qələbəmizin sürətlənməsi və tezləşməsi üçün səfərbər etməlidirlər.

Axı nə üçün xaricdəki iş adamlarımız xüsusilə ermənilərin daha çox mütəşəkkil olduğu ölkələrdə, məsələn, Fransada haqlı mövqeyimizin təbliği üçün meydana atmamalıdırlar? Belə ölkələrin ictimaiyyətlərini Qarabağ münaqişəsinin tarixi və başlayan savaşın hazırkı gedişi ilə bağlı obyektiv məlumatlandırmaq üçün hərəkətə keçmək vaxtı gəlməyibmi?

Kimsə unutmamalıdır: böyük kapital adını öz xalqının, millətinin yaddaşına əbədi yazmaq üçün kifayət deyil. Bundan ötrü eyni zamanda həmin xalqın, millətin haqq davasına, ədalət işinə dəstək vermək də lazımdır. Hərbçilərimiz Vətən müharibəsində qanları ilə, canları ilə tarix yazarkən, ölkəmizin bütövlüyü naminə şücaətlər, qəhrəmanlıqlar göstərərkən kimsə özünü baş verənlərə seyrçi kimi apara bilməz. İndi harada - vətəndə, yoxsa onun hüdudlarından kənarda yaşamasından asılı olmayaraq hər bir azərbaycanlının amalı eynidir: üçrəngli bayrağımızı Qarabağ üzərində dalğalandırmaq! İşğal altındakı hər qarış torpağımızı azad etmək və illər uzunudur millət olaraq qürurumuzu incidən ədalətsizliyi aradan qaldırmaq!

Bu amaldan qıraqda qalanlar nə qədər böyük sərvət sahibi olurlarsa olsunlar, xalqın qəlbindən, sevgisindən də uzaq qalacaqlar. Bizdən demək. Gerisini xaricdəki oliqarxlarımız düşünsünlər...

***Sənan Mirzə***

# Etibar Məmmədov partiyalara müraciət etdi



***AMİP lideri, Beynəlxalq Demokrat İttifaqının sədr müavini Etibar Məmmədov BDİ sədri Stefan Harperə, BDİ Baş katibi Kristian Kattnerə və eləcə də bu qurumun üzvü olan dünyanın aparıcı siyasi partiyalarına müraciət ünvanlayıb.***

AMİP-in mətbuat xidmətindən "Unikal"a bildirilib ki, müraciətdə Dağlıq Qarabağ münaqişəsi, 30 ildən artıq davam edən işğal faktı, BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin qeyd-şərtsiz olaraq işğal etdiyi Azərbaycan torpaqlarından çıxarılması ilə bağlı qətnamələri, eləcə də sentyabrın 27-dən etibarən davam edən hərbi əməliyyatlarla bağlı məlumatlar yer alıb.

Daha sonra Ermənistan tərəfindən Gəncə və digər ərazilərimizdə mülki əhalinin hədəf alınması, hümanitar atəşkəsə əməl etməməsi ilə bağlı da məlumat verilib.

ATƏT Minsk Qrupunun fəaliyyətsizliyinə toxunan Etibar Məmmədov ötən illər ərzində bu qrupun heç bir irəliləyişə nail olmadığını, əslində daha çox problemin konservləşdirilməsinə xidmət etdiyini qeyd edərək BMT Təhlükəsizlik Şurası qətnamələrinin icrasıyla bağlı Ermənistana təzyiq göstərmədiklərini xüsusi vurğulayıb.

Sonda Etibar Məmmədov münaqişənin sülh yolu ilə həllinin mümkünlüyünün BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasından asılı olduğunu qeyd edərək, bununla bağlı Ermənistana təzyiq göstərilməsinin vacibliyini bildirib. Etibar Məmmədov hər kəsi bu prosesdə iştirak etməklə sülhün bərqərar olmasına tohfə verməyə çağırıb.



# Kamran Əliyevə yüksək vəzifə verildi

***Baş Dövlət Yol Polisi İdarəsinin Mətbuat xidmətinin rəhbəri, polkovnik Kamran Əliyev yeni vəzifəyə təyin olunub.***

Bununla bağlı Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov müvafiq əmr imzalayıb.

Əmrə əsasən, K. Əliyev Baş Dövlət Yol Polisi İdarəsi rəisinin müavini və Qeydiyyat, İmtahan İdarəsinin rəisi vəzifəsinə təyin edilib.

# Ermənilərin öldürdüyü mülki şəxslərin sayı 47-yə çatdı

***Azərbaycan Respublikasının Baş Prokurorluğu Ermənistanın təxribatları nəticəsində sentyabrın 27-dən oktyabrın 16-sı saat 11:00-dək dinc əhaliyə qarşı törədilmiş cinayətlərin statistikasını təqdim edib.***

Baş Prokurorluğun mətbuat xidmətindən "Unikal"a bildirilib ki, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində mülki şəxslərdən 47 nəfər həlak olub, 222 nəfər isə xəsarət alıb. Həmçinin Ermənistanın ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 1669 ev, 84 çoxmənzilli yaşayış binası və 301 mülki obyekt yararsız vəziyyətə düşüb.

Qeyd edək ki, rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı cavab zərbələri qarşısında sürətlə geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqlıqda yerləşən Azərbaycan şəhərlərini və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tutur.

# Ermənilər Holokost abidəsini təhqir etdi

***İrəvanın mərkəzində "Kentron" adlandırılan ərazidəki yəhudilərin Holokost soyqırımı abidəsinə hücum olub.***

Erməni ekstremistləri abidəni qırmızı rəngə boyayıblar. Millətçilər təhqir etdikləri abidənin şəkillərini çəkərək sosial şəbəkələrdə paylaşıblar. Erməni radikallar paylaşımlarda yəhudiləri təhdid edərək "sizin də qanınız töküləcək" deyə yazıblar.

Digər erməni istifadəçiləri bu təhqiramiz addımı rəğbətlə qarşılayıblar. Hətta məlum paylaşımlardakı şərhlərdə İsrail dövlətinin daim Azərbaycana dəstək verməsinin onlara baha başa gələcəyi kimi hədələr yer alıb.

Artıq İrəvan meriyasının sözcüsü Ovsep Kubatyan abidənin təmizləndiyini bildirib.

Qeyd edək ki, ermənilərin abidələri təhqir etməsi ilk hadisə deyil. İşğal edilmiş Azərbaycan ərazilərindəki tarixi və mədəni abidələrin əksəriyyəti erməni vandalları tərəfindən dağıdılıb.

# Heydər Babayev də xaricdəki biznesinin mərkəzini Britaniyaya köçürdü

## Sabiq nazirdən yeni xəbərlər: şirkətlərinin idarəçiliyini oğluna tapşırıb

***Sabiq iqtisadi inkişaf naziri Heydər Babayev özünün xaricdəki biznesinin mərkəzini Britaniyaya köçürüb. Bu barədə "Unikal"a məlumatlı mənbə bildirib.***

Qeyd edək ki, 2008-ci ildə nazir postunu itirən Babayev, bundan sonra vaxtının böyük hissəsini ölkədən kənarda keçirirdi. Səbəb kimi isə onun xaricdəki biznesini birbaşa özünün idarə etmək istəməsi göstərilirdi.

Mənbəmiz deyib ki, keçmiş nazir bir ara ümumiyyətlə Azərbaycana gəlmirmiş. Lakin son bir neçə ildə o, daha çox ölkəmizdə qalmağa başlayıb. Bunun səbəbi də hazırda 63 yaşı olan Babayevin xaricdəki biznesinin idarəçiliyini oğlu Emin Babayevə tapşırmasıdır. E.Babayev atasının bir neçə Avropa ölkəsində və Dubaydakı biznesinin mərkəzini Britaniyaya yönləndirib. Belə ki, təxminən bir il öncə oğul Babayev İngiltərənin Uels əyalətində böyük bir meşəlik ərazini alaraq ekoturizm sektoruna girişib.

Belə ki, o, əyalətin kiçik Llanvrtyd qəsəbəsində, Viktoria Road yolunun üzərindəki "Victoria Wells Log Cabin Motel"i alıb. Bu kompleks ucsuz-bucaqsız ormanlıq sahənin şərq qurtaracağında meşə turizmi həvəskarlarının diqqətini çəkən məkanlardandır.Təsisata otel və çoxsaylı kotteclər daxildir.



Bu ilin əvvəllərində Azərbaycan mediasında da yer alan məlumatlara görə, kompleks Emin Babayevin 2018-ci il noyabrın 6 da Britaniyada qeydiyyatdan keçirdiyi "Meat and Greet Limited" adlı şirkət üzərindən idarə olunur. Şirkət kompleksin yerləşdiyi ünvanda qeydiyyata alınıb.Bundan əvvəl turizm kompleksi "Victoria Wells Spa" adı ilə fəaliyyət göstəribmiş. 2015-2017-ci illərdə onu keçmiş nazir oğlunun digər şirkəti - "Caspian Dragon CYF" idarə edib. Adının tərcüməsi "Xəzər əjdahası" mənasına gələn və 2015-ci ilin avqustunda qeydiyyatdan keçmiş şirkətin sənədlərində təsisçinin Azərbaycan vətəndaşı, bankir, 1982-ci il təvəllüdlü Emin Babayev olduğu qeyd edilir.

Yenə mətbuatın iddialarına inansaq Emin Babayev poker həvəskarıdır və Londonda kazinolarda poker oyunlarının aktiv iştirakçısıdır. Ən yüksək udduğu məbləğ 2018-ci ildə Londonda keçirilən poker oyununda 37,705 dollar olub.

Qeyd edək ki, Britaniya Azərbaycanın bir çox indiki və keçmiş nazirlərinin, onların övladlarının biznes baxımdan tərcih etdiyi əsas ölkədir. Bunu bilməyən yoxdur. Belə görünür, artıq onların sırasına Heydər Babayev ilə oğlu da daxil olub.

Halbuki sabiq iqtisadi inkişaf naziri 2010-cu illərin ortasınadək daha çox fərqli Avropa ölkələrindəki yatırımları ilə tanınırdı. Mənbəmiz deyib ki, bu ölkələrdən biri Lüksemburqdur. Cırtdan dövlətdə 2011-ci ildən etibarən Babayevin "Mercury Europe Holdinqs" şirkətlər qrupu fəaliyyət göstərir. Ona rəhbərlik edən isə keçmiş nazirin həyat yoldaşıdır.Bundan başqa, sabiq iqtisadi inkişaf naziri və yaxınları Dubayda da bir neçə şirkətə sahibdirlər.Ümumiyyətlə isə onun ölkədən kənardakı gəlir qaynaqlarının miqyası kifayət qədər genişdir: yuxarıda adları çəkilən ölkələrdən başqa, H.Babayevin Gürcüstan, Qazaxstan, Türkiyə, ABŞ, Rusiya və Ukraynada da şirkətlərinin olduğunu deyən mənbəmiz bu sırada artıq Britaniyanın adının xüsusilə ön plana çıxdığını təkrarlayır.

***Elvin Rüstəmov***

# Komitə sədrindən Minsk Qrupuna üzv olan ölkələrə müraciət

***Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev ATƏT-in Minsk Qrupunun üzvü olan ölkələrin Azərbaycandakı səfirliklərinə məktubla müraciət edib. Müraciətin məqsədi mövcud münaqişənin sülh və danışıqlar yolu ilə tənzimlənməsi üçün mandat almış dövlətlərin diqqətini Ermənistanın yeni təcavüzünə yönəltməkdir.***

"Unikal" xəbər verir ki, müracətdə deyilir: "Ermənistanın silahlı qüvvələri 27 sentyabr 2020-ci ildə atəşkəs rejimini kobud şəkildə pozaraq Azərbaycana qarşı genişmiqyaslı hücuma başlamışlar. Ermənistanın Azərbaycana qarşı yeni təcavüz aktı -2020-ci il iyulun 12-16-da Tovuz rayonu istiqamətində silahlı hücumun və avqustun 23-də Goranboy rayonu rayonu istiqamətində digər erməni təxribatının davamıdır. Ermənistanın silahlı qüvvələri beynəlxalq hüququn əsas norma və prinsiplərini, o cümlədən beynəlxalq humanitar hüququ pozaraq Azərbaycanın cəbhə xəttinə yaxın ərazilərində əhalinin sıx olduğu mülki obyektlərə və yaşayış məntəqələrinə qəsdən atəş zərbəsi endirir. Məcburi köçkünlərin və qaçqınların yerləşdirildiyi Tərtər rayonunun Şıxarx qəsəbəsi, Ağdam rayonunun Baharlı, Dördyol-1 və Təzəkənd qəsəbələri, Füzuli rayonunun Alxanlı və Şükürbəyli, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndləri iriçaplı silahlardan, minaatanlardan və artilleriyadan açılan intensiv atəş nəticəsində ciddi dağıntıya məruz qalıb.

Məcburi köçkün əhali, o cümlədən uşaqlar və qadınlar arasında ölənlər və yaralananlar vardır. Onlar Ermənistanın təcavüzünün qurbanıdırlar və uzun illər çadır düşərgələrində, dəmiryol vaqonlarında yaşadıqları mərhumiyyətlərdən, müharibənin, xüsusən də, 1992-ci ildə Xocalıda mülki əhaliyə, o cümlədən qadınlara, uşaqlara və yaşlılara qarşı törədilən soyqırımının ağır psixiloji yaralarından sonra yenidən köçkünlüyün sınaqları ilə üzləşməyə məcburdurlar. Bu adamlar 1992-1994-cü illərdəki müharibə zamanı öz evlərindən qovulublar və Azərbaycan dövlətinin saldığı, yuxarıda adıçəkilən qəsəbələrdə müvəqqəti yerləşdiriliblər.



Qeyd etmək lazımdır ki, dövlətin diqqət və qayğı göstərməsinə baxmayaraq, məcburi köçkünlərin problemlərinin həllinin yeganə yolu, BMT-nin məcburi köçkünlərin insan hüquqları üzrə Xüsusi Məruzəçilərinin həsabatlarında təsbit edildiyi kimi, beynəlxalq birliyin Azərbaycandakı rəsmi missiyaları çərçivəsində onların layiqli həyat yaşamaq hüququnun - könüllü şəkildə və ləyaqətlə, təhlükəsiz şəraitdə öz doğma torpaqlarına qaytarılmasıdır. Artilleriya və raket zərbələri nəticəsində, xüsusilə zəruri enerji mənbələri və sosial infrastruktur da daxil olmaqla, 160-a yaxın yaşayış binası və digər mülki infrastruktur dağıdılıb.

Bu hərbi hücum Ermənistanın güc tətbiqi strategiyasının və işğal edilmiş ərazilərdə qanunsuz demoqrafik, mədəni və fiziki dəyişikliklər həyata keçirmək, o cümlədən bu əraziləri erməni əhali ilə məskunlaşdırmaq xəttinin, həmçinin bu təcvüzkar ölkənin rəhbərliyinin digər təxribatçı bəyanatlarının ("Qarabağ Ermənistandır.") və fəaliyyətinin davamıdır.

Ermənistan rəhbərliyinin təhlükəsizlik strategiyasında "yeni ərazilər uğrunda yeni müharibə" ideyası və beynəlxalq hüquqla bir araya sığmayan, Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələrinə və ATƏT-in qərarlarına zidd olan "məhdudiyyətsiz özünütəyinetmə" adlandırılan kəşfi öz əksini tapıb. Ermənistan işğal edilmiş ərazilərdə yaratdığı qanunsuz oyuncaq rejimi tərəf kimi cəlb etməyə cəhd göstərərək danışıqların mövcud formatını davamlı şəkildə pozur. Bu, bütövlükdə sülh danışıqları prosesinə ciddi zərbədir.

Ermənistanın Azərbaycana növbəti təcavüzü 1949-cu il Cenevrə konvensiyaları və onlara əlavə edilmiş protokollar, həmçinin BMT Təhlükəsizlik Şurasının Ermənistanın silahlı birləşmələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını tələb edən 1993-cü il 822, 853, 874, 884 nömrəli qətnamələri, BMT Baş Assambleyasının "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" 2008-ci il qətnaməsi də daxil olmaqla beynəlxalq hüququn, beynəlxalq humanitar hüququn əsas norma və prinsiplərinin kobud şəkildə pozulmasıdır.

Ermənistanın silahlı qüvvələrinin işğal edilmiş Dağlıq Qarabağda və ona bitişik rayonlarda qanunsuz mövcudluğunun regionda sülhə və təhlükəsizliyə qorxu yaratması, münaqişənin yenidən alovlanmasının əsas səbəbi kimi qalması faktını dərindən dərk edərək, Azərbaycan öz vətəndaşlarını və suveren ərazisini Ermənistanın hərbi təcavüzündən qorumaq məcburiyyətindədir. Azərbaycanın özünümüdafiə hüququ çərçivəsində və beynəlxalq humanitar hüquqa tam uyğun olaraq qanuni əks-həmlə əməliyyatı onun ərazi bütövlüyünün bərpasına xidmət edir.

Yaranmış vəziyyətə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Ermənistan Moskvada imzalanmış humanitar atəşkəsin arxasında gizlənərək, Azərbaycanın mülki əhalisinə yenidən hücum edir. Ermənistan humanitar məqsədlərlə elan olunmuş atəşkəsi pozmaq məqsədilə təcavüz və təxribatları davam etdirir. Azərbaycanın ikinci böyük şəhəri olan və döyüş əməliyyatları zonasından uzaqda yerləşən Gəncə şəhərinin dinc əhalisinə qarşı oktyabrın 11-də baş verən qanlı hücum erməni terroru və faşizminin, soyqırımı aktının və yenicə əldə olunmuş atəşkəs razılaşmasının pozulmasının biabırçı təzahürüdür.

Beynəlxalq birlik, xüsusən, ATƏT-in Minsk Qrupunun üzv-ölkələri Ermənistanın Azərbaycana qarşı təcavüzünü qəti şəkildə pisləməli və dayandırmalı, bu işğalçı dövləti beynəlxlaq hüquq, o cümlədən BMT Təhlükəsizlik Şurasının 1993-cü il qətnamələri və beynəlxalq humanitar hüquq üzrə öhdəliklərini yerinə yetirməyə məcbur etməlidirlər".

***Zaurə Əmirova***

# QMİ Azərbaycandakı dini konfessiyalarla birgə bəyanat yaydı

***Qafqaz Müsəlmanları İdarəsi (QMİ) Azərbaycandakı dini konfessiyalarla birgə bəyanat yayıb.***

"Unikal"ın məlumatına görə, bəyanatda deyilir: "2020-ci ilin iyul ayından etibarən Azərbaycanın işğal olunmuş ərazilərində o cümlədən Azərbaycan-Ermənistan dövlət sərhədi məntəqələrində Ermənistanın həyata keçirdiyi son hərbi təxribatlar, habelə işğalçı rejimin mülki əhalimizə və döyüş bölgələrindən uzaq məsafədə yerləşən şəhər və qəsəbələrimizə qarşı tətbiq etdiyi insanlığa qarşı hərbi cinayətləri və onun nəticələri barədə Qafqaz Müsəlmanları İdarəsi və Azərbaycandakı dini konfessiyalar tərəfindən dünya ictimaiyyətinə və dünya liderlərinə, xarici ölkələrin dövlət orqanlarına və beynəlxalq təşkilatlara çoxsaylı məktub və müraciətlər ünvanlanıb.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həllinə dair dövlətimizin siyasətinə uyğun olaraq - Qafqaz Müsəlmanları İdarəsi öz xətti və fəaliyyət istiqamətləri üzrə əməli iş aparmaqdadır. Qafqaz Müsəlmanları İdarəsi malik olduğu geniş, beynəlxalq əlaqələrindən hər zaman Azərbaycanın haqq işinin həqiqətləri barədə geniş, əhatəli məlumatların dünya ictimaiyyətinə çatdırmaq üçün istifadə edir.

QMİ sədri iştirak etdiyi bütün beynəlxalq forumların xitabət kürsüsünə Qarabağ probleminin ədalətli sülh yolu ilə həllinə dair mövqeyini ifadə edir.

QMİ sədri Azərbaycan xalqının dini lideri olaraq, hər zaman münaqişənin ədalətli həllinin vacibliyinə və buna nail olmaq üçün sülhməramlı danışıqların zəruriliyə inam mövqeyindən çıxış edərək 1988-ci ildən, yəni Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin başlandığı tarixdən müxtəlif illərdə dini mərkəzlərin, nüfuzlu dini liderlərin vasitəçiliyi ilə- ələlxüsus, Rus Pravoslav kilsəsinin rəhbəri Patriarx Kirillin, Ümumgürcüstan Patriarxı II İliyanın ali vasitəçilikləri, Ümumdünya Kilsələr Şurasının himayəsi və Vatikan nümayəndələrinin müşahidəçi iştirakı ilə ermənilərin dini liderləri ilə bir araya gəlmişdir. Müxtəlif illərdə İsveçrənin Montrö, Rusiyanın Rostov şəhərlərində, Tbilisidə, dəfələrlə Moskvada, dünya dini liderlərinin I sammiti zamanı Bakıda, MDB Dinlərarası Şurasının iclası zamanı İrəvanda, erməni katolikosları ilə görüşləri qan tökülməsinin qarşısının alınmasına, ədalətli sülh üçün mənəvi zəmin hazırlanmasına xidmət etmək məramı daşımışdır. Görüşlərin nəticələrinə dair QMİ sədrinin erməni katolikosları - I Vazgen, I Qaregin, II Qareginin də imzaladığı birgə bəyanatlarda münaqişənin sülh yolu ilə həllinin vacibliyinə dair əminlik, xalqlarımızın dinc, yanaşı yaşaması üçün zəminin hazırlanması, dini liderlərin bu işdə qarşıdurma səciyyəsi daşımadığı birmənalı şəkildə vurğulanmışdır. Bu vacib nəticə idi və sülhməramlı vasitəçilik missiyasında xüsusi əməyi olan Patriarx Kirill həzrətləri Azərbaycan və Ermənistan dini liderləri üçün müraciətində əldə olunmuş nəticələri qoruyub saxlamaq zərurətindən danışarkən, məhz bu məqamı xüsusi dəyərləndirib.

Bu ilin iyulunda Tovuz istiqamətində Ermənistanın son təxribatları sentyabrın 27-də hücum halları baş verəndən bəri Azərbaycanın məruz qaldığı yeni təcavüzün əsl mahiyyəti barədə QMİ əməkdaşlıq etdiyi bütün dünya dini mərkəzlərini, qurum və təsisatları məlumatlandırmağı mənəvi vəzifə olaraq həyata keçirməkdədir.

QMİ nəzdində 2017-ci ildən fəaliyyət göstərən Bakı Beynəlxalq Dinlər və Mədəniyyətlərarası Əməkdaşlıq mərkəzi xətti ilə dünyanın nüfuzlu dövlət, hökumət və mənəvi təsisatlarına yönləndirdiyimiz müraciətlər dünyanın 100-ə yaxın dövlət əhatə edir.

Qafqaz Müsəlmanları İdarəsi Vətən Müharibəsinin ilk günlərindən Azərbaycan xalqına mənəvi dəstəyinin ifadə olunduğu xalqa




müraciətini bəyan etdi. Ardınca QMİ sədri Şeyxülislam Allahşükür Paşazadə ölkəmizdəki dini konfessiyaların rəhbərləri ilə birgə Azərbaycan Prezidentinə ünvanlı və həmrəylik müraciətini imzaladı. QMİ sədri Şeyxülislam Allahşükür Paşazadənin imzası ilə Vatikan dövlətinin rəhbəri, Roma Katolik kilsəsinin başçısı zati-müqəddəsləri Papa Fransisk həzrətlərinə, Rus Pravoslav kilsəsinin başçısı, Moskva və bütün Rusiya Patriarxı zati-müqəddəsləri Kirill həzrətlərinə, Ümumgürcüstan Patriarxı zati-müqəddəsləri II İliya həzrətlərinə, Türkiyə Cümhuriyyətinin Diyanət İşləri Başqanı cənab Ali Erbaşa, İran İslam Respublikasının Ali rəhbərinin beynəlxalq məsələlər üzrə müşaviri cənab Əli Əkbər Vilayətiyə, habelə beynəlxalq təşkilatların ünvanına - BMT Baş katibi Antonio Quterreşə, ATƏT-in hazırda fəaliyyətdə olan sədri Edi Ramaya, İƏT-in baş katibi Yusif bin Əhməd Əl - Useyminə, İRSİKA-nın Baş direktoru Halit Erenə, Beynəlxaql İslam Üləmaları İttifaqının baş katibi Əli Muhyiddin Əl-Qaradağiyə (Qətər), "Dinlər sülh uğrunda" təşkilatının Baş katibi dr. Azza Karana, Beynəlxalq İslam Xeyriyyə Fondunun İdarə Heyətinin sədri Abdulla Mətuk Əl - Mətuqa (Küveyt), İslam Aləmi Liqasının Baş katibi Məhəmməd Əbdülkərim Əl- İssaya (Səudiyyə Ərəbistanı), Avropa-Türk İslam Birliyinin Prezidenti Sərdar Çələbiyə göndərilən müraciətlər vasitəsilə dünyanın nüfuzlu şəxsləri Azərbaycan torpaqlarına qarşı son təcavüz aktlarının nəticələri barədə məlumatlandırılıblar.

Bununla yanaşı, QMİ və Bakı Beynəlxalq Dinlər və Mədəniyyətlərarası Əməkdaşlıq Mərkəzinin fəaliyyət zəminində əməkdaşlıq etdiyi Əl-Əzhərin Şeyxi Əhməd Ər-Tayyib (Misir), Əfqanıstanın Həcc, İrşad və Vəqflər naziri Məhəmməd Qasem Həlimi, Seneqal prezidentinin xüsusi müşaviri Şeyx Məhəmməd Mənsur Nias, Pakistan Dini işlər və dinlərarası harmoniya naziri Nurul-Haqq Qədri, Tunis Respublikasının sabiq prezidenti Məhəmməd Əl-Mərzuqi, Mərakeş Vəqflər naziri Əhməd Taufiq, Əlcəzair Ali Dini Şurasının sədri Buabdulla Qulamulla, Amerika Əsas Yəhudi Təşkilatları konqresinin vitse-prezidenti Malkolm Honlayn, ABŞ Simon Vesental mərkəzinin başçısı Abraham Kuper, ABŞ Yeshiva universiteti Sefardi araşdırmaları institutunun direktoru Eli Abadi, Beynəlxalq Etnik Anlaşma Fondunun prezidenti Mark Şnayer, Yerusəlim baş sefardi ravvini Şlomo Amar, ABŞ Xristian liderləri Birliyinin prezidenti Sonni Mur, Avropa ravvinlər konqresi idarə heyətinin üzvü Cenevrə ravvini İshak Dayan, Berlinin Baş ravvini Yitshak Erenberq, Mərkəzi Asiya ölkələrinin dini liderləri, Şimali Qafqaz Respublikasının müftiləri, Rusiya Federasiyasının bütün subyektlərinin mərkəzi dini idarə rəhbərləri və digərlərinə Azərbaycan torpaqlarına qarşı son təcavüz aktlarının nəticələri barədə ətraflı, müfəssəl məlumatların yer aldığı məktublar göndərilib. Dünya liderlərindən, nüfuzlu şəxsiyyətlərdən müraciətlərimizə cavab olaraq Azərbaycanın haqlı mübarizəsinə dəstəyin bilavasitə ifadə olunduğu məktublar daxil olmaqdadır.

Reallıq bundan ibarətdir ki, Ermənistan hakimiyyətinin öz işğalçı siyasətinə dini don geyindirmək cəhdləri həmişə olub və təəssüflər olsun ki, bu gün də gündəmə gətirilməkdə davam edir. Dini hisslərdən siyasi məqsədlər üçün sui-istifadə kimi olduqca təhlükəli meyli erməni tərəfi dini təəssübkeşlikdən dolayı dünya dövlətlərindən hərtərəfli dəstək almaq məramı ilə zaman-zaman məkrlə, riyakarcasına qabartmaqdadır. Məlum olduğu kimi, dünya birliyinə meydan oxuyan, beynəlxalq qanun və normala məhəl qoymayan, Rusiyanın təşəbbüsü ilə əldə olunmuş atəşkəsi pozan Ermənistan Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəni ağır raket silahı ilə atəşə tutaraq, dinc insanları, yaşayış evlərini, mülki obyektləri nişan alır. Ümumən, bu günədək 5-i uşaq olmaqla 47 dinc sakinimiz qətlə yetirilib. Son təcavüz aktı zamanı Gəncədəki Rus Provaslov Yeparxiyasına məxsus kilsəyə və müsəlmanlar üçün böyük mənəvi əhəmiyyət kəsb edən Gəncə İmamzadəsinə xəsarət yetirilib. Bu reallıqların müqabilində erməni kilsəsi bütün dünyaya təxribat xarakterli yalan məlumat yayır ki, guya Azərbaycan tərəfi Şuşadakı xristian kilsəsini hədəfə götürüb. Bu təxribat xarakterli məlumat Azərbaycanın rəsmi qurumları tərəfindən sübutlarla təkzib edilib. Dini konfessiya rəhbəri olaraq bildirməyi vacib sayırıq ki, Vətənimiz Azərbaycan ölkəmizin ərazisindəki bütün dinlərə məxsus abidələri, məscid, kilsə, sinaqoqları təmir, bərpa, inşa edirən dövlətdir. Şuşa Azərbaycanın nadir incisidir və buradakı bütün mədəni-dini abidələri də qoruyub himayə edən bir dövlətə belə ittihamlar uyğun gəlmir. Bütün dünya Azərbaycan xalqının tolerantlığının, multikultural dəyərlərə ehtiramının, dövlət başçısı Zati-aliləri İlham Əliyevin və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dünyanın bəşəri əhəmiyyətli mədəni-mənəvi irs nümunələrinə diqqət və qayğısının əyani şahididir. Serbiyada müharibə zamanı dağılmış kilsə və məscidi təmir etdirən, Vatikanda katakombaları, Fransada kilsə vitrajlarını bərpa etdirən dövlət barəsində beynəlxalq rəydə xristian sini abidələrinə xələl gətirən ölkə imici formalaşdırmaq cəhdi barəsində beynəlxalq xristian dini abidələrə xələl gətirən ölkə imici formalaşdırmaq cəhdi məsələyə dini don geyindirməklə xristian-müsəlman qarşıdurması yaratmaq məqsədi güdür. Azərbaycan dövlət erməni kilsəsini paytaxt Bakının mərkəzində təmir etdirib qoruyur. Bakıda olarkən erməni Katolikosu şəxsən bu kilsəni ziyarət edib, ibadət mərasimi və Azərbaycanda yaşayan ermənilərlə görüş keçirib, kilsənin daxilində erməni dilindəki kitabların qorunduğu kitabxana ilə tanış olub. Ermənistandan fərqli olaraq, Azərbaycan Rus Pravoslav Kilsəsinin Yeparxiyası, rusdilli tədris, Slavyan Universiteti, pravoslav, katolik, alban-udi xristian dindarlar üçün bazar günü məktəbləri, habelə, yəhudi tədris və mədəniyyət mərkəzləri mövcuddur. Ölkəmiz milli və dini azlıq nümayəndələrinin bütün vətəndaşlıq hüquqlarından yararlandığı, öz milli, dini adət-ənənələrini azad yaşatdıqları bir ölkədir və mədəniyyətlər, dinlər arasında dialoq və əməkdaşlıq məkanı kimi dünya miqyasında tanınır. Ermənistan isə mono-etnik dövlət olması, etnik təmizləmə həyata keçirməsi onun ksenofobiyaya meylli olduğunun təzahürüdür, qonşu dövlətlərinə göz dikməsi, Xocalı soyqırımını törətməsi terrorçu xislətinin göstəricidir. Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində on minlərlə dini, mədəni abidələri məhv etməsi, mənşəyini saxtalaşdırması vandalizm mahiyyəti daşıyır, müsəlman mədəniyyəti nümunələrini məqsədyönlü məhv etməsi isə İslamafobiyanın dövlət siyasəti olaraq həyata keçirməsinin sübutudur.

Azərbaycan xalqı sülhsevər xalqdır, heç vaxt özgə torpağında gözü olmayıb və bu gün Azərbaycan öz ərazilərində, öz torpaqlarını işğalçılardan təmizləyərkən, dövlət rəhbərinin siyasi iradəsinə, xalqının əzminə, öz ordusunun güc və qüdrətinə güvənir. Bizim haqq yolunda olmağımız bizə qüvvət verən mühüm amildir. Beynəlxalq birlik özünün tanıdığı ərazi bütövlüyümüzü bərpa etmək yönündə bizim beynəlxalq hüquq çərçivəsində hərəkət etdiyimizin fərqindədir. Bunu bizə daxil olan çoxsaylı dəstək məktublarında, həmrəylik zənglərində görürük. Bütün bizim haqq işimizə dəstək olan, ədaləti müdafiə edən ölkələrə, xalqlara, tanınmış insanlara ürəkdən minnətdarıq.

Biz, Azərbaycandakı bütün dini konfessiya rəhbərləri bir daha bəyan edirik ki, Vətənin haqq işi uğrunda birlikdəyik, həmrəyik və xalqımıza, dövlətimizə, dövlət başçısına dəstək veririk. Bizim bir tələbimiz var - BMT-nin Azərbaycanın işğal olunmuş ərazilərinin erməni hərbi birləşmələri tərəfindən qeyd-şərtsiz azad olunmasına dair 4 qətnaməsinin yerinə yetirilməsi. Bütün səmavi dinlərin müqəddəs kitablarında ən ali dəyər hesab olunan insan həyatının xilası, qan tökülməsinin qarşısının alınması məramının vacibliyini rəhbər tutaraq dünya ictimaiyyətinə, dini liderlərə, dövlət rəhbərlərinə və beynəlxalq təşkilatlara müraciət edir, Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həlli üçün səylərini əsirgəməməyə çağırırıq".

Bəyanat bu gün Qafqaz Müsəlmanları İdarəsinin Azərbaycandakı dini konfessiyaların rəhbərləri ilə birgə mətbuat konfransında qəbul olunub.

Bəyanatı Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, Rus-Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının Arxiyepiskopu Aleksandr, Azərbaycandakı Dağ yəhudiləri icmasının rəhbəri Milix Yevdayev, Bakıdakı Avropa Yəhudiləri icmasının rəhbəri Aleksandr Şarovski və Alban-udi Xristian icmasının rəhbəri Robert Mobili imzalayıblar.

# Türkiyə parlamentinin sədri Azərbaycana səfər edəcək



***Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Mustafa Şəntop Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarovanın dəvəti əsasında Azərbaycana səfər edəcək.***

Bu barədə APA-nın yerli bürosuna TBMM-dən məlumat verilib.

Bildirilib ki, M. Şəntop və onun rəhbərlik etdiyi nümayəndə heyəti 18-20 oktyabr tarixlərində Azərbaycanda səfərdə olacaq.

Səfər çərçivəsində Türkiyə parlamentinin sədri Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul ediləcək.

M. Şəntop 20 oktyabrda Azərbaycan Milli Məclisində çıxış edəcək.

"Bakıda keçiriləcək görüşlərdə Türkiyənin Azərbaycana dəstəyi bir daha ifadə olunacaq. Azərbaycan nə zaman və hansı məsələdə bizdən dəstək istəyərsə, lazımi köməklik etməyə hazır olduğumuzu bir daha bəyan edəcəyik. "Bir millət, iki dövlət" olaraq dərdimiz və sevincimiz birdir. Bölgədə sülhün, sabitliyin, ədalətin və beynəlxalq hüququn prinsiplərinin hökm sürməsi Türkiyənin yeganə məqsədidir", - deyə Türkiyə parlamentindən bildirilib.

# Pandemiya görə xarici ölkələrə səfərlər azalıb

***Bu ilin yanvar-sentyabr aylarında xarici ölkələrə səfər edən Azərbaycan vətəndaşlarının sayı ötən ilin eyni dövrü ilə müqayisədə koronavirus pandemiyası səbəbindən 3,9 dəfə azalaraq 1 073,4 min nəfər olub.***

Dövlət Statistika Komitəsindən "Unikal"a verilən məlumata görə, ölkə vətəndaşlarının 30,9%-i İrana, 27,7%-i Gürcüstana, 19,5%-i Rusiyaya, 13,2%-i Türkiyəyə, 8,7%-i digər ölkələrə səfər edib. Gedənlərin 69,9%-ni kişilər, 30,1%-ni qadınlar təşkil edib. Bu dövrdə İrana gedən Azərbaycan vətəndaşlarının sayı 4,6 dəfə, Türkiyəyə gedənlərin sayı 3,5 dəfə, Gürcüstana gedənlərin sayı 4,1 dəfə, Rusiya Federasiyasına gedənlərin sayı isə 3,5 dəfə azalıb.

"2020-ci ilin yanvar-sentyabr aylarında xarici ölkələrə səfər edən Azərbaycan Respublikası vətəndaşlarının 76,7%-i dəmir yolu və avtomobil, 20,8%-i hava, 2,5%-i isə dəniz nəqliyyatından istifadə edib", - komitədən bildirilib.

# Dövlət Komitəsi tərəfindən cəbhəyanı bölgələrə səfər edilib

***Ermənistanın hərbi təcavüzü və insanların sıx məskunlaşdığı əraziləri ağır artilleriya qurğularından atəşə tutması nəticəsində zərər çəkmiş mülki əhali, xüsusilə də qadın və uşaqların vəziyyətinin qiymətləndirilməsi məqsədilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən oktyabrın 10-da və 15-də cəbhəyanı bölgələrə səfər edilib.***

Komitədən "Unikal"a verilən məlumata görə, komitə nümayəndələri səfər zamanı Ermənistan silahlı qüvvələrinin törətdiyi terror aktları nəticəsində zərər çəkən ailələrlə görüşərək onların vəziyyətini və ilkin ehtiyaclarını müəyyən edib. Komitənin Ağdam, Goranboy və Göygöldə yerləşən Uşaq və Ailələrə Dəstək mərkəzlərinin əməkdaşları da ailələrlə aparılan psixo-sosial işə cəlb olunub.

Mülki əhali ilə keçirilən görüşlərin, ilkin sorğu və müşahidələrin nəticəsi olaraq fövqəladə vəziyyətlərdə uşaq və qadınların, o cümlədən əhalinin xüsusi həssas təbəqəsinin vacib ehtiyac meyarları nəzərə alınaraq təkliflər hazırlanıb və bu istiqamətdə müvafiq tədbirlərin həyata keçirilməsinə başlanıb.

Proses mərhələli şəkildə davam edəcək.

***Nigar***

# Baş Nazirin müavini beynəlxalq humanitar təşkilatları Ermənistanın təxribatı barədə məlumatlandırıb

***Azərbaycan Respublikası Baş Nazirinin müavini, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının sədri Əli Əhmədov beynəlxalq humanitar təşkilatların rəhbərlərinə məktublar ünvanlayıb.***

Nazirlər Kabinetinin mətbuat xidmətindən "Unikal"a bildirilib ki, Baş Nazirin müavini məktublarda Ermənistanın Azərbaycana qarşı davam edən hərbi təxribatı barədə məlumat verib.

Sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan və raket sistemlərindən Azərbaycan Ordusunun mövqelərini, eyni zamanda, yaşayış məntəqələrini atəşə tutması nəticəsində dinc sakinlərin həlak olması və yaralanması, yaşayış binalarının, mülki və dig-



ər obyektlərin dağıdılması faktları diqqətə çatdırılıb. Erməni tərəfinin beynəlxalq humanitar hüquqa məhəl qoymadan bir qayda olaraq mülki əhalini və infrastrukturu hədəfə almasının xüsusi narahatlıq doğurduğu qeyd edilib. Bildirilib ki, Moskva şəhərində əldə olunan humanitar atəşkəs rejiminin qüvvəyə minməsindən cəmi bir neçə saat sonra cəbhə zonasından kənarda yerləşən, Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin mərkəzindəki çoxmənzilli yaşayış binalarını "SCUD" raket sistemindən atəşə tutması nəticəsində 5-i qadın olmaqla 10 nəfər həlak olub, 10-u qadın, 9-u uşaq olmaqla 34 nəfər yaralanıb.

Baş Nazirin müavini bunun, Ermənistanın dünya ictimaiyyətinin sülh çağırışlarına, beynəlxalq təşkilatların qəbul etdiyi qətnamələrə məhəl qoymadığını əyani şəkildə sübuta yetirdiyini ifadə edib.

Əli Əhmədov bildirib ki, beynəlxalq təşkilatların Ermənistanın bütün dünya qarşısında bu qədər açıq və birmənalı şəkildə müharibə cinayətləri törətməsinə laqeyd qalmamalıdırlar.

***Famil***

# Komitə sədri: "Zəfər müjdəsi ilə dönən balalarımıza sarıla bilməyimiz üçün həmrəy olmalıyıq"

***Son günlər bir sıra ölkələrdə, o cümlədən ölkəmizdə də koronavirus infeksiyasına yoluxanların sayının artması səbəbindən virusun yayılmasının qarşısının alınması istiqamətində Ümumdünya Səhiyyə Təşkilatının tövsiyə və tələblərinə müvafiq olaraq ölkə ərazisində bir sıra təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi zərurəti yaranıb.***

Unikal.org-un xəbərinə görə, bunu Milli Məcisin Səhiyyə komitəsinin sədri akademik Əhliman Əmiraslanov deyib.

O bildirib ki, prezident İlham Əliyevin tapşırığı ilə bu bəladan xalqımızı qurtarmaq üçün maksimum tədbirlər görülür:

"Bu baxımdan, mövcud sanitar-epidemioloji vəziyyət nəzərə alınaraq, Nazirlər Kabineti yanında Operativ Qərargah xüsusi karantin rejimi çərçivəsində bir sıra məhdudiyyətlərin tətbiq olunmasına qərar verib. Ölkə Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə bu bəladan xalqımızı qurtarmaq üçün maksimum tədbirlər görülür.

Hər bir şəxsin sosial məsuliyyətdən irəli gələn davranışı, Nazirlər Kabineti yanında Operativ Qərargahın bütün tövsiyə, təklif və qərarlarını qeyd-şərtsiz icra etməsi qarşıda duran vəzifələrin mümkün qədər effektiv olması ilə nəticələnər. Tətbiq olunmuş məhdudiyyətlərə əməl etmək lazımdır. Bununla bağlı açıqlıdır. Bu məhdudiyyətlərin tətbiqi yalnız əhalimizi qorumaq üçündür. Təhlükənin öhdəsindən həm özümüz qaydalara əməl etməklə, həm də hər birimiz qaydaları pozanlara etiraz etməklə gələ bilərik. Tətbiq olunan qaydalar milli təhlükəsizlik və milli həmrəylik məsələsidir və tutduğu mövqedən, baxışlarından asılı olmayaraq hər bir vətəndaşdan maksimal şəkildə diqqətli və məsuliyyətli olmaq tələb olunur. Dövləti-



miz uşaqlarımızın, gənclərimizin qorunması məqsədilə xüsusi tədbirlərin tərkib hissəsi kimi bütün təhsil müəssisələrində tədrisi müvəqqəti dayandırmışdır. Düşünürəm ki, bu çox düzgün qərardır. Digər bir tərəfdən özümüzü qorumalıyıq ki, döyüş cəbhəsindən zəfər müjdəsi ilə dönən balalarımıza məsafəsiz sarıla bilək. Bunun üçün hamılıqla həmrəy olmalıyıq".

***Hüseyn***

# "Müəllimlər dərslərdə şagirdlərə döyüşlər barədə məlumat verməlidir" - Məlahət Mürşüdlü

***"Orta məktəblərdə dərslər müəyyən bir proqram çərçivəsində aparılır. Sözsüz ki, Qarabağda gedən müharibə barədə dərs başlamazdan öncə şagirdlərə qısa məlumat vermək vacibdir".***

Azad Müəllimlər Birliyinin sədri, təhsil eksperti Məlahət Mürşüdlü bu barədə Modern.az-a açıqlamasında bildirib: "Mən düşünürəm ki, fənnindən aslı olmayaraq, şagirdlərə döyüşlər barədə məlumat vermək bütün müəllimlərin borcudur. Dərs başlamazdan əvvəl müharibə haqqında 2-3 dəqiqəlik informasiyanın verilməsi vacibdir. Azad olunmuş torpaqların keçmiş həyatı, coğrafi mövqeyi, aparılan rəşadətli döyüşlər barədə məlumat vermək həm də şagirdlərin vətənə sevgisinin, qayğısının artmasına gətirib çıxarır".

Təhsil eksperti qeyd edib ki, bu barədə qohumların, dost-tanışların uşaqlarından soruşurlar. "Daha çox tarix müəllimləri, humanitar fənn müəllimləri məlumatlandırma sessiyalarını dərslərdə tətbiq edir. Elə müəllimlərdə var ki, bunu etmir".



M.Mürşüdlü deyib ki, bu, vətəndaşlıq mövqeyidir: "Bütün müəllimlər şagirdlərdə ruh yüksəkliyini artırmaq, tariximizi öyrətmək məqsədilə bunu etməlidirlər".

# İki müsahibənin fərqi: Qalib lider və yalançı baş nazir - TƏHLİL

***Dünən Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan Rusiyanın "RİA Novosti" agentliyinə müsahibə veriblər. Hər iki ölkənin rəhbərinə eyni suallar ünvanlanıb və eyni cavab imkanı yaradılıb. Amma cavablardan aydın görünür ki, Azərbaycan Prezidentindən fərqli olaraq Paşinyan nəinki qeyri-obyektivlik nümayiş etdirib, hətta bəzi suallardan yayınmağa çalışıb. Müsahibənin yaratdığı ümumi mənzərə belədir - bir tərəfdə müasir və güclü Azərbaycanın lideri, digər tərəfdə öz ölkəsini fəlakətə sürükləyən yalançı, avantürist və səbatsız baş nazir...***

İlk sualdaca çaş-baş qalan Nikolın aparıcının itkilərlə bağlı sualına cavabı gülünc doğurur.

Prezident İlham Əliyev itkilərlə, döyüşlərin dəyərləndirilməsi ilə bağlı suala cavab olaraq, öncə hərbi əməliyyatların başlama səbəbləri barədə məlumat verib. Daha sonra Ermənistanın dinc əhaliyə qarşı müharibə apardığını faktlar əsasında göstərib, Azərbaycan Ordusunun uğurları barədə danışaraq ölkənin ərazi bütövlüyünün bərpa olunması istiqamətində əməliyyatların davam etdiyini deyib. Konkret olaraq itkilərə gəldikdə isə, Prezident həlak olan və xəsarət alan dinc əhali ilə bağlı statistikanı təqdim edərək hərbçilər arasında itkilər barədə hərbi əməliyyatların qızğın fazası bitdikdən sonra məlumat veriləcəyini diqqətə çatdırıb.

Aparıcı Nikol Paşinyana verdiyi eyni suala mahiyyəti üzrə cavab ala bilmir. Sual bir daha izah formasında təkrarlanır. Paşinyan baş verənləri normal şəkildə qiymətləndirmək, təhlil etmək və auditoriyaya öz fikrini çatdırmaqda çətinlik çəkir. Onun cavabını qısaca belə ifadə etmək olar ki, "həlak olanlar çoxdur, bu, XXI əsrdə presedentsiz müharibədir, Türkiyə və Azərbaycanın qısa müddətdə Dağlıq Qarabağı nəzarətə götürmək planı baş tutmadı".

Nikoldan fərqli olaraq Prezident İlham Əliyev öz ölkəsinin mövqeyini aydın şəkildə ifadə edib, Ermənistanın təxribatlarını, mülki şəxslərə qarşı müharibə apardığını konkret rəqəmlərlə göstərib və özünə güvənən, fikirlərinin həqiqiliyinə əmin olan, qəti mövqe ortaya qoyan qalib lider kimi danışıb. Paşinyan isə özünü fikri dağınıq, sualı başa düşməyən, mövcud vəziyyəti ayıq qiymətləndirmək imkanından məhrum olmuş kimi təqdim edib. O, ilk baxışdan sanki təzyiq altında olan və sualın cavabını bilməyən tələbə təəssüratı bağışlayıb.

Digər bir maraqlı məqam müxtəlif istiqamətlərdən gələn muzdluların döyüşlərdə iştirak etməsi ilə bağlı sual-cavab olub. Aparıcı Azərbaycan Ordusunda guya muzdluların döyüşməsi barədə yayıla xəbərlərin nə dərəcədə inandırıcı olmasını soruşub.

Ölkə başçısı bir daha bu mövzuya tutarlı cavab verərək deyib ki, Azərbaycan Ordusu böyük potensiala malikdir. O, Ermənistanın darmadağın edilmiş hərbi texnikasının nümunəsində tam məntiqli şəkildə qeyd edib ki, muzdlular bunu etmək üçün heç bir kvalikasiya və texniki imkanlara malik deyillər. Azərbaycan terrorla mübarizənin ön cərgələrində gedən dövlətdir və terrorçuların ölkəyə və qonşular üçün təhlükə yaratmasına imkan verə bilməz. Bu günə kimi heç kim Azərbaycan tərəfindən muzdluların iştirakına dair heç bir fakt təqdim etməyib. Qısası, Prezident qəti şəkildə cavab verib ki, Azərbaycanda heç bir muzdlu yoxdur, ola da bilməz.

Müsahibədə dağınıq cavabları ilə yadda qalan Ermənistanın baş naziri Azərbaycan Ordusunda muzdluların iştirakı ilə bağlı heç bir fakt təqdim edə bilməyib. O, xarici mediada ümumi sözlərdən ibarət materialları və feyk məlumatları buna əsas kimi göstərib. Paşinya avantüra xarakterli cavabında məsələni şişirdilmiş şəkildə təqdim edərək nəinki Suriya, Türkiyənin, hətta Pakistanın adlarını çəkir. Guya bu ölkələrin hərbi əməliyyatlarda iştirakı barədə iddialar irəli sürüb. Çaşqın vəziyyətdə qalan Paşinyan Türkiyə amilini artıq "sübut olunmuş fakt" kimi təqdim edib. Nə qədər gülünc görünsə də, Nikol müharibənin başlama səbəbini onunla izah etməyə çalışır ki, guya Azərbaycan Ordusu Dağlıq Qarabağdakı silahlı birləşmələrə qarşı vuruşmağa qadir olmadığına görə, Türkiyə müharibəyə başlamaq barədə qərar verib.




Buradan bir daha aşkar görünür ki, Paşinyan həm ölkə ictimaiyyəti, həm də beynəlxalq aləm qarşısında məğlubiyyətini əsaslandırmaq üçün Dağlıq Qarabağdakı qondarma rejimin Türkiyə ilə qarşı-qarşıya olduğunu isbat etməyə çalışır. Yəni, o Azərbaycanın uzun illərdir Dağlıq Qarabağdakı qondarma rejimlə deyil, Ermənistanla qarşı-qarşıya durduğu barədə dünyaya bəyan etdiyi həqiqəti çox bəsit şəkildə "Ermənistan-Dağlıq Qarabağ tandemi Türkiyəyə qarşı" fantaziyası ilə əvəzləməyə cəhd göstərir.

Paşinyanın sayıqlamaları bununla bitmir. O məlum mövzunu daha da böyüdərək dəxilsiz iddialar ortaya atır. Nikol guya Türkiyədən gələn yaraqlıların artıq Dağıstanda göründüyü və məhv edildiyini deyir, bu amili suriyalı yaraqlıların Azərbaycan tərəfindən münaqişədə "iştirakı" ilə əlaqələndirir. Qarşıdurmanın coğrafiyasının genişlənməsi görüntüsü yaratmağa çalışan Paşinyan münaqişənin regional xarakter aldığı iddiası ilə Rusiyanın üzərinə yük qoymaq istəyir, rəsmi Moskvaya nə etməli olduğu barədə mesaj verməyə çalışır.

Müsahibə zamanı hər iki tərəfə danışıqlarla bağlı baza prinsiplərinin mövcud olması xatırladılıb.

"Bu prinsipləri açasınız, siz onlara necə başa düşürsünüz?" sualı Paşinyan üçün arzuolunmaz situasiya yaradıb.

Prezident qısa şəkildə həm baza prinsiplərinin işlənmə tarixçəsi, həm də onun mahiyyəti barədə məlumat verib. O aydın şəkildə göstərir ki, bu prinsiplər Ermənistanın əvvəlki rəhbərliyi ilə danışıqlar prosesində işlənib hazırlanıb. Paşinyan hakimiyyətə gələndən sonra isə görülmüş bütün işlər kənara qoyuldu, danışıqların formatının dəyişdirilməsinə cəhd göstərildi və ümumiyyətlə danışıqlar prosesinə böyük zərbə vuruldu. Qeyd edilib ki, Ermənistanın yeni hakimiyyəti aqressiv ritorika ilə heç bir güzəşt olmayacağını bəyan etdi və açıq şəkildə yeni işğal planlarını reallaşdırmağa başladı.

Müsahibəni izləyən hər kəs bu suala cavabdan sonra Azərbaycan Prezidentinin natiqlik məharəti, diplomat təcrübəsi, dünya miqyaslı siyasi lider obrazı, nitqinin məntiqi ardıcıllığı, hər bir fikrini dəlillərlə əsaslandırmaq bacarığını bir daha görmüş oldu. Bu cür izahatdan sonra heç kimdə onun dediklərinə şübhə yeri qalmır.

Sual oluna bilər ki, nəyə görə Prezident İlham Əliyev baza prinsiplərinin detalları barədə danışa bilir, atılacaq addımları göstərir, amma Paşinyan ümumi sözlərlə konkret sualdan yayınır. Ermənistanın baş naziri "məsələ ondadır ki, bu prinsipləri tərəflər necə interpretasiya edir" deməklə cavabdan qaçır və heç bir detal barədə məlumat vermir. Çünki bu detallar münaqişənin mərhələli həll variantını, 7 rayonun qaytarılmasını, məcburi köçkünlərin öz torpaqlarına qayıtmasını və son mərhələdə Dağlıq Qarabağın statusu məsələnin həllini nəzərdə tutur. Paşinyan bu həqiqətləri dilə gətirə bilmir və bu səbəbdən sualdan ümumi cavablarla yayınır.

Bundan əlavə, Paşinyan "siz hansı kompromisə hazırsınız?", "Elə bir xətt varmı ki, siz heç bir halda onu keçməyəcəksiniz?" suallarından da ümumi cavablarla yan keçməyə çalışıb.

Prezident İlham Əliyev həmin suala cavabında aydın şəkildə izah edir ki, Azərbaycanın mövqeyi beynəlxalq qanunvericiliyin norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə və məsələyə praqmatik yanaşmaya əsaslanır. Azərbaycan heç bir halda ərazi bütövlüyünün pozulmasına və Dağlıq Qarabağın müstəqilliyinə razı olmayacaq. Bununla yanaşı, dövlət başçımız onu da diqqətə çatdırır ki, gələcəkdə Dağlıq Qarabağın ərazisində azərbaycanlıların və ermənilərin sülh şəraitində yaşaması təmin edilməlidir. Prezident İlham Əliyev Azərbaycanın digər yaşayış məntəqələrində, Rusiyada, Gürcüstanda bu nümunələrin olduğunu göstərir və nəyə görə eyni vəziyyətə Dağlıq Qarabağda nail olmağın mümkün olmadığını sual edir. Prinsipcə, Prezident aydın şəkildə münaqişənin sülh yolu ilə həlli mexanizmini tam açıb və xalqların sülh şəraitində yaşamasını təmin edəcək model təklif edib.

Eyni sual Paşinyana üç dəfə verilir... Ermənistanın baş naziri ya sualı başa düşmür, ya da özünü eşitməzliyə vuraraq yayınmağa çalışır. Birinci dəfə o, kompromis kimi xalqların öz müqəddəratını təyin etməsini, sonra isə bu müddəanı "qırmızı xətt" kimi göstərir. Paşinyan kompromis və "qırmızı xətt" anlayışlarını qarışdırır. Buna görə də aparıcı Dmitri Kiselyov sualı ikinci dəfə təkrarlayır. Lakin Paşinyan yenə kompromis barədə sualı cavabsız qoyur. Hətta üçüncü dəfə sual təkrarlandıqda belə, baş nazir deyir ki, "biz Azərbaycanın hazır olduğu proporsional kompromisslərə hazırıq".

Kompromis barədə sualın üç dəfə təkrarlandığı və Paşinyanın dəqiq cavab vermədiyi nəzərə alınarsa, onda Prezident İlham Əliyevin Ermənistanın yeni hakimiyyətinin bu günə kimi işlənmiş bütün məsələlərin və danışıqlar prosesinin üzərindən xətt çəkdiyi, təxribatlar törətdiyi və yeni işğal planları qurduğu barədə dediklərinin tam həqiqət olduğu bir daha öz təsdiqini tapır. Doğrudan da inkarçılıq mövqeyi tutaraq irəli addım atmaq istəməyən qarşı tərəflə hansı danışıqlar aparmaq olar?

Aparıcı hər iki tərəfə daha bir maraqlı sual ünvanlayıb. O, bu müharibə qəddarlığının artıq tarixə düşdüyünü deyərək bildirib ki, müsahibləri də bu müharibə tarixinin bir hissəsidir. "Tarixdə necə qalmaq istəyərdiniz?", deyə jurnalist soruşub.

Prezident İlham Əliyev böyük siyasətçi, mahir diplomat kimi suala müfəssəl cavab verib. Dövlət başçımız bütün müharibələrin qurban tələb etdiyini və qəddarlıq olduğunu göstərməklə yanaşı, böyük auditoriyanın diqqətinə Azərbaycanın və Ermənistanın apardığı müharibənin fərqlərini çatdırır. Azərbaycan üçün bu, azadlıq müharibəsi, Ermənistan üçünsə işğalçı müharibədir. Dağlıq Qarabağdakı silahlı birləşmələrin 90 faizinin Ermənistan vətəndaşları hesabına komplektləşdirildiyini deyən Prezident İlham Əliyev bu gün beynəlxalq birliyin tanıdığı Azərbaycan ərazilərində Ermənistanın işğalçı qüvvələrinin olduğunu diqqətə çatdırıb.

30 il ərzində azərbaycanlıların öz torpaqlarına buraxılmaması nə beynəlxalq hüquq, nə də insan mənəviyyatı baxımından izaholuna bilməz. Fərq bundadır ki, Azərbaycan əsgəri öz torpağındadır və bu torpaq uğrunda həyatını qurban verir. Ermənistan əsgəri isə onun hakimiyyətinin işğal altında saxladığı başqa ölkənin ərazisində ölür. Prezident onu da diqqətə çatdırır ki, tarixdəki rolu haqqında fikirləşməyib və əsas vəzifəsini Azərbaycan xalqının etimadını doğrultmaqda, verdiyi vədləri yerinə yetirməkdə görür.

Paşinyan isə suala cavab verə bilməyib. O, heç bir aidiyyəti olmadığı halda, bu məsələnin şəxsi ambisiyalarla bağlı olmadığını deyir. Eyni zamanda, münaqişənin özünün də ya anlamadığı, ya izah edə bilmədiyi, ya da ki şüurlu şəkildə qaçdığı kompromis əsasında həll olunması məsələsinə toxunub.

Və nəhayət sonda sərbəst sual bölümü diqqət çəkib ki, burada da dövlət başçılarının cavabları bir-birindən xeyli fərqlənib. Prezident İlham Əliyev Rusiya auditoriyasında, mediasında Dağlıq Qarabağın və münaqişənin tarixi haqqında yanlış fikirlərin və fərqli yanaşmaların olduğunu nəzərə alaraq, faktlar əsasında tarixi gerçəkilik barədə qısa, lakin müfəssəl məlumat verir. Həmçinin, hazırkı dövrdə Azərbaycanın Rusiyaya münasibəti və Azərbaycan-Rusiya əlaqələrinin mahiyyətini çatdırır.

Dövlət başçısı Azərbaycanın milli maraqlarını müdafiə etməyin, münaqişə və ölkəmiz haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasının nümunəsini ortaya qoyur. Prezidentin bu yanaşması vətənpərvərliyin, ali vəzifə kimi Azərbaycanın milli maraqlarının müdafiəsi və təbliğinin hər bir vətəndaş üçün prioritet vəzifə olduğunu aydın şəkildə nümayiş etdirir.

Ermənistanın baş naziri Nikol Paşinyan isə bu imkanı öz avantürasını davam etdirmək üçün fürsət kimi istifadə edir. Onun Türkiyənin Cənubi Qafqaza ekspansiyası və Rusiyanın maraqlarına təhdid olması barədə iddiaları daha çox Rusiyanı münaqişəyə cəlb etmək və onun hesabına hər hansı üstünlük qazanmaq məqsədi güdür. Lakin Paşinyan unudur ki, Rusiyanın siyasi rəhbərliyi mövcud reallığı onun qurduğu fantastk ssenarilər əsasında deyil, müvafiq orqanların vəziyyəti öyrənməsi və dərindən təhlil etməsi əsasında qurur. Üstəlik, bir gün öncə Rusiya və Türkiyə prezidentləri arasında baş tutmuş telefon danışıqları və Prezident İlham Əliyevin müsahibəsində Rusiyanın ünvanına dəqiq mesajları bu tipli uydurmaları mənasız edir.

Müsahibədən gəlinən qənaət budur ki, doğrudan da bu gün erməni yalanı, erməni fitnəsi və erməni dezosu Paşinyan tərəfindən misli görünməmiş səviyyədə, fanatikcəsinə gündəmə daşınır. Ümumilikdə isə müsahibədəki cavablar onu deməyə əsas verir ki, Rusiya auditoriyası İlham Əliyevin simasında bir tərəfdən təcrübəli, səlil nitq qabiliyyətinə malik, fikirlərini yüksək səviyyədə, məntiqi ardıcıllıqla çatdıran və izah edən, özünə güvənli və hərəkətlərinin düzgünlüyünə əmin olan dünya səviyyəli lider görür. Digər tərəfdə isə özünü itirmiş, fikirlərini normal izah edə bilməyən, zəif mövqe və məhdud potensial səbəbindən həqiqəti adekvat qiymətləndirmək əvəzinə, avantürist fərziyyələr və uydurmalar səsləndirən, hələ də yarımçıq jurnalistikadan siyasətə keçə bilməyən, cılız və miskin Paşinyan görünür...

***Tural Tağıyev***

# "Təhsil sistemi üçün riskli situasiya yaranıb" - Nazir

***"15 sentyabr tarixindən ümumtəhsil müəssisələrində təhsil ibtidai sinifdən başlayaraq ənənəvi formada təşkil edilmişdi. Bakı, Sumqayıt, Abşeronda həftədə 2 dəfə, digər bölgələrdə 3 dəfə dərsə gəlirdilər".***

Unikal.org xəbər verir ki, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Təhsil naziri Emin Əmrullayev bildirib.

Təhsil naziri deyib ki, sonrakı mərhələdə yuxarı siniflər də əyani təhsilə cəlb edilib: "Ümumilikdə 1 milyon 300 min şagird əyani təhsilə cəlb edilmişdi. 2 milyon təhsil alan və bir neçə yüz min tədris işçisi tədris prosesində iştirak edir. Təhsil müəssisələri yoluxmanı artıra biləcək yerlər kimi qiymətləndirilir. Təhsil sistemi üçün riskli sütuasiya yaranıb. Buna görə də 2020-ci il 19 oktyabr tarixindən 2 noyabr tarixinədək ölkə üzrə bütün təhsil müəssisələrində tətil elan olunub".

"Tətil ancaq təhsil müəssisələrinin fəaliyyətinə aid edilir". Bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Təhsil naziri Emin Əmrullayev bildirib. Onun sözlərinə görə, hazırda iqtisadi fəaliyyətə təsir edən addımlar atılmayıb: "Tətil repetitor fəaliyyəti və digər tədrislə məşğul olan qurumlara aid edilmir. Ümumiyyətlə, atılan addımlar pandemiya ilə mübarizəyə uyğundur", - deyə nazir bildirib.

"Məktəblərlə bağlı karantin yox, tətil elan edilib". Bunu da Təhsil naziri Emin Əmrullayev deyib. O bildirib ki, burada əsas diqqət yetirilməli söz tətil sözüdür: "Tətildə isə heç bir tədris aparılmır. Buna görə də distant təhsilə də ehtiyac qalmır. 2 həftəlik tətildə onlayn dərslər də dayandırılacaq".

"Yoluxmuş 636 şagirdin adı sistemdə var. Bu şagirdlərin heç də hamısı məktəbə gəlməyib. Onlar ailədə və digər şəraitdə yoluxublar". Bu sözləri Təhsil naziri Emin Əmrullayev Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində deyib. Onun sözlərinə görə, məktəbə gəlmiş şagirdlərin təxminən 25 faizi məktəbdə yoluxub: "Bu halda həmin siniflər bağlanıb. Ümumilikdə bir sinifdən 4-5 şagirdin yoluxması halı qeydə alınmayıb. Müəllimlər arasında kütləvi yoluxma hallarına rast gəlib".

# TƏBİB rəsmisindən koronavirus vaksini ilə bağlı açıqlama

***"Biz dünyada gedən araşdırmaları çox yaxından izləyirik. Bəzi peyvənd namizədləri üçüncü mərhələyə keçəndə çox ümidverici olur".***

Unikal.org xəbər verir ki, bu fikirləri Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Xəstəliklərin profilaktikası və kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva Nazirlər Kabineti yanında Operativ Qərargahın bu gün keçirilən brifinqində deyib.

O xatırladıb ki, hələ təsdiq edilmiş bir vaksin yoxdur: "Əgər hər hansı bir vaksin təsdiqlənərsə Azərbaycan onu əldə edə biləcək ilk ölkələrdən biridir. Ancaq hazırda ÜST tərəfindən təsdiqlənən hər hansı bir peyvənd yoxdur. Rusiyada istehsal olunan peyvənd namizədi də tam təsdiqlənməyib. Əgər bu ÜST tərəfindən təsdiq olunarsa, o zaman Azərbaycan da həmin vaksinin ölkəmizə gətirilməsini düşünə bilər".

"Müharibədə hərbi həkimlər də itirmişik. Biz onlarla fəxr edirik. Onlar böyük səhiyyə ailəsinin üzvləridir". Bunu da Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında TƏBİB-in xəstəliklərin profilaktikası və kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva bildirib. Y. Qarayeva deyib ki, hazırda cəbhədə xeyli həkim var.

# Milli Qəhrəman: "Sürünə-sürünə olsa da, özümü Şuşaya çatdıracam"

***Azərbaycan Milli Qəhrəmanı, keçmiş "Qurtuluş" batalyonunun komandiri, Qarabağ Azadlıq Təşkilatı Ali Məclisinin üzvü Şahin Tağıyev Silahlı Qüvvələrə Yardım Fonduna 1500 manat məbləğində yardım edib.***

QAT-dan "Unikal"a verilən məlumata görə, hazırda İsveçdə mühacirətdə yaşayan Şahin Tağıyev bildirib: "Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin düşmənə qarşı açıq müharibəyə başlamasını alqışlayır, təşəkkür edir, rəşadətlə vuruşan Azərbaycan Ordusu, əsgər və zabitləri ilə fəxr edirəm. Səhhətimlə əlaqədar gələ bilmirəm, amma ürəyimlə, canımla xalqımla birlikdəyəm. Bu cüzi vəsaiti köçürməklə ürəyim biraz rahat oldu. Qələbə günü sürünə-sürünə olsa da, özümü oraya, ata yurdum Şuşaya çatdıracam".

# Əbülfəs Qarayevlə bağlı daha bir şok fakt...

## Mədəniyyət Nazirliyində yaradıcı adamların qonorarını necə "yeyirlərmiş"?

***Sabiq Mədəniyyət naziri Əbülfəs Qarayevin vəzifədən kənarlaşdırılmasının üzərindən bir neçə ay keçir. Bununla belə, mütəmadi olaraq onun həmin postu tutduğu dövrdə Azərbaycan mədəniyyətinə vurulan zərbələr barədə yeni nəsə öyrənirik. Elə təzəlikcə tanınmış bəstəkar Firudin Allahverdinin bir müsahibəsində dedikləri də bu qəbildəndir. Həmin açıqlamalardan bir daha aydın olur ki, Əbülfəs Qarayev nazir postunda qalardısa, mədəniyyətimizin gələcəyinə təhlükələr də artan xətlə davam edəcəkdi.***



Bəstəkar haqqında danışdığımız müsahibəsində başına gələn, daha doğrusu, gətirilən bir hadisəni nəql edib. Bir vaxtlar Mədəniyyət Nazirliyinin hansı prinsiplərlə işlədiyini və idarə olunduğunu daha yaxşı qavramaq üçün həmin hadisəni Firudin bəyin dilindən eşitməkdə fayda var. Sitat: "2016-cı ildə Akademik Musiqili Teatrın səhnəsində mənim "Baladadaşın toy hamamı" adlı musiqili teatr əsərim səhnələşdirildi. Artıq 4 ildir səhnədən düşməyən bu tamaşanın üzərində mən, təxminən 3 il işləmişdim. Premyera baş tutan il məni Mədəniyyət Nazirliyinə dəvət etdilər və dedilər ki, bu əsərə görə sənə 5000 AZN qonorar ödəyirik. Mən dedim ki, axı Nazirlər Kabinetinin qərarına görə, bu formalı əsərin minimal qiyməti 10 000 manatdır. Mənə dedilər ki, orda yazılan maksimal qiymətdir, sən isə cavan oğlansan, o məbləği sənə verə bilmərik, onu biz yaşlılara, korifey bəstəkarlara veririk. Yəni faktiki olaraq, göz görə-görə mənə Nazirlər Kabinetinin 16 fevral 2006-cı il, 52 saylı qərarını tərsinə izah etdilər, təhrif olunmuş məlumat verdilər".

Bəstəkar hazırda Azərbaycanda iri həcmli musiqi əsərlərinin yazılmamasının səbəbini onların qiymətləndirilməməsi, mükafatlandırılmamasında görür: "Məsələ tək məndə deyil, digər kolleqalarımla söhbətdə də öyrənmişəm ki, bəstəkarlara, ələlxüsus da iri həcmli musiqi yazan bəstəkarlara qonorarların ixtisarla verilməsi Mədəniyyət Nazirliyinin trendinə çevrilib və bu, onillərdir ki, davam edir... Qanunla müəyyən olunan (sonuncu dəfə o qiymət cədvəli 14 il əvvəl yenilənib) minimal qonorarı belə, vermək istəmirlər. Yəqin, istəyirlər ki, ara mahnıları yazıb birtəhər başımızı dolandıraq".

Həqiqətən ürək ağrıdan məqamlardır. Ölkə mədəniyyətinin inkişafını, canlanmasını təmin etməklə görəvləndirilmiş bir nazirliyi Əbülfəs Qarayev görün nə kökə salıbmış! Üstəlik, onun özü də bir çox mədəniyyət xadimləri yetişdirmiş ailənin nümayəndəsidir. Lakin vəzifədə ikən bir bəstəkarın qanuni haqqı olan qonorarı ödəməyi belə çox görür.

Yeri gəlmişkən, bir neçə il əvvəl Hesablama Palatası Mədəniyyət Nazirliyində aparılan yoxlamalar zamanı çoxsaylı korrupsiya faktları ilə yanaşı qonorarın verilməsi ilə bağlı da ciddi nöqsanlar aşkarlamışdı. Məlum olmuşdu ki, məsələn, keçirilən müsabiqələrdə qaliblərə müəyyən edilmiş mükafatların və rezident şəxslərə verilən qonorarların ödənişi müvafiq qanunvericiliyə uyğun aparılmayıb. Həqiqətən də biabırçılıqdır. Özü də böyük biabırçılıq!

Onu da deyək ki, əslində Firudin Allahverdi oxşar münasibətlə üzləşən yeganə mədəniyyət adamı deyil. "Unikal"ın araşdırması nəticəsində məlum olub ki, bənzər hadisələr gənc dramaturqların, rəssamların da başına gəlib. Onların pyesləri, rəsmləri ya nazirlik tərəfindən laqeyd, biganə münasibət görüb, ya da qəpik-quruşla qiymətləndirilib. Unudulub ki, həmin cavan müəlliflər Azərbaycan mədəniyyətinin sabahını təmsil edirlər. Bu gün onlar layiq olduqları qiyməti (hər iki mənada - həm maddi, həm də mənəvi olaraq!) almasalar, o zaman gələcəkdə ölkə teatrı, rəssamlığı kimlərin ümidinə qalacaq!

Hələ onu demirik ki, uzun illər Azərbaycan mədəniyyətinin inkişafına məsul olan bir nazirliyin maddiyyata həddsiz aludə olan, öz cibindən başqa heç nə barədə düşünməyən adamlar tərəfindən idarə edilməsinin özü ən ürəkağrıdıcı məqamlardan biridir. Sənət adamlarının, yaradıcı insanların əməyinə, alın tərinə ögey yanaşmaq, onların haqqını verməmək həqiqətən böyük ayıbdır. Təsəvvür edin: illər boyu nazirliyin büdcəsi elə onun fəaliyyəti dövründə sağa-sola səpələnib, Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) apardığı anti-korrupsiya əməliyyatı zamanı ortaya çıxan faktlardan da aydın olduğu kimi, mənimsənilib, şəxsi ciblərə ötürülüb. Bununla belə, bir yaradıcı adamın əməyini layiqincə, qanunla müəyyən edilmiş şəkildə qiymətləndirməyə can çəkiblər!

Yəqin "sözün bitdiyi yer" elə buna deyilir...

***Toğrul Əliyev***

# Ermənistan münaqişənin miqyasını genişləndirməyə cəhd edir

***Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Qubadlı rayonu ərazisindən oktyabrın 15-də saat 10:44-də atdığı əməliyyat-taktiki raket Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu ərazisində partlayıb.***

Bu barədə “Unikal”a Azərbaycan Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən məlumat verilib. Dinc sakinlərə və mülki obyektlərə zərər dəyməyib.

“Ermənistan bütün vasitələrlə münaqişənin coğrafi əhatəsini genişləndirməyə çalışır”. Bu barədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev “Twitter”də bildirib. “Ermənistan silahlı qüvvələri Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu ərazisinə raket zərbəsi endirib. Bu, Ermənistanın bütün vasitələrlə münaqişənin coğrafi əhatəsini genişləndirməyə çalışdığına dəlalət edir. Münaqişə bölgəsindən kənarda olan Azərbaycan şəhərlərinə raketlər atılır. Bütün məsuliyyət Ermənistanın üzərinə düşür”, - deyə H. Hacıyev qeyd edib.

“Unikal”a açıqlama verən Vətəndaş İnkişaf Partiyasının sədri Əli Əliyev deyib ki, Ermənistanın Ordubadı vurması, ondan əvvəl Gəncədə törədilən terror və digər kütləvi qırğın silahlarından istifadə etməsi məkrli bir siyasətin tərkib hissəsidir. Onun sözlərinə görə, son addımlar insanlığa qarşı cinayət kimi xarakterizə edilir: “Tərtər qəbiristanlığında dəfn mərasimini atəşə tutmaq, bir neçə insanın ölümünə və yaralanmasına səbəb olmaq, orta hesabla bir rayona min mərminin atılması da insanlığa qarşı cinayətdir. Hətta Bakı Ətrafına atılan mərmi təşəbbüsləri bizim tərəfdən yürüdülən haqlı müharibənin beynəlmiləşməsinə çalışmaqdır. Ermənistan tərəfi Paşinyan başda olmaqla, yalançı təbliğat aparmaqdadır. Guya Azərbaycan tərəfi hansısa dini terrorçu qrupları bura cəlb edib. Bu cür sərsəm bəyanatlar da müharibənin əhatə dairəsinin genişlənməsinə cəhdlərdən biridir. Rusiyaya dəfələrlə müraciətlərin edilməsi, guya ölkəmizə gələn terrorçu dəstələrin Şimali Qafqazda terror aktları törətmək niyyətində olması kimi sərsəm bəyanatlar verilməkdədir. Bütün bunlar gərginlik coğrafiyasını genişləndirməyə xidmət edir. Yadınızdadırsa, bir az əvvəl İran ərazisinə də mərmi atılmışdı. Ermənistan bu kimi addımlarla bölgə gücləri olan Rusiya ilə İranın prosesə cəlbinə təşəbbüs göstərir. Çünki uduzduqlarının fərqindədirlər. Ermənilər öz məğlubiyyətlərinə bəraət qazandırmaq üçün müharibəni alovlandırıb kənar qüvvələri cəlb etmək istəyirlər. Uğursuzluqlarını regional münaqişəyə çevirməklə Azərbaycan torpaqlarının işğal faktını başqa problemlər içərisində əritmək təşəbbüsü göstərir”.



**Əli Əliyev: “Ermənilər öz məğlubiyyətlərinə bəraət qazandırmaq üçün müharibəni alovlandırıb kənar qüvvələri cəlb etmək istəyirlər”**



**Aydın Mirzəzadə: “Azərbaycan ona qarşı edilən hüquqazidd əməllərin hər zaman layiqli cavabını verib, bu dəfə də düşmən öz cavabını alacaq”**

Partiya sədri onu da qeyd edib ki, erməni tərəfinin fitvasına getmək olmaz: “Bu, Ermənilər tərəfindən qurulan tordur. Amma bu cür əməlləri cavabsız da qoymaq olmaz. Son günlər Basarkeçərdə Azərbaycanı hədəf alacaq İsgəndər və “Toçka-U” raketlərinin vurulması ruhunda proses davam etməlidir. Düşmən ərazisində olsa belə legitim hədəflər məhv edilməlidir. Bu, Azərbaycanın haqqıdır. Bununla bağlı istər Müdafiə Nazirliyi, istər Prezident köməkçisi Hikmət Hacıyev öz bəyanatlarında bu barədə bildiriblər. Biz çalışmalıyıq ki, Ermənistan qudurmasın, bunun üçün onların lazımi səviyyədə cavabı verilməlidir. Çalışıb dəngəni gözləməklə üzərimizə gələn hər hansı aqressiyaya cavab verməliyik. Burada maraqlı bir məqam da odur ki, bu günə qədər Naxçıvana tərəf atəş açılmamışdı, çünki ikinci cəbhənin açılmasında maraqlı deyillər. Amma hər şeyi itirmək qarşısında qalanda bu istiqmətdə də təşəbbüslər davam edə bilər.”

Yeni Azərbaycan Partiyası Siyasi təhlil və informasiya şöbəsinin müdiri, deputat Aydın Mirzəzadə “Unikal”a bildirib ki, Ermənistan silahlı qüvvələrinin Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu ərazisinə raket atması düşmənin növbəti ciddi təxribatıdır. O qeyd edib ki, həmişə olduğu kimi, bu dəfə də düşmən layiqli cavabı alacaq: ”Düşmən hərbi əməliyyatların coğrafiyasını genişləndirməyə çalışır, bu məqsədlə də Azərbaycanın hərbi əməliyyatlar apardığı bölgələrdən uzaq məntəqələri atəşə tutur. Naxçıvanın atəşə tutulması Azərbaycanı daha ağır döyüşlərə cəlb etmək məqsədi güdür. Lakin ölkəmiz ərazi bütövlüyünü qorumaq üçün öz hüquqlarından istifadə edir. Ermənistan bilməlidir ki, bu cür əməllərinin ağır cavabını mütləq alacaq. Azərbaycan hökuməti vətəndaşlarının təhlükəsizliyini qorumağı özünün bir nömrəli vəzifəsi hesab edir. Dünya ictimaiyyəti Azərbaycanın necə çətin və müasir düşüncədən uzaq dövlətlə qonşu olduğunun fərqindədir. Azərbaycan ona qarşı edilən hüquqazidd əməllərin hər zaman layiqli cavabını verib. Bu dəfə də düşmən öz cavabını alacaq”.

Hərbi ekspert, ehtiyatda olan polkovnik Şair Ramaldanov Azvision.az-a açıqlamasında bildirib ki, düşmən tərəfi Naxçıvan ərazisinə raket atmaqla münaqişənin əhatə dairəsini genişləndirmək istəyir. Onun sözlərinə görə, Ermənistan Azərbaycanın oxşar addım atması üçün təxribatlar törədir: ”Naxçıvana atılan raket xoşbəxtlikdən boş əraziyə düşüb və xəsarət alan olmayıb. Bildiyimə görə, ”Smerç” raketi atılıb. Bu düşmənin özünəməxsus məqsədidir. Azərbaycan Xarici İşlər Nazirliyinin vasitəsilə onların havadarlarına, ATƏT-in Minsk qrupuna və digər qurumlara bununla əlaqədar faktlar göndərməklə xəbərdarlıq edilir. Əgər hücumlar davam edərsə, legitim hərbi obyekt kimi hədəfə götürülüb, düşmənə cavab atəşi açılacaq. Ermənistan elə bilməsin ki, öz ərazisindən hara istəsə raket ata bilər. Azərbaycan onu cavabsız qoymayacaq. Sadəcə müəyyən prosedurlar var. Bu məsələlər hüquqi səviyyədə həll olunandan sonra Azərbaycan öz cavabını verəcək”.

Ş.Ramaldanov qeyd edib ki, düşmənin münaqişənin coğrafiyasını genişləndirməklə yanaşı digər məqsədi də var: ”Onlar Azərbaycanın cavab atəşi açmasını gözləyirlər. Çalışırlar ki, Ermənistanın dövlət sərhədi pozulmuş kimi dünyaya təqdim edilsin. Bununla bağlı müəyyən işlər aparılır ki, risk aradan götürülsün. Ya da onlara təzyiq göstərilsin ki, Ermənistan ərazisindən Azərbaycana atəş vasitələrindən istifadə etməsinlər”.

***Z.Məmmədli***

# Tahir Budaqov beynəlxalq statistika qurumlarına müraciət etdi

***Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqovun ölkə statistikləri adından bütün beynəlxalq təşkilatların və dünya ölkələrinin statistika qurumlarına müraciət edib.***

“Unikal”ın məlumatına görə, müraciətdə deyilir: “Hörmətli həmkarlar! Məlum olduğu kimi, BMT Baş Assambleyasının 69/282 saylı Qətnaməsinə uyğun olaraq 2020-ci il 20 oktyabr tarixində bütün dünya statistikləri hər beş ildən bir keçirilən “Ümumdünya Statistika Günü”nü təntənəli şəkildə qeyd etməyə hazırlaşırlar.

Böyük təəssüf hissi ilə bildiririk ki, yuxarıda qeyd olunanlara şahidlik etdiyimiz bir zamanda Ermənistan silahlı qüvvələrinin 2020-ci ilin sentyabr ayının 27-dən başlayaraq ölkəmizə qarşı növbəti hərbi təcavüzü, Azərbaycan Respublikasının yaşayış məntəqələrini ağır artilleriyadan, ballistik raketlərdən atəşə tutması, mülki əhalini hədəfə alması, onlarla dinc sakinin, o cümlədən qadın və uşaqların qətlə yetirilməsi, yüzlərlə insanın yaralanması, minlərlə yaşayış evlərinin və sosial obyektlərin dağıdılması nəticəsində yaranmış vəziyyət Azərbaycanda statistiklərin böyük səbirsizliklə gözlədiyi “Ümumdünya Statistika Günü”nün qeyd edilməsini mənəvi prinsiplər və etik normalar baxımından mümkünsüz etmişdir.

Beynəlxalq hüququn fundamental norma və prinsiplərini, Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822, 853, 874 və 884 saylı qətnamələrini bu günədək icra etməyən, beynəlxalq humanitar hüququ, Cenevrə Konvensiyasının tələblərini kobud şəkildə pozmaqda davam edərək beynəlxalq təşkilatların münaqişənin sülh yolu ilə həllinə dair çağırışlarına məhəl qoymayan Ermənistanın silahlı qüvvələri son iyirmi gündə döyüş bölgəsindən kənarda yerləşən

Gəncə, Mingəçevir və Naftalan şəhərlərini, Abşeron, Xızı, Bərdə, Beyləqan, Ağcabədi, Zərdab, Goranboy, Göygöl, Tərtər və Yevlax rayonlarının yaşayış məntəqələrini, ölkənin ən iri su elektrik stansiyasını, Avropanın enerji təhlükəsizliyinin təminatında əhəmiyyətli rol oynayan və regionun iri strateji obyektləri sayılan Bakı-Tbilisi-Ərzurum qaz və Bakı-Tbilisi-Ceyhan neft boru kəmərlərini hədəfə alaraq intensiv şəkildə atəşə tutmuş, humanitar məqsədlərlə oktyabrın 10-da əldə edilmiş atəşkəs razılığına da əməl etməmişdir. Ermənistan silahlı qüvvələri 11 oktyabr gecə saat 2-də öz ölkəsinin ərazisindən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə növbəti dəfə ballistik raketlər atmış, yalnız bu vandalizm aktı nəticəsində 4-ü qadın olmaqla 10 nəfər həlak olmuş, 16-sı qadın və 6-sı azyaşlı olmaqla 34 nəfər yaralanmış, 3 azyaşlı uşaq hər iki valideynini itirmiş, 3 yaşayış binası tamamilə dağıdılmış, onlarla çoxmənzilli yaşayış binasına və sosial təyinatlı müxtəlif obyektlərə ziyan dəymişdir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq Azərbaycanda “Ümumdünya Statistika Günü”nün qeyd olunmayacağına dair qərarımıza hörmət və anlayışla yanaşacağınıza ümid edirik. Hesab edirik ki, BMT-nin bütün qərarları, o cümlədən Təhlükəsizlik Şurasının yuxarıda qeyd olunan qətnamələri icra olunmalı, beynəlxalq təşkilatlar və ictimaiyyət Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli mövqe sərgiləməli, Ermənistanın ölkəmizə qarşı 30 ilə yaxın müddətdə davam edən işğalçılıq siyasəti dayandırılmalı, onun işğalçı qüvvələri Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisini tərk etməli, 1,2 milyon qaçqın və məcburi köçkünün öz evlərinə qayıtmaları təmin edilməlidir.

Hörmətli həmkarlar, Bütün bunlara baxmayaraq Azərbaycanın statistikləri öz nikbinliyini itirmir və dünyamızın daha yaxşı gələcəyinə əminliyini ifadə edərək “Ümumdünya Statistika Günü” münasibətilə Sizi ürəkdən təbrik edir, möhkəm can sağlığı, xoşbəxtlik, ölkənizə sülh və firavanlıq arzu edir”.

***Hüseyn***

# İRAN AZƏRBAYCANI AÇIQ MÜDAFİƏDƏN NİYƏ ÇƏKİNİR?

## Rəsmi Tehran Türkiyə-Azərbaycan ittifaqından narahat olmamalıdır - TƏHLİL



***27 sentyabrda Ermənistanın həyata keçirdiyi hücum və ardınca başlayan toqquşmalar təqribən 30 ildir davam edən Qarabağ və ətraf ərazilərin işğalı məsələsini yeni bir səviyyəyə qaldırıb. Bu prosesdə Azərbaycanın Füzuli və Cəbrayıl rayonlarını azad etmək kimi önəmli uğurları olduğu halda, işğalı davam etdirməkdə israr edən zəif Ermənistanın ehtiyac duyduğu xarici dəstək də önəmli bir amil olaraq qarşımıza çıxmış durumdadır.***

Rusiya, Ermənistan Baş naziri Nikol Paşinyanla "qan uyuşmazlığı" yaşamasına baxmayaraq, bölgənin Azərbaycan tərəfindən tamamilə azad edilməsini arzulamadığını hərbi təchizat dəstəyi verməsilə göstərdi. Lakin Moskva bu müddətdə faktiki hərbi müdaxilə etməkdən qaçdı.

Əlbəttə, Rusiyanın problemə aktiv tərəf olmasını əngəlləyən bir sıra səbəblər vardır. Məsələn, Ermənistanın mütəmadi olaraq Azərbaycan şəhərlərini hədəfə almasına rəğmən, Azərbaycan ordusunun buna bənzər bir fəaliyyətdən yayınması Rusiyanın KTMT çərçivəsində faktiki müdaxiləsini indiyədək önləmişdir. Burada Moskvanın dəstək vermədiyi halda, Yerevana yaşana biləcəklərin göstərilərək "tərbiyəetmə" yoluna getdiyi də söylənə bilər.

Rusiyanın tutumu ilə birlikdə, rus təchizatının Ermənistana çatdırılması marşrutunda kilid rol oynayan İranın bu güc balansındakı mövqeyi də son dərəcə önəmlidir.

Tehranın Qarabağ məsələsilə bağlı yaşadığı böhranın anlaşıla bilməsi üçün İranın daxili və xarici siyasət balanslarının birlikdə oxunması və əlbəttə, geopolitik şərtlərin diqtə etdiyi siyasi mövqelərin də nəzərə alınması şərtdir.

Tehran bölgənin önəmli aktyorlarının başında gəlir və Azərbaycan, Ermənistan və Türkiyə ilə qonşu olduğuna görə də Qarabağ məsələsi İranı birbaşa maraqlandırır.

Digər tərəfdən, İran-Rusiya əlaqələri də bu balansın önəmli ünsürlərindən biri sayıla bilər.

### İranın Qafqaz siyasəti

Əslində, Qarabağ probleminin başlanğıcından bu yana İranın mövqeyi, demək olar ki, dəyişməyib. Bu mövqe "tərəfsizlik" və "vasitəçilik" anlayışları ətrafında formalaşıb. İranın xarici siyasətində Qafqazın Orta Şərq qədər yer tutmadığı bir həqiqətdir. Tehran üçün bu bölgə heç bir zaman Suriya və ya İraq qədər önəm kəsb etməyib.

Bu durumun səbəbləri arasında ABŞ və sanksiyaların təzyiqinin Tehranın xarici siyasət açılımlarını məhdudlaşdırmasını və Rusiyanın bölgədəki nüfuzunu qeyd etmək olar.

Bütün bunlarla birlikdə, bu torpaqlar XIX əsrin əvvəllərinədək bugünkü Gürcüstanın cənubu ilə Ermənistan və Azərbaycan torpaqlarını əlində tutan İranın tarixi və mədəni yaddaşı baxımından önəmsiz hesab edilə bilməz. SSRİ-nin dağılmasından sonra bölgədə yaranan güc boşluğu İranın da artıq Qafqaza yönələ biləcəyi anlamına gəlmiş və dövrün Rəfsəncani hökuməti 1990-cı illərin əvvəllərində müxtəlif təşəbbüslər göstərərək, bu yöndə addımlar atmışdır. Əlbəttə, Xəzər dənizinin ticarət baxımından strateji önəm daşıması və orada yer alan enerji mənbələri də İranın bölgəyə yönəlik marağını bəsləmişdir.

Qarabağ və ətrafındakı 7 rayonun işğalına da İran bu çərçivədə yanaşmış, vasitəçilik fəaliyyətlərilə öz təsirini artırmağa çalışmış, bu səbəblə, Ermənistanı və ya Azərbaycanı açıq dəstəkləməkdən imtina etmişdir.

İran bölgədə sabitliyin pozulmasının və ehtimal olunan sərhəd dəyişikliklərinin Xəzərdəki hesablarına mənfi təsir edəcəyini və əlbəttə, öz sərhəd təhlükəsizliyini təhdid edəcəyini düşünmüşdür. Bu çərçivədə, İranın yanaşmasına "real politik" və praqmatik hesabların yön verdiyi söylənə bilər. Əks təqdirdə, bütün digər hüquqi səbəblərə əlavə olaraq, İran məzhəb yaxınlığının da olduğu Azərbaycanın yanında olmalı idi.

### Tehran bölgədə güc balansının dəyişməsindən narahatdır

Yaxşı, bəs, İranın sözdə tərəfsiz olması reallığı nə qədər əks etdirir? İran, şifahi şəkildə tərəfsiz olduğunu, beynəlxalq hüquqa riayət etdiyini və son günlərdə ölkə daxilində artan gərginliyin təsirilə də, Azərbaycanın ərazi bütövlüyünü nə qədər vurğulasa da, döyüşlərin ilk günlərində Rusiyanın həm qurudan, həm də havadan Ermənistana dəstək verməsinə səs çıxarmadı. Xəzər dənizi və ardınca Bəndər Ənzəli-Norduz sərhəd qapısı xəttindən Ermənistana hərbi təchizat çatdırılması həm daxildə, həm də xaricdə İrana yönəlik tənqidlərin artmasına səbəb oldu. Xüsusilə Təbriz, Ərdəbil və Tehran kimi şəhərlərdə İran türkləri etiraz nümayişləri keçirdilər. İran daxilində artan narazılıq, rəsmi şəxslərin açıqlamalarının tonu və məzmununa da təsir etdi. Etirazlardan sonra vəzifəli şəxslər daha açıq şəkildə Azərbaycanın ərazi bütövlüyünü müdafiə etdiklərini söylədilər, Norduz sərhəd qapısından artıq təchizatın keçmədiyinə dair proqramlar yayıldı və Ali dini lider Seyid Əli Xamneinin Təbriz, Ərdəbil,

Zəncan və Urmiyə vilayətlərindəki təmsilçiləri Qarabağın Azərbaycan və islam torpağı olduğuna dair bir bəyanat yaydılar.

Çox keçmədən, bu bəyanatı yayanlar ölkə daxilində sərt şəkildə tənqid edilməyə başlandı və müxtəlif KİV-lərdə İranın milli maraqlarına ən uyğun olan mövqenin Ermənistana dəstək vermək, ya da, ən azı, tərəfsizliyi qoruyub saxlamaq olduğu haqqında yazılar yazıldı. Yəni, İranın daxili ictimai rəyi də rəsmi şəxslərin yaşadığı dilemmanı yaşamaqdadır.

Tənqidlərin öndə gələn əsasları arasında Türkiyənin bölgədə artan təsirinin yer alması da gözdən qaçmır. Türkiyə-Azərbaycan birliyi bölgədəki balansı yenidən qurma potensialı daşıdığından İranı qayğıya sövq edir. Bu durum həmin KİV-lərdə açıqca ifadə edilməklə qalmadı, üstəlik, Türkiyənin Suriyadan "cihadçı" qrupları Qarabağa savaşmağa göndərməsi kimi əsassız iddialar da İran mediasında sıxlıqla yer aldı.

Heç bir sübutu olmayan bu iddianın, ad çəkilmədən, İran Prezidenti Ruhani tərəfindən də gündəliyə gətirilməsi İranın Türkiyənin bölgədə artan rolundan duyduğu narahatlığın ən açıq ifadəsidir.

### İranın manevr sahəsi məhduddur

İranın sərhəd qapılarından və hava sahəsindən Ermənistana yardımın getməsinə razılıq verilməsi, əslində, Tehranın çox da könüllü olduğu bir məsələ olaraq oxunmamalıdır. Hazırda İranın Rusiyaya "xeyr" demək imkanı yoxdur. İran, BMT TŞ tərəfindən müzakirə olunan beynəlxalq silah embarqosu və nüvə sahəsindəki fəaliyyətlərilə bağlı geri gətirilməsi təklif edilən sanksiyalar (snapback sanctions) məsələsində Rusiyanın veto hüququndan asılı durumdadır. Başqa sözlə, İran, ABŞ-ın BMT vasitəsilə etdiyi təzyiqi Rusiya ilə balanslaşdırmaqdadır.

Digər tərəfdən, İran, özü üçün həyati önəm kəsb edən Əsəd rejiminin yıxılmaması üçün də Rusiyanın hərbi varlığından asılı durumdadır. 2015-ci ildən bu yana faktiki Suriyada olan Rusiya meydanda ipləri elə alınə alıb ki, İranın Suriyadakı gücündən istifadə imkanı kifayət qədər məhdudlaşdırılmış durumdadır.

İranın hərbi anlaşmalar və silah alması səbəbilə də Rusiya ilə əlaqələrini pozmağı gözə ala bilmədiyi söylənə bilər.

Durum belə olunca, İran xaricdən Rusiya, daxildən də türk əhalisinin təzyiqi arasında sıxışıb qalmışdır. Yeganə çıxış yolunun İranın çevik bir ictimaiyyətlə əlaqələr praktikasından istifadə edərək, bu prosesi ötüşdürməsi olduğu anlaşılır.

İrandakı erməni varlığının bu ölkənin Ermənistan siyasətinə təsir etdiyi nəzərə alınmaqla birlikdə, İran əhalisinin, ən azı, 40%-ini türklərin təşkil etdiyi də gözdən qaçırılmamalıdır.

Beynəlxalq hüquq baxımından Azərbaycan haqlı olsa da, İran Ermənistanı qarşısına almamağa çalışır. ABŞ və Fransada önəmli nüfuzu olan erməni diasporası ilə əlaqələrini yaxşı saxlaması da İran üçün son dərəcə önəmlidir. Erməni lobbisinin bu ölkələrin siyasətinə olan təsirləri məlumdur. Bu səbəblə, Tehran, başda sanksiyalar olmaqla, müxtəlif xarici təzyiqlərə qarşı erməni lobbisini özünə meydan açacaq bir mexanizm olaraq görür.

Ayrıca, İranda yaşayan təqribən 200 min ermənin də Tehran üçün addımlarını atarkən diqqət etməli olduğu digər bir səbəb olması da gözdən qaçırılmamalıdır. Bu kəsimin xüsusilə ticarət fəaliyyətilə məşğul olması onların İran iqtisadiyyatı baxımından da önəmli olduqlarını göstərir. Tehran Ermənistan və erməni əhalisilə bağlı daima həssas olmuşdur. Hətta İsfahan şəhərində qondarma "erməni soyqırımı" abidəsi belə vardır.

Qeyd edildiyi kimi, İrandakı erməni varlığının bu ölkənin Ermənistan siyasətinə təsir etdiyi nəzərə alınmaqla birlikdə, İran əhalisinin, ən azı, 40%-ini türklərin təşkil etdiyi də gözdən qaçırılmamalıdır. Türklər İranın köklü ünsürüdür. İranda, ən azı, 35 milyon adam türkcə danışmaqdadır. Və Qarabağda gedən döyüşlər İran türklərinə duyğusal olaraq ciddi şəkildə təsir etməkdədir. Azərbaycan və İran türkləri arasında sıx mədəni və tarixi bağlar mövcuddur. Sərhəddə yaxın bölgələrdə bu bağlara qohumluq bağları da əlavə olunmaqdadır. İran hakimiyyəti üçün bu nöqtədə balansı tapmaq çox önəmlidir. Bir yandan Azərbaycan və İran türklərinin ehtimal olunan - mümkün siyasi birliyinin əngəllənməsi hədəflənərkən (ayırma), digər yandan artan narazılıq qarşısında Tehranın Azərbaycan türklərilə yaxınlığı və onlara dəstəyi vurğulanmaqdadır (birləşdirmə).

İlk baxışda təzadlı görünən bu ikili yanaşma, əslində, həm İranın diplomatik çevikliyini, həm də problemə, bu çeviklik istisna olmaqla, təsir edə biləcək vasitələrdən məhrum olduğunu gözlər önünə sərməkdədir.

***Mustafa CANER,***
***Sakarya Universitetinin Orta Şərq Araşdırmaları Mərkəzində İran üzrə mütəxəssis***

# “Vətənsiz qalmaq sözlə ifadə olunacaq bir duyğu deyil” – İşğaldan azad olunan kəndin sakini

## Əli Əliyev: “Balyanda köçən gün biz bu mənzilin açarlarını təhvil verəcəyik, oradan isə ev istəmirik, evi özümüz tikəcəyik”

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

***Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun dəstəyilə “Qaçqın və məcburi köçkünlərin, əhalinin sosial cəhətdən qayğıya ehtiyacı olan təbəqələrinin problemlərinin həlli ilə bağlı həyata keçirilən tədbirlərin işıqlandırılması” istiqaməti üzrə layihə çərçivəsində hazırlanır.***

***İllərdir ki, Dağlıq Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinin, beynəlxalq təşkilatların diqqətinə çatdırılması yönündə iş aparılır. 30 ilə yaxın davam edən proses göstərdi ki, Azərbaycanın haqq səsinə səs verməli olan super güc dövlətləri bu münaqişənin aradan qaldırılmasına nə maraq göstərir, nə də ki, təsir edir.***

Beləcə 27 ildir ki, səbr nümayiş etdirərək torpaqlarını işğaldan azad etmək üçün sülh yolunu tutan Azərbaycan dövləti məcburiyyət qarşısında müharibəyə təhrik edildi. İşğal etdikləri torpaqlar azmış kimi yeni ərazi iddialarında olan Ermənistanın Tovuzu atəşə tutması artıq Azərbaycan dövlətinin və xalqının səbr kasasını daşdırdı. Ermənistanın bu təxribatlarına qarşı əks hücum əməliyyatlarına başlayan Azərbaycan ordusu zəfər qazanmaqda davam edir. Artıq ölkəmiz işğal altında olan torpaqlarımızın müəyyən hissəsini işğaldan azad edib. Ordumuzun gücü qarşısında duruş gətirə bilməyən Ermənistan ordusu çıxış yolunu bütün hərbi texnikasını döyüş bölgəsində qoyub qaçmaqda görür. Hətta illərdir ki, işğal olunmuş torpaqlarımızda məskunlaşdırılan ermənilər də o torpaqları tərk edir. Bu torpaqların öz sahibinin nəhayət ki, gəlib çıxıdığını anlayan ermənilər evləri tərk edərkən bütün əşyalarını da özləri ilə aparırlar. Bu isə illərdir ki, öz ata-baba ocaqlarından didərgin düşən məcburi köçkünlərin evlərinə geri dönməsinə az qaldığının sübutudur. İşğaldan azad olunmuş torpaqlarımızın sayı artdıqca evinə geri dönməyin sevincini yaşayanların sayı da artır.

Cəbrayıl rayonunun Balyand kəndinin işğaldan azad olunması düz 27 ildir ki, bu torpaqdan didərgin düşənlərin sevincinə səbəb olub. Onlardan biri də, doğulduğu kəndi 15 yaşında tərk edən Balyand kənd sakini Əli Əliyevdir. Yeniyetmə dövründə doğma torpağından didərgin düşən Əli indi 42 yaşında olsa da o illərin yaddaşında əbədi iz buraxdığını söyləyir. Əli bildirir ki, bütün uşaqlıq xatirələri Balyanda qalıb: “15 yaşım vardı. Onda 9-cu sinifdə oxuyurdum. Bu yaş insan həyatının elə bir dövrüdür ki, yaşadığı hər çətin an ona travma vura bilər. Bu yaşda doğulduğun torpaqdan, yaşadığın evdən ayrı düşmək doğurdan da çox ağır bir travma idi. Əlbəttə ki, adaptasiya çox çətin oldu. Yeni topluma düşmək, bunu yeniyetmələik kimi ən çətin dövrdə yaşamaq asan deyildi. Mən çox əziyyət çəkdim. Torpaqsız, vətənsiz qalmaq sözlə ifadə olunacaq bir duyğu deyil. Bu hissi yaşamayanlar bilməz. Biz anamın zəhməti sayəsində məcburi köçkün olaola böyüdük, ali təhsil aldıq. Amma sağ olsun ki, dövlətimiz də dəstəyini əsirgəmədi. Həmin vaxt ödəniş tələb olunsaydı mən təhsil ala bilməzdim, sözsüz ki, imtina edəcəkdim. Bu mənada dövlət bizə çox böyük dəstək göstərdi. Amma insan yaşlandıqca öz yurd-yuvasına daha çox bağlanır. Dünyaya göz açdığı torpağın havasını udmaq, suyundan içmək üçün burnunun ucu göynəyir. Mən həmişə uşaqlığımın əsirlikdə qaldığını söyləyirdim. Çünki, mənim uşaqlığımın ən gözəl günləri Balyandla bağlı idi. Mən o torpaqda iməkləyib yeriməyə başlamışam. Balyandın dağlarında oynamışam,oranın hər qarışı mənə doğmadır. İnsanın uşaqlıq xatirəsi heç zaman itmir. Bu elə bir yaddaşdır ki, əbədi olaraq cana-qana hopur. İndi də gözüyumulu gedib Balyandda evimizi taparam”.

Ə.Əliyevin sözlərinə görə, Balyandda iki mərtəbəli evləri olub. Oradan didərgin düşəndən sonra anasının evlərinin salamat qalmasına inansa da, Əli böyüdükdən sonra Sputnikdən kəndlərinin görüntüsünə baxaraq evlərinin dağıdıldığını görüb: “Əlbəttə ki, anam bu gün də buna inanmır. Amma mən uçulmuş evimizə də sahib çıxmağa razıyam. Təki bir qara daşı qalsın, amma torpağımıza qayıdaq”.



Hazırda Abşeron Gənclər Şəhərciyindəki çoxmərtəbəli binada yaşayan həmsöhbətimiz bildirir ki,dövlətin verdiyi bu binada yaşasaq da üreyimiz hər zaman kəndimizdəki evimizdə olub: “Balyanda köçən gün biz bu mənzilin açarlarını təhvil verəcəyik. Oradan isə ev istəmirik. Evi özümüz tikəcəyik. Təki biz o torpağa qayıdaq”.

Əli deyir ki, dövlət qulluqçusu olsa da hazırda ürəyinin cəbhədə döyüşən ordumuzun yanında olduğunu söyləyir: “Mən də orduya könüllü yazılmışam. Bir neçə dəfə müraciət etsəm də, məni aparmayıblar. Kaş o torpaqların azad olunmasında mənim də kiçik xidmətim olaydı. Axı mən 27 il bu arzu ilə yaşamışam. Həmişə deyirdim ki, torpağımızı, doğma Cəbrayılı, Balyandı işğaldan azad edəcəm”.

Balyandda atasının 27 ildir əsir qaldığını söyləyən Əli Əliyev kəndlərinə gedən kimi ilk olaraq onun məzarını ziyarət edəcəyini söyləyir: “Mənim babam da əsir düşüb. Atamı isə ermənilər öldürüb. Onun ruhu hər zaman bizi çağırıb. O torpaqları azad etməklə biz doğmalarımızın əsir düşmüş ruhlarını da azad etmiş olduq”.

Qeyd edək ki, Azərbaycan Ordusu düşmənə layiqli cavab verir, ön xətdə olan hərbi hissələrimiz , raket və artileriya bölmələri, o cümlədən aviasiya, zirehli texnika və digər qoşun növlərinin birgə fəaliyyəti nəticəsində düşmənin silahlı qüvvələrinin atəş nöqtələri susdurulur və aktiv döyüş əməliyyatlarının qarşısı alınır. Belə bir şəraitdə xalqımız bir yumruq kimi Ali Baş komandanın ətrafında sıx birləşərək düşmənə, o cümlədən beynəlxalq aləmə öz milli birliyimizi nümayiş etdirir. Haqq yolunda savaş aparan əsgərlərimizin döyüş ruhu, qələbə əzmi, həm cəmiyyətimizin daxilində özünə inam hissini, həm də Silahlı Qüvvələrimizə xalqımızın etimadını daha da artırır. Ordumuzun gücünü görən işğalçı ölkə mülki əhalini hədəf alır. Döyüş başlayandan bu günə kimi ermənilər Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəni iki dəfə atəşə tutublar. İşğalçı ölkə iki həftə ərzində Gəncəyə müxtəlif növ raketlər atıb. Təəssüf ki, təcavüzkar ölkə raketləri əhalinin sıx olduğu məkanlara atır. Ermənilər oktyabrın 11-də Gəncə şəhərinin mülki əhalisinin sıx yaşadığı məntəqələri raket atəşinə tutub. Gəncə şəhərinə atılmış raketlərdən biri mülki şəxslərin yaşadığı yaşayış binasına düşüb. 4-ü qadın olmaqla 9 nəfər həlak olub, 6-sı azyaşlı uşaq olmaqla 34 nəfərdən çox insan müxtəlif dərəcədə yaralanıb. Hətta dünən Ordubad da hədəfə alınıb. Bu isə Ermənistanın terrorçu dövlət olduğunu, regional təhlükəsizlik üçün ciddi problem yaratdığını təsdiqləyir. Sözsüz ki, onların gözləntisi budur ki, Azərbaycan da mülki şəxslərin yaşadığı yerlərə hücum etsin. Ancaq Azərbaycan beynəlxalq hüquqa hörmət edərək bu addımı atmır. Ermənistanın məqsədi başqa ölkələri də müharibəyə cəlb etmək və bölgədə gərginlik yaratmaqdır.Bu məsələdə ən təəssüfedici məqam isə dünyanın, beynəlxalq təşkilatların Ermənistanın bu vandalizminə göz yumması, dinc əhaliyə qarşı törədilən vəhşiliklərin qınanılmamasıdır. Baxmayaraq ki, Ermənistanın dövlət səviyyəsində sülh və insanlıq əleyhinə ağır cinayətlər törətməsi göz önündədir. Bununla Ermənistanın beynəlxalq humanitar hüququn, 1949-cu il Cenevrə Konvensiyasının tələblərinin həyasızcasına pozmalarını bir daha sübut edir. Erməni müşavirin bəyanatı Ermənistan dövlətinin iç üzünü - mahiyyətini bir daha ifşa edir. Onların məqsədi mülki şəxsləri, onların mülklərini, məktəbləri, xəstəxanaları və sair mülki obyektləri barbarcasına məhv etməklə mülki əhali arasında təşviş və qorxu yaratmaqdır. Bu faktlar isə heç bir sivil qaydalara uyğun gələ bilməz. Azərbaycan və Ermənistan 1991-ci ildən keçmiş Dağlıq Qarabağ muxtar vilayəti və onun ətrafındakı yeddi rayonu əhatə edən ərazilərə görə 30 ilə yaxındır ki, müharibə vəziyyətindədir.1993-cü ildə BMT Təhlükəsizlik Şurası Azərbaycanın ərazi bütövlüyünü tanıyan dörd qətnamə qəbul edib, amma onlar indiyə kimi icra olunmayıb.

Tərəflər 1994-cü ildə atəşkəs imzalasa da, indiyə kimi təmas xəttində, hətta iki ölkə sərhəddində kiçik toqquşmalar baş verib.Atəşkəsdən sonra cəbhədə baş verən ilk iri miqyaslı toqquşma 2016-cı ilin aprelində olub və dörd gün davam edib. İndi gedən döyüşlər münaqişənin tarixində 1994-cü ildəki atəşkəsdən sonra baş vermiş ən genişmiqyaslı döyüşlər hesab edilir. Döyüşlər Sentyabrın 27-dən bəri davam edir. Azərbaycan işğal edilmiş bəzi ərazilərini azad etdiyini açıqlayır.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə əsasında. Səhifəni hazırladı: Mələk Eyvazlı

# Bakıda qardaşdan bacısına qarşı dəhşətli əməl: "Dənizdəyəm..." – Təfərrüat

***Bakıda bacısını öldürməyə cəhddə ittiham olunan 1994-cü il təvəllüdlü Baba Əliyevin məhkəməsi başa çatıb.***

Teleqraf.com-un xəbərinə görə, Baba Əliyev 24 iyul 2019-cu il tarixdə Yeni Suraxanı qəsəbəsindəki Göl küçəsində nömrəsiz fərdi evdə qalan bacısı Səbinə Əliyevanın axşam vaxtı təkbaşına dənizə getməsinə etiraz edib.

Səbinə Əliyeva ona cavab qaytarıb, bundan sonra da dənizə gedəcəyini bildirib. Əsəbiləşən Baba Əliyeva bacısını öldürmək qərarına gəlib. Həmin gün saat 20 radələrində evin həyətindəki şkafın üzərindən bıçağı götürüb və Səbinə Əliyevaya çoxsaylı bıçaq xəsarətləri yetirib.

Vaxtında tibbi yardım göstərildiyi üçün Səbinə Əliyevanın həyatını xilas etmək mümkün olub. Baba Əliyev isə həbs olunub.

İstintaq orqanı Baba Əliyev barəsində Cinayət Məcəlləsinin 29,120.2.2-ci (xuliqanlıq niyyəti ilə adam öldürməyə cəhd) və 29,120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla adam öldürməyə cəhd) maddələri ilə ittiham elan edib.

Cinayət işi üzrə təqsirləndirilən şəxs qismində ifadə verən Baba Əliyev elan olunmuş ittiham üzrə özünü qismən təqsirli bilib.

### "Mənimlə acı danışaraq telefonu söndürdü"

Baba Əliyevin ifadəsinə görə, valideynləri və iki qardaşı ilə birlikdə yaşayıb: "Bacım Samirə beş ildir ailə qurub, bir övladı var. Samirənin əri ailəsi ilə maraqlanmadığından həmişə ona kömək eləmişəm. Məndən başqa Samirə ilə nə atam, nə də qardaşlarım maraqlanıblar. Ümumiyyətlə ailə üzvlərimin hər birinə qarşı daim qayğı il yanaşmışam".

Təqsirləndirilən şəxs qeyd edib ki, 20 iyul 2019-cu il tarixdə Samirənin qızı Fatimənin ad günü olduğundan işdən sonra bazarlıq edib və onlara gedib: "Həmin vaxt o biri bacım Səbinəni Samirəgildə görmədim. Öz telefonum işləmədiyindən Samirənin mobil telefonundan Səbinəyə zəng etdim. Ondan harada olduğu ilə maraqlandım.

Səbinə evə getdiyini deyəndə ona "gecə vaxtı evə necə gedəcəksən, gəl Samirəgilə, mən sabah səni evinizə yola salaram", - deyə bildirdim. Səbinə bu dəfə 101 nömrəli məktəbin yanında olduğunu söylədi. Mən məktəbin yanına gedəndə Səbinəni orada görmədim. Yenidən Samirəgilə qayıdaraq Səbinəyə zəng vurdum. Ona "niyə mənə yalan deyirsən, mən məktəbin yanına gəldim, sən orada yox idin", - deyə irad bildirdim.

Səbinə mənimlə acı danışaraq telefonu söndürdü. Dəfələrlə zəng etməyimə baxmayaraq telefonu açmadı".

### "Biz sən söydüyün adamlarıq"

Baba Əliyevin ifadəsinə görə, az sonra yenidən Səbinəyə zəng vurub: "Səbinə telefonda "məni dəniz qırağına aparıb, döyərək orada atdılar", - deyə bildirdi. Telefonda Səbinəni dənizə aparanları söydüm. Həmin vaxt Səbinə həmin adamların avtomobilindəymiş. Bir qədər sonra mənə zəng gəldi. Telefona cavab verən zaman zəng edən şəxs "bizi niyə söymüsən", - deyə soruşdu. Zəng edənin kim olduğunu soruşdum, bildirdi ki, sən söydüyün adamlarıq.

Söhbəti aydınlaşdırmaq üçün məni görüşə çağırdılar. Onları əvvəllər tanımırdım. Görüşəcəyimiz yerə çatanda həmin adamlar avtomobildə idilər, onların təklifi ilə söhbəti parkda həll etmək üçün avtomobilə əyləşdik. Parkda Səbinə və Səbinənin oğlu Muradın orada olduqlarını gördüm.

Səbinədən məktəbin yanında olduğu barədə yalan danışmasının səbəbini soruşdum. Bu zaman söhbəti həll edəcəyimiz oğlanlar yaxınlaşdıqlarından Səbinədən cavab almadan onu evə göndərdim. Sonra oğlanlardan Səbinəni dəniz qırağına aparıb və döymələrinin səbəbini soruşdum.

Onlar cavabında "Səbinə bizə dedi ki, məni "kruq"dan parka aparın, biz də Səbinəni parka gətirdik, onu dəniz qırağına apararaq döyməmişik", - deyə bildirdilər. Bununla məsələni mübahisə və dava-dalaş olmadan öz aramızda həll etdik".

### "Bıçağı parka atdım"

Təqsirləndirilən şəxsin ifadəsinə görə, üzərində özünü müdafiə etmək üçün bıçaq olsa da, ondan heç kimə, o cümlədən Səbinəyə qarşı istifadə etməyib: "Səbinə parkda mənə əsəbiləşdiyi üçün polisə şikayət etdiyi və oraya polis gəldiyindən bıçağı parkda atdım. Səbinənin parkdan çıxandan sonra polis avtomobilinə minib-minmədiyini görməmişəm".

Baba Əliyev deyib ki, iyulun 24-də Səbinədən polisə şikayət etməsinin səbəbini soruşmaq üçün Samirəgilə gedib: "Bu vaxt Səbinənin harasa getməyə hazırlaşdığını gördüm. Ondan hara getməsi ilə maraqlandım, uşaqlarla dənizə getmək istədiyini deyəndə etiraz etdim. Səbinə də əri Mürvətlə dalaşdığından bütün əsəbini mənim üstümə tökdü. Hər zaman Səbinəyə kömək etdiyimdən sonuncunun qadına layiq olmayan hərəkətlər etməsi mənə pis təsir etdiyi, həmçinin mənim ünvanıma nalayiq ifadələr işlətdiyi üçün əsəbiləşdim. Evin həyətindəki şkafdan götürdüyüm bıçaqla onu vurdum. Səbinəni bıçaqla vurarkən otaqda ikimizdən başqa heç kim olmayıb. Səbinəni bıçaqlayıb otaqdan çıxanda o, ayaq üstə idi, otaqdan çıxandan sonra Samirəyə Səbinəni bıçaqla vurduğumu dedim. Təcili tibbi yardım çağırmağı xahiş etdim.

Səbinəni öldürmək niyyətim olmayıb. Əgər belə niyyətim olsaydı, hadisə baş verən an bunu həyata keçirməyimə mane olan kimsə yox idi, daha bir neçə bıçaq zərbəsi vurmaqla Səbinəni öldürə bilərdim.

Səbinənin Əfruzla dənizə getməsinə dair məlumatım olmayıb. Bu barədə ilk dəfə məhkəmə istintaqı zamanı bilmişəm.

Səbinəni bıçaqla vurandan sonra evimizə getmişəm, valideynlərimə bu barədə məlumat vermişəm. Atam dedi ki, gözlə, qardaşın gəlib səni polisə aparsın. Səbinənin elə də ağır xəsarət almaması barədə ilk məlumatı qardaşım mənə verdi. Səbinə də daxil olmaqla ailə üzvlərimin hər biri ilə aramızda mehriban münasibət olub".

### "Mən parka gedəndə gecə saat 2 idi"

Cinayət işi üzrə zərərçəkmiş şəxs qismində ifadə verən Səbinə Əliyeva bildirib ki, 2012-ci ildən Mürvətlə qeyri-rəsmi ər-arvad kimi yaşayıb: "2014-cü ildə oğlum Murad dünyaya gəlib. Ər-arvad kimi münasibətlərimiz normal olub. Özüm işləmirəm, Mürvət isə evlərdə təmir işləri ilə məşğul olub.

20 iyul 2020-ci il tarixdə bacım Samirənin qızı Fatimənin ad günü münasibətilə onlara getdim. Gün ərzində bacıma kömək etdim. Yeznəm Taleh İsmayılov ad gününə iş yoldaşlarını da dəvət etdiyindən oğlum Muradı da götürərək parka yollandım. Parka gedəndə gecə saat 2 radələri idi. Qardaşım Baba parka gəldi və gecə vaxtı parkda nə etdiyimi soruşaraq evə getməyimi tələb etdi.

Bu zaman mübahisə etdik, polisə zəng vurdum. Bundan bir neçə gün sonra ərim Mürvətlə aramızda ailə söz-söhbəti üstündə mübahisə olduğuna görə ondan küsdüm və oğlum Muradla birlikdə Samirənin evinə getdim".

### "Dənizə getməyimə etiraz etdi"

Zərərçəkmiş deyib ki, iyulun 23-də Babanın dostu zəng edib: "Həmin şəxs Samirə ilə mənə dənizə getməyi təklif etdi. Yalnız Samirə ilə dənizə getməyə razılaşdım. Hazırlaşanda Baba dənizə getməyimə etiraz etdi, uşağımı da götürərək evimə qayıtmağımı istədi. Bu səbəbdən həyətdə mübahisə etdik. Sonra evə keçdik, divanın qarşısında oğlumun paltarlarını səliqəyə salmağa başladım.



Bu vaxt Baba otağa girdi və divanda oturdu. Mən isə işimə davam etdim. Baba mənə yenə dedi ki, dənizə getməyəcəksən, oğlunu da götür, evinə qayıt. Buna görə aramızda yenidən mübahisə yarandı. Babaya cavab qaytardım və bir də işlərimə qarışmamasını tələb etdim. Bu sözlərindən sonra Baba divandan qalxdı və çölə çıxdı. Bir neçə saniyədən sonra içəri girdi, əlindəki bıçaqla mənə üç-dörd zərbə vurdu.

Babanın bıçağı haradan götürdüyünü görməmişəm. Məni bıçaqla vuranda otaqda ikimizdən başqa heç kim olmayıb. Həmin vaxt Samirə uşaqların paltarlarını hazırlayırdı, uşaqlar isə həyətdə oynayırdılar. Buna görə də Babanın məni bıçaqla vurmasını heç kim görməyib".

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Baba Əliyev 11 il 3 ay müddətinə azadlıqdan məhrum edilib.

## Sumqayıtda silahlı insident: səhvən 1 nəfər güllələndi

***Oktyabrın 15-də, saat 09 radələrində Sumqayıt şəhəri, İnşaatçılar qəsəbəsi ərazisində 1988-ci il təvəllüdlü Natiq Çələbiyevin odlu silahdan açılmış atəş nəticəsində çoxsaylı xəsarətlər alması barədə şəhər prokurorluğuna məlumat daxil olub.***

Sumqayıt şəhər prokurorluğundan "Qafqazinfo"ya verilən məlumata görə, dərhal prokurorluq və polis əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilmiş, digər prosessual hərəkətlər yerinə yetirilib.

Aparılmış araşdırmalarla Sumqayıt şəhər sakini Loğman Ağayevin şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı tanışı Yalçın Səlimovu öldürmək məqsədilə ov tüfəngindən atəş açmış, lakin sonuncunun qaçması səbəbindən həmin vaxt orada olan Natiq Çələbiyevin atəş nəticəsində çoxsaylı xəsarətlər almasına əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Sumqayıt şəhər prokurorluğunda Cinayət Məcəlləsinin 29, 120.1-ci (qəsdən adam öldürməyə cəhd) maddəsi ilə cinayət işi başlanmış, müvafiq ekspertizalar təyin edilib. Loğman Ağayev şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunub. Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

# Pandemiya dövründə kişi geyim bazarının vəziyyəti

***Təxminən bir əsrə yaxındır ki, Azərbaycanda kişilər milli geyimlərimizdən yox, Avropa geyim tərzindən istifadə edirlər.***

Pencək və şalvardan ibarət olan klassik kostyumların modelləri dəyişsə də, ümumi məzmun dəyişmir: Azərbaycan kişisi tutduğu vəzifəsindən, maddi vəziyyətindən asılı olmayaraq bu geyimi seçir.

Nisbətən gənc nəsil idman üslublu sadə geyimlərə üstünlük versə də, onların da qarderobunda mütləq ki, ən azı bir dəst klassik pencəkli geyim var.

Gənc nəsil adətən bu geyimi əlamətdar günlərdə - məzun günü, toy, rəsmi qəbulda geyinsə də, yaşlı nəsil üçün pencəkli kostyumlar az qala gündəlik iş geyimidir.

Bəs bu gün kişi kostymları istehsal edən bazarda vəziyyət necədir? Onlar daxili bazara cavab verə bilirlərmi? Yoxsa ixrac edilən məhsullar onların işinə təsir edib?



Fins.az-ın araşdırmasına görə, Azərbaycanın ən məşhur markalarından olan "Emiland" şirkətinin mececeri deyir ki, pandemiya onların işinə şübhəsiz təsir edir. Çünki onların məhsullarını əldə edənlərin çoxu bu geyimləri toy-nişan üçün alırlar.

Ölkədə mart ayından toylar olmadığı üçün bu özünü bazarda göstərib.

Həmçinin, ötən təhsil ilində məzun gününün olmaması da bazara təsir edən amillərdən olub.

Nisbətən daha ucuz kişi geyimləri istehsal edən "Mirzəyev tekstil" də satışın az olmasından gileylidir.

Şirkətin nümayəndəsi deyir ki, pandemiya dövründə mağazaların bağlı olması müştərilərin xaricdən onlayn sifariş verməsinə gətirib çıxarıb.

Sahibkar Elvin Sadıqov deyir ki, xaricdən, xüsusilə də Türkiyə və Çindən ucuz qiymətə alınan geyimlər rəqabətdə yerli məhsulları üstələməyi bacarır. Lakin E.Sadıqov bildirib ki, gənclər xaricdən geyim almağa üstünlük versələr də, hələ də yaşlı nəsil yerli məhsula üstünlük verir.

Çünki daim dəyişən dəb yaşlı nəsli heç də hər zaman qane etmir və onlar ənənəvi stil üçün yerli istehsalçılara üz tuturlar.

# Ləğv olunmuş 4 bankın əmanətçilərinə 543,6 milyon manat kompensasiya ödənilib

***Oktyabrın 15-nə Əmanətlərin Sığortalanması Fondu (ADIF) tərəfindən bağlanmış "AG Bank", "Amrah Bank", "NBC Bank" və "Ata Bank" üzrə 23 min 198 əmanətçiyə 543,65 milyon manat kompensasiya ödənişi həyata keçirilib.***

"Unikal" Əmanətlərin Sığortalanması Fonduna istinadla xəbər verir ki, bu il iyunun 16-dan oktyabrın 15-dək "Azərbaycan Beynəlxalq Bankı" tərəfindən ləğv prosesində olan "AG Bank" və "NBC Bank"ın əmanətçilərinə 194,93 milyon manatdan çox kompensasiya ödənilib. "AG Bank" üzrə 4268 əmanətçiyə 80,47 milyon manat, "NBC Bank" üzrə isə 4003 əmanətçiyə 114,45 milyon manatdan çox kompensasiya ödənilib. İyunun 1-dən oktyabrın 15-dək "Kapital Bank" tərəfindən "Amrah Bank" və "Ata Bank"ın əmanətçilərinə 348,71 milyon manatdan çox kompensasiya ödənişi həyata keçirilib. Hesabat dövründə "Amrah Bank" üzrə 5627 əmanətçiyə ödənilən kompensasiyanın məbləği 133,34 milyon manat, "Ata Bank" üzrə 9300 əmanətçiyə isə 215,37 milyon manat təşkil edib.



Fond tərəfindən son bağlanmış banklar üzrə əmanətçilərin kompensasiyalarının təmin edilməsi artıq yekunlaşmaq üzrədir. Tam ödənilmə prosesi qısa zaman içərisində qanunla müəyyən olunmuş qaydada yekunlaşdırılacaq. Mərkəzi Bank tərəfindən kapitallarını tam itirdiklərinə, kreditorları qarşısında öhdəliklərini yerinə yetirə bilmədiklərinə görə sığorta hadisəsi baş vermiş "Ata Bank" ASC, "Amrah Bank" ASC, "NBC Bank"ASC və "AG Bank"ASC-nin lisenziyaları ləğv edilib, Bakı Apelyasiya Məhkəməsinin İnzibati Kollegiyasının 2020-ci il 28 aprel və 14 may tarixli qərarlarına əsasən sözügedən banklar müflis elan olunub və Əmanətlərin Sığortalanması Fondu ləğvedici təyin edilib. Müflis olunmuş banklar üzrə öhdəliklərin reyestri fonda təqdim olunub və ADIF tərəfindən qorunan əmanətlər üzrə kompensasiyaların ödənilməsi prosesinə qısa zaman ərzində başlanılıb. Fondun Himayəçilik Şurasının qərarına əsasən, qorunan əmanətlər üzrə kompensasiyaların verilməsi üçün agent bank qismində "Ata Bank" ASC və "Amrah Bank" ASC üzrə "Kapital Bank" ASC, "AG Bank" ASC və "NBC Bank" ASC üzrə isə "Azərbaycan Beynəlxalq Bankı" ASC seçilib. Əmanətlərin Sığortalanması Fondu iyunun 1-dən "Ata Bank" ASC və "Amrah Bank" ASC-də, iyunun 16-dan isə "AG Bank" ASC və "NBC Bank" ASC-də əmanətlər üzrə kompensasiyaların ödənilməsinə başlayıb.

Azərbaycan Mərkəzi Bankı və Əmanətlərin Sığortalanması Fondunun birgə fəaliyyəti əsasında fondun hazırlanan yeni strateji modelinin bu ilin sonunadək formalaşdırılması nəzərdə tutulub. Qeyd edək ki, yeni strateji modelin hazırlanması ölkə iqtisadiyyatına, bank sektoruna və əmanətçilərə öz yüksək töhfəsini verməsi gözlənilir. Bağlanmış banklarda problemlərlə üzləşmiş əmanətçilərin nəzərinə çatdırılır ki, sözügedən məsələ ilə əlaqədar vəsaitlərin qanunvericiliyə müvafiq qaydada və qısa müddətdə qaytarılmasının təmin edilməsi ilə bağlı Əmanətlərin Sığortalanması Fondu tərəfindən bütün lazımi tədbirlər görülür.




# 204 obyektdə sanitariya-gigiyena tələbləri pozulub

***Koronavirusa qarşı mübarizə tədbirləri gücləndirilməlidir.***

İqtisadiyyat Nazirliyindən "Unikal"a bildirilib ki, bu günlər rəşadətli Azərbaycan Ordusu torpaqlarımızı düşmən işğalından azad edir, əsl qəhrəmanlıq tarixi yazır. Belə bir şəraitdə bütün vətəndaşlarımız daha məsuliyyətli olmalı, "gözəgörünməz düşmən" olan koronavirus təhlükəsini də diqqətdən qaçırmamalıdır. Son günlərdə virusa yoluxanların sayının kəskin surətdə artması bu təhlükənin nə qədər ciddi olduğunu deməyə əsas verir. Bu gün hər birimiz əsgərik. Həm torpaqlarımızın azadlığı uğrunda aparılan döyüşlərdə, həm də arxa cəbhədə. Odur ki, ön cəbhədə olduğu kimi, koronavirusa qarşı mübarizədə də bir olmalı, birlikdə mübarizə aparmalıyıq. Yolu isə çox sadədir - müəyyən olunmuş qayda və tələblərə əməl etmək.

Təəssüf ki, bəzi vətəndaşlar zəruri qayda və tələblərə əməl etmir, sahibkarlıq subyektləri isə infeksiyanın yayılmasının qarşısının alınması tədbirlərinə nəzarəti azaldırlar.

İqtisadiyyat Nazirliyinin sahibkarlıq subyektlərində pandemiya dövrünün zəruri qayda və tələblərinə əməl olunmasına nəzarət məqsədilə oktyabrın 12-14-də keçirilən monitorinqlər zamanı Xətai rayonunda "Ucuzluq univermaq"da, "Gəncə şirniyyat dükanı"nda, "Supertoys", "Osmanlı makina-2" mağazalarında, Nəsimi rayonunda "Jojo" qadın geyimləri mağazası"nda, "Sünbül market"də, "CFF ayaqqabı mağazası"nda, "İstanbul mall"da, "Babetty baby" mağazasında, Binəqədi rayonunda "Nar market"də, "Səfastore market"də, "Lala butik" mağazasında, "Bolmart market"də, "Azərmotors mağazası"nda, "Elit market"də, "Rahat market"də "Oba market"də, Səbail rayonunda "Old city market"də, "Nömrə 1 market"də, "Entree restoranı"nda, "E-dental klinika"da, Nərimanov rayonunda "Ekonom market"də, "Kənan inşaat" mağazasında, "Nəqşicahan parket", "Nəriman inşaat", "Cake&bake" pərakəndə ticarət obyektlərində, Yasamal rayonunda "Roseland gül mağazası"nda, "Yadigar market"də, Sabunçu rayonunda Elminə Kazımovaya, Elman Nəbiyevə məxsus mağazalarda, Nizami rayonunda "Erres paltar mağazası"nda, "Zövq qarışıq mallar mağazası"nda, "Ağ çiçəyim mağazası"nda, "Kenquru uşaq geyimləri" pərakəndə ticarət obyektində, Qaradağ rayonunda "Bonus market"də, "Kingsmart super market"də, "Dokta" MMC-yə məxsus "Aptek"də, Xəzər rayonunda "Vaqus geyim" mağazasında, Suraxanı rayonunda "Al market"də, Zahir Abbasova məxsus mağazada, Sumqayıt şəhərində "Hiper ərzaq mağazası"nda, Qamiddin Hacəliyevə, Elnur Abduləzimova, Samir Qəhrəmanova məxsus mağazalarda, "Əziz-boya" MMC-yə məxsus "Boya istehsalı sexi"ndə, Şəki şəhərində "Sahibkar mağaza"da, "Elvin qızıl mağazası"nda, "İslam market"də, Abşeron rayonunda "Abşeron market"də, "Şok market"də, "AS" market"də, Natiq Şəfiyevə məxsus pərakəndə ticarət obyektində, Aydın Cavadova məxsus quşçuluq fermasında, Cəlilabad rayonunda Davud Kərimova məxsus tikinti materialları mağazasında, Şəmkir rayonunda "Sənaye malları mağazası"nda, Bəxtiyar Alırzayevə, Rüstəm Qasımova məxsus pərakəndə ticarət obyektlərində, Sabirabad rayonunda Rauf Mirzəliyevə, Məmmədbağır Bağırova, Məcnun Vəliyevə, Nazim İbrahimova məxsus mağazalarda, Quba rayonunda Rüstəm Qasımova, Mövlud Məmmədova, Mübariz Aslanova məxsus mağazalarda, ümumilikdə 204 obyektdə epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena tələblərinin pozulduğu müəyyən edilib.

Nöqsanlara yol vermiş sahibkarlıq subyektləri barədə İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görülüb.




## Dövlət qurumlarında işçilərin say həddi 30 faizədək azaldılır

***Nazirlər Kabinetinin müvafiq tapşırığına əsasən, dövlət qurumlarında çalışan işçilərin say həddi 30 faizədək azaldılaraq digər əməkdaşlar məsafədən iş rejiminə keçirilir.***

"Unikal"ın məlumatına görə, bu barədə Operativ Qərargah məlumat yayıb.

Qeyd edilir ki, özəl sektorda və digər sahələrdə fəaliyyət göstərən qurum və təşkilatlara eyni qaydanın tətbiq edilməsi tövsiyə olunur.

## ANAMA mütəxəssisləri cəbhəboyu ərazilərdə əməliyyat-axtarışları davam etdirirlər

***Oktyabrın 15-də Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Ağdam, Ağcabədi, Füzuli, Goranboy və Tərtər rayonları ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin "102" Zəng Xidməti Mərkəzindən 27 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzindən 1 müraciət daxil olub.***

ANAMA-dan "Unikal"a bildirilib ki, daxil olmuş 28 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağdam rayonunun Baharlı, Çəmənli kəndləri və 1-ci Baharlı qəsəbəsi, Ağcabədi rayonunun Arazbar, Bala Kəhrizli, Taynaq kəndləri və Hindarx qəsəbəsi, Füzuli rayonunun Alxanlı, Şükürbəyli və Əhmədalılar kəndləri, Goranboy rayonunun Tapqaraqoyunlu, Qaraçinar, Qızılhacılı, Balakürd, Meşəli kəndləri, Tərtər rayonunun Seydimli, Buruc kəndləri və C.Məmmədquluzadə, N.Nərimanov küçələri ərazisində Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 14 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 1 ədəd 100 mm-lik top mərmisi (OF-412), 1 ədəd tank əleyhinə idarə olunan raketin arxa motor hissəsi, 1 ədəd bombacıq və 16 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssisləri tərəfindən 1805 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

# Kolleclərin boş yerlərinə qəbul elan edildi

***2020/2021-ci tədris ili üçün Azərbaycan Respublikasının tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan plan yerlərinə oktyabrın 16-dan 19-dək ixtisas seçimi aparılacaq.***



Bu barədə "Unikal"a Dövlət İmtahan Mərkəzindən məlumat verilib. Orta ixtisas təhsili müəssisələrinin boş qalan yerlərinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçiminə qəbul imtahanında topladıqları ümumi balı 50-dən, Azərbaycan dili (rus dili) və riyaziyyat fənlərinin hər biri üzrə balı 10-dan az olmayan (xarici dil fənni üzrə bal məhdudiyyəti tətbiq edilmir) abituriyentlər buraxılır. Tam orta təhsil səviyyəsini Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrində cari ildə bitirən abituriyentlər müsabiqədə buraxılış imtahanında (11-ci siniflər üzrə) əldə etdikləri nəticələr əsasında iştirak edirlər.

İxtisas seçimi oktyabrın 16-dan 19-dək internet vasitəsilə aparılır. İxtisas seçimi mərhələsində abituriyentlər qəbul olmaq istədikləri ixtisasları seçib onların kodlarını https://eservices.dim.gov.az/erizebak/ixtisas3/ internet ünvanında yerləşən "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nə daxil edib təsdiq etməlidirlər.

İxtisas seçmək hüququ olan abituriyent orta ixtisas təhsili müəssisələrinin təhsili dövlət büdcəsinin vəsaiti hesabına və ödənişli əsaslarla olan 20-dək ixtisas kodunu qeyd edə bilər. İxtisas kodlarının ardıcıllığını abituriyent özü müəyyənləşdirir.

Xüsusi qabiliyyət tələb edən ixtisasların müsabiqəsinə ümumi balı 40-dan (fənlər üzrə bal məhdudiyyəti tətbiq edilmir) az olmayan abituriyentlər buraxılırlar. "Xoreoqrafiya sənəti" və "Rəqs müəllimliyi" ixtisaslarının müsabiqəsində isə ümumi balı 30-dan (fənlər üzrə bal məhdudiyyəti tətbiq edilmir) az olmayan abituriyentlər iştirak edə bilərlər. Abituriyentlərə xüsusi qabiliyyət tələb edən ixtisaslarla yanaşı, digər ixtisasları da seçmək imkanı verilir.

Kolleclərin boş qalan plan yerlərinin siyahısı "Abituriyent" jurnalının 11-ci buraxılışında dərc olunub.

**Jurnalı aşağıdakı ünvanlarda yerləşən "Abituriyent" satış köşklərindən, həmçinin kitab mağazalarından almaq olar:**

Bakı şəhəri, Nəsimi rayonu, A.Salamzadə küçəsi, 28.

Bakı şəhəri, Yasamal rayonu, Mikayıl Müşfiq küçəsi, 1M.

Jurnalın elektron versiyasını da (pdf formatında) günün ikinci yarısından etibarən DİM saytının "Elektron xidmətlər" bölməsində "DİM nəşrlərinin elektron versiyalarının onlayn satışı" xidməti vasitəsilə ödəniş etməklə əldə edə bilərsiniz (Xidmətə keçid: http://eservices.dim.gov.az/ejurnal/).

# Qərbi Kaspi Universitetində multidisiplinar beynəlxalq konfrans keçiriləcək

***Ponto-Kaspi (Xəzər, Qaradəniz və Azov dənizi) və Qafqaz regionu böyük bir çoğrafi ərazini əhatə edir. Bu tarixi bölgədə olan həm su hövzələri və həm də quru ərazilərinin özünəməxsus zəngin flora və faunası digər bölgələrdən fərqlənir. Həmçinin bu bölgələrin dağları, tarixi, etnoqrafiyası, arxelogiyası və burada yaşayan xalqların fərqli mədəniyyələtri, təbii ehtiyatları turizmin və iqtisadiyyatın inkişafında rolu olduqca böyükdür.***

"Unikal" xəbər verir ki, noyabrın 27-28-də Qərbi Kaspi Universitetində təşkil olunacaq beynəlxalq konfransda Pontokaspi və Qafqaz Bölgəsi, bu ərazidə ekosistemlərin birləşməsi və izolyasiyası şəraitində yaranmış dəyişikliklər, suda və quruda yaşayan canlıların filogenezi, flora və faunanın özəllikləri, geologiya, ekologiya və coğrafiyası, Pontokaspi və Qafqaz Bölgəsində yaşayan insanların mədəniyyətləri, psixoloji və gerontoloji xüsusiyyətləri, bölgə tarixinin maraqlı məqamları və s. alimlər tərəfindən müzakirə edilməsi gözlənilir. Multidisiplinar Beynəlxalq Konfransın (onlayn) əsas məqsədi fərqli sahələrdə çalışan dünya alimlərinin diqqətini Pontokaspi və Qafqaz bölgəsinin öyrənilməsinə həsr olunmuş çoxsaylı elmi tədqiqatlara yönəltmək və bu bölgənin qlobal problemlərinin həllinə istiqamətlənmiş tədbirlər hazırlanmasına şərait yaratmaqdır.

**Konfransda aşağıda qeyd olunan mövzularda aparılan tədqiqatlara aid mühazirələrin dinlənilməsi planlaşdırılır:**

1. Qapalı su hövzəsi canlılarının filogenezi
2. Xəzər dənizi ehtiyatlarının idarə olunmasının iqtisadi aspektlərinin müasir vəziyyəti
3. Müasir dövrdə flora və faunanın genetikası, ekologiyası və coğrafiyasının oxşar və fərqli cəhətləri
4. Pontokaspi bölgəsində geoloji və coğrafi dəyişikliklərin xarakteristikası
5. Ekoloji və iqlim dəyişikliklərin dağ ekosistemlərinə təsiri
6. Hidrobioloji proseslərin riyazi-statistik modelləşdirilməsi və biofiziki tədqiqi üsulları.
7. Pontokaspi bölgəsinin tarixi, etnoqrafiyası, yerli əhalinin mədəniyyəti, psixoloji və gerontoloji xüsusiyyətləri
8. Bərpa olunan su ehtiyatlarının kənd təsərrüfatının inkişafında rolu.
9. Antropogen təsirlərin dəniz mənşəli məhsulların qıtlığının yaranmasında rolu
10. Pontokaspi bölgəsinin arxeoloji yaddaşı və tarixi abidələrinin turizmin inkişafında rolu.




Konfransda iştirak etmək istəyənlər aşağıda tələb olunan qaydada yazılmış məqaləni conference_pontokaspi@wcu.edu.az ünvanına göndərməlidir.

**Konfrans üçün qəbul olunan məqalələrə tələblər:**

1. Konfransın dili: Azərbaycan, rus,ingilis
2. İştirak forması: məruzə, qiyabi iştirak (yalnız tezis çapı ilə)
3. Məqalənin yazılış tələbatı: A4 formatlı kağızda (hər tərəfdən 2,0 sm) Times New Roman şrifti, 14 ölçü (keql), 1,0 interval, 2-4 vərəq həcmində.
4. Məqalənin adı: böyük hərflərlə ortada yazılmalı.
5. Müəllifin adı, atasının adı və soyadı, elmi dərəcəsi (varsa), işlədiyi və ya oxuduğu yer göstərilməli, əlaqə telefonu, emaili qeyd olunmalıdır.
6. Məqalənin mətni: giriş hissə, metodika, alınmış nəticələr və müzakirə, açar sözlər (5-8-dən artıq olmamaq şərtilə), qrafik təsvirlər, cədvəllər Mikrosoft Word proqramında işlənməli və mətnin arasında verilməli, ədəbiyyat siyahısı 5-12 istinad olmaqla, original dildə verilməlidir.
7. Xülasələr məqalənin dilindən əlavə 2 dildə tərtib olunmalı, məqalənin adı, açar sözləri daxil olmaqla 200-300 simvoldan artıq olmamalıdır.
8. Məqalələr (conference_pontokaspi@wcu.edu.az) və müəllif haqqında məlumat anketi bu emaildə qəbul olunur.
9. Məruzə etmək istəyənlər əlavə olaraq, öz məruzəsinin slaydını konfransdan ən azı iki həftə əvvəl təqdim etməli, məruzə - 6-10 dəqiqə müddətində nəzərdə tutulmalıdır. Göndəriləcək məqalənin faylının adı olmalıdır: iştirakçının soyadı və adı, məqalənin dili, konfransın hansı bölməsinə təqdim edilməsi (Nümunə: Əliyeva_sona_az_9)
10. Konfrans üçün heç bir ödəniş tələb olunmur, konfransın sonunda məqalələr toplusu və sertifikat hədiyyə ediləcək.
11. Məqalələr və ya konfrans barədə məlumat almaq üçün science@wcu.edu.az; conference_pontokaspi@wcu.edu.az ünvanlara və +994503804359 nömrəsinə zəng edə bilərsiniz.
12. Məqalələrin son qəbul tarixi: 5 noyabr 2020-ci il, saat 18.00.

# Həkim-infeksionist: "Xalqımızı koronavirusla mübarizədə də həmrəyliyə səsləyirəm"

***Hazırda işğal olunmuş torpaqlarımızın azad olunması uğrunda mübarizə aparan Azərbaycan Ordusu tarix yazır. Qazanılan zəfərlər, ön cəbhədən gələn xoş xəbərlər, ordumuzun hər qarış torpaq uğrunda göstərdiyi qəhrəmanlıq hər bir azərbaycanlını sevindirir. Eyni zamanda cəbhə bölgəsində baş verən hadisələr vətəndaşlara COVID-19 pandemiyasının bitmədiyini demək olar ki, unutdurub.***

Belə ki, vətəndaşlar yay aylarında mütəxəssislərin tövsiyələrinə riayət edirdilərsə, indi qaydalara əməl olunması bir növ arxa plana keçib. Həmçinin ara-sıra qeydə alınan 100-dən aşağı yoluxma sayları da vətəndaşlar arasında arxayınlıq yaradıb. Arxayınlıq xüsusi karantin rejiminin tələblərinə riayət olunması dərəcəsinin azalmasına, sıx toplaşma hallarının artımına səbəb olub. Bunun da mənfi nəticəsi son zaman yüksələn rəqəmlərdə özünü açıq-aydın göstərir.

Bunu TƏBİB-in İnfeksion xəstəliklər üzrə işçi qrupunun həkim-infeksionisti Nəzrin



Mustafayeva deyib.

O, həmçinin deyib: "Havaların soyuması ilə əlaqədar kütləvi toplanma hallarının artımı, vətəndaşların xüsusilə qapalı yerlərdə sıx toplanması, ictimai nəqliyyatdan daha çox istifadə etməsi müşahidə olunur. Sentyabrın 15-dən etibarən məktəblərin açılması təmasların sayını artırıb ki, bu da koronavirusa yoluxma riskini artırır. Payızqış mövsümündə respirator xəstəliklərin aktivləşmə dövrünü nəzərə alsaq, vətəndaşlar qaydalara etinasız yanaşmağa davam edərlərsə, yenidən yüksək yoluxma hallarının qeydə alınması və gərgin dövrlərin müşahidə olunması qaçılmazdır. Ona görə də bir daha vətəndaşları əvvəlki kimi məsuliyyətli davranış sərgiləməyə çağırıram".

Həkim-infeksionist bildirib ki, sıravi vətəndaşlar tez-tez cəbhə zonasına yollanır, hərbçilərimizə dəstək göstərirlər: "Qaydalara əməl etməyən şəxslərin əsgərlərlə təmasda olması qiymətdən, axından seçilən, sıçrayışlı, sərbəstliyə nümunə olan sənət incilə- hərbi qulluqçularımızın sağlamlığı, ümumilikdə isə ordumuz üçün təhlükə törədir. Hazırkı çətin dövrdə ön cəbhədə Qarabağ uğrunda gedən döyüşlər naminə birləşən xalqımızı koronavirusla mübarizədə də həmrəylik nümayiş etdirməyə səsləyirəm. Çünki düşmən fərqli olsa da, amalımız birdir: yalnız qələbə!".

# Kino tariximizdə ilk rəngli bədii filmin müəllifi

## Görkəmli kinorejissor Hüseyn Seyidzadənin anadan olmasından 110 il ötür

***Kino tariximizin tədqiqi, digər tərəfdən xalqın mənəvi yaddaşının yeni nəslə çatdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Görkəmli kinorejissor, Əməkdar incəsənət xadimi, Azərbaycan kino tarixində ilk rəngli bədii filmin müəllifi Hüseyn Seyidzadə daim düşünən, axtarışda olan rejissor idi. Çəkdiyi filmlərin üzərində yaradıcılıqla işləyir, hər kadra məna verməyə çalışırdı. Belə olmasaydı təbii ki, onun filmləri ümumxalq məhəbbəti qazanmazdı.***

Bu gün görkəmli kinorejissor Hüseyn Seyidzadənin anadan olmasından 110 il ötür.

1912-ci ildə qədim Azərbaycan şəhəri olan İrəvanda dünyaya göz açan Hüseyn Seyidzadə yeniyetmə çağlarından zəhmətə alışıb. Erməni daşnaklarının azərbaycanlılara qarşı törətdikləri cinayətlər zamanı onun ailəsi Bakıya köçmüş və yeniyetmə Hüseyn fabrikdə fəhləlik etmişdir. Həyata nikbin baxışı 1928-ci ildə onu aktyor kimi Bakı İşçi Teatrının səhnəsinə gətirib. O, 1929-cu ildə Leninqrada (indiki Sankt-Peterburq) Dövlət Fəhlə Gənclər Teatrına təcrübə keçməyə göndərilib və bir il sonra Bakıya qayıdaraq "İlk komsomol buruğu" bədii filmində neftçi rolunda çəkilib.

O, Moskva Dövlət Kinematoqrafiya İnstitutunda təhsil aldığı illərdə (1931-1936) Mixail Romm, Lev Kuleşov, Sergey Eyzenştey kimi tanınmış sənətkarlardan kino sənətinin sirlərini öyrənib. Bakıya qayıdan gənc mütəxəssis kinostudiyada "Bakılılar", "Bir ailə" bədii filmlərində rejissor assistenti, dublyaj rejissoru işləyib. Onun Niyazi Bədəlovla birgə hazırladığı "Ayna" (1940) bədii filminin çəkilişləri məlum olmayan səbəblərə görə dayandırılsa da, iki il sonra həmin materiallar əsasında "Sovqat" qısametrajlı bədii filminə quruluş verib. Bir müddət "Lenfilm", "Mosfilm" və M.Qorki adına kinostudiyalarda təcrübə keçən sənətkar, bu studiyalarda istehsal olunan filmlərdə rejissor assistenti, ikinci rejissor vəzifələrin-



də çalışıb.

H.Seyidzadə rejissor kimi 43 il ərzində cəmi beş bədii film - "O olmasın, bu olsun", "Koroğlu", "Yenilməz batalyon", "Dəli Kür", "Qayınana", bir qısametrajlı bədii film - "Sovqat", iki sənədli film - "Əbədi Odlar diyarı" və "Doğma xalqımıza" ekranlaşdırıb. Hüseyn Seyidzadənin 1945-ci ildə çəkdiyi "Əbədi Odlar diyarı" tammetrajlı sənədli filmində doğma torpağın gözəllikləri, qədim abidələr tərənnüm edilmiş, tarixi şəxsiyyətlərin portretləri, Böyük Vətən müharibəsi illərində Azərbaycan xalqının rəşadəti və əmək qəhrəmanlığı öz əksini tapıb. Unudulmaz sənətkarın 1956-cı ildə Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" operettası əsasında ekranlaşdırdığı eyniadlı film bir rejissor kimi bitib-tükənməyən istedadını ortaya qoymuşdur. Görkəmli kino xadiminin sonralar bir-birinin ardınca ekranlaşdırdığı "Yenilməz batalyon", "Dəli Kür" filmləri Azərbaycanın mədəni həyatında mühüm hadisəyə çevrilib. Sənətkarın filmlərinin ümumxalq məhəbbətini qazanması kino tarixində özünə layiq yer tutması rejissorun hər kadr üzərində yaradıcılıqla işləməsi, hər kadra məna verilməsi ilə əlaqələndirib.

Hüseyn Seyidzadə hələ 1954-cü ildə rejissor Yan Fridlə birgə çəkdiyi "Doğma xalqımıza" adlı ilk rəngli Azərbaycan bədii-sənədli filmi rejissorun milli kinematoqrafiyanı şöhrətləndirə biləcək əsərlər yaratmağa qadir olduğundan xəbər verirdi. Onun yaratdığı filmlər çox sınaqlardan çıxsa da ənənəvi qiymətdən, axından seçilən, sıçrayışlı, sərbəstliyə nümunə olan sənət inciləri idi. Sənətkarın ürəyindən vətəndaş müharibəsinin milli qəhrəmanı "Qatır Məmməd", "Dərviş Parisi partladır", Xan qızı Natəvan haqqında filmləri çəkib kino tariximizə bəxş etmək keçirdi. Hətta bu filmlərin çəkilişlərinə başlansa da, naməlum səbəblərdən yarıda saxlanılırdı və alınıb başqasına verilirdi. Özü deyirdi ki, "insan dünyaya ona görə gəlir ki, yaşasın, çalışsın, nəyinsə naminə mübarizə aparsın. Xoşbəxt olsun. Amma mən anadan olandan taleyimlə əlbəyaxadayam..."



Bu gün sənətkarın ekranlaşdırdığı filmlər Azərbaycan teleməkanında sevə-sevə baxılır, onun peşəkar yaradıcılığından kinosevərlər zövq alır. Bu mənada, rejissorun istər peşəkarlıq, istərsə də nəzərdə tutulan dövrün pafosunu özündə əks etdirmək baxımından yaratdığı sənət inciləri hər zaman seviləcək. 1979-cu il iyunun 2-də dünyasını dəyişən unudulmaz sənətkarımız Hüseyn Seyidzadənin həmişəyaşar yaradıcılığı sənətsevərlərin qəlbində, o cümlədən kinomuzun tarixində əbədi olaraq qalacaq.



# Miqrasiya Xidmətindən bu şəxslərə müraciət

***Dövlət Miqrasiya Xidməti (DMX) Azərbaycanda yaşayan, işləyən əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müraciət edib.***

DMX-dən AZƏRTAC-a verilən məlumata görə, müraciətdə dünya dövlətlərinin pandemiya ilə mübarizə apardığı bir zamanda Azərbaycan Respublikasının Ermənistanın ənənəvi işğalçılıq və təhrik siyasəti nəticəsində tarixinin mürəkkəb və bir o qədər də həlledici dövrünə qədəm qoyduğu vurğulanıb. Bildirilib ki, Azərbaycan torpaqlarının 30 ilə yaxındır davam edən işğalı, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqlarda Ermənistanın sərgilədiyi qeyri-konstruktiv mövqe, eləcə də qarşı tərəfin regionda humanitar vəziyyətin gərginləşməsinə yönəlmiş təxribat xarakterli hücumları sülhün və ədalətin bərpası üçün Azərbaycanı adekvat cavab tədbirləri görməyə vadar edib. Bu tədbirlərin həyata keçirilməsində əsas məqsəd Ermənistanın işğalı altında olan torpaqlarımızın azad edilməsi, beynəlxalq səviyyədə tanınmış sərhədlərimizin bərpası, mülki şəxslərin təhlükəsizliyinin, eləcə də məcburi köçkünlərimizin öz yurdlarına geri qayıtmaq hüquqlarının təmin olunmasıdır.

Hər zaman beynəlxalq hüququn norma və prinsiplərinə hörmətlə yanaşan Azərbaycan beynəlxalq ictimaiyyətin çağırışlarına cavab olaraq humanitar atəşkəsə razılıq verib. Humanitar atəşkəsin elan olunmasına baxmayaraq, Ermənistan həmişə olduğu kimi, götürdüyü öhdəlikləri pozaraq atəşkəs dövründə Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncə də daxil olmaqla, bir çox yaşayış məntəqələrində mülki əhaliyə yönəlmiş ağır artilleriya hücumlarını davam etdirib. Nəticədə ümumilikdə 43 dinc sakin həlak olub, 200-dən çox şəxs yaralanıb. Bu fakt bir daha sübut edir ki, döyüş meydanında mövqelərini itirən Ermənistan ordusu çıxış yolunu yalnız mülki əhaliyə qarşı yönəlmiş cinayət törətməkdə görür. Bir daha vurğulamaq istərdik ki, Azərbaycan mübarizəsini beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində və öz əzəli torpaqlarında aparır.

"Sizin və mənşə ölkələrinizdə yaşayan ailə üzvləriniz, qohumlarınız, əzizlərinizin haqlı narahatlığını anlayışla qəbul edirik. Əmin ola bilərsiniz ki, Azərbaycanda təhlükəsizliyinizin təmin olunması və bundan sonra da ölkəmizdə sabitlik, sülh, əmin-amanlıq şəraitində yaşamanız üçün bütün tədbirlər davam etdiriləcək.

Ölkəmizdə hərbi vəziyyət elan olunduğu vaxtdan dəstək və həmrəylik məqsədilə Dövlət Miqrasiya Xidmətinə etdiyiniz müraciətləri yüksək qiymətləndirir, bu çətin və sınaq dolu günlərdə bizimlə olduğunuza, ölkəmizin haqq mübarizəsində yanımızda olduğunuzdan qürur duyuruq.

İnanırıq ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əzəli torpaqlarında erməni işğalına son qoyulacaq, regionda sülh və ədalət bərqərar ediləcək.

Qarabağ Azərbaycandır!", - deyə müraciətdə qeyd olunub.

**ELAN**

**FHN əməkdaşı Rzayev Xəyal Niyazi oğlu 021859 A nömrəli iş vəsiqəsini itirdiyi üçün etibarsız sayılır.**

# Adi faşizm: yetim qalan körpələr, sahibsiz gəlinciklər, Bəxtiyarın gülüşü

- Anama min dəfə dedim, qalma o evdə. Atırlar. Həmin gün mən getdim nənəmgilə, atam, anam, bacım...

Hüseyn deyir bunları. 8 yaşlı Hüseyn. 3 gün keçib o dəhşətli gecənin üstündən. Sanki 30 il qocalıb bu uşaq...

***

"Tapın tez mənim karandaşlarımı. Hardadı mənim karandaşlarım?"

Uçub dağılmış evlərinin qalıqları arasında ora-bura var-gəl edir dayısı Miriylə. Hardansa karandaş tapıb gətirirlər. Bəyənmir, özününkünü istəyir. Bilmirlər hardan tapsınlar 4 yaşlı Bəxtiyarın karandaşlarını, bu dağıntının arasında...

***

Nilay. İki yaşlı Nilay. O, ümumiyyətlə, nə baş verdiyini bilmir. Atası Adil, anası Günay, nənəsi Afaqın cənnətdə olduğundan da xəbərsizdi. Nə bilir axı Nilay cənnət nə olan şeydi. Özü mələk kimi. Dupduru gözlü bu mələk elə bir cəhənnəm gecəsi yaşamayıb ki...

***

Oktyabrın 11-də Ermənistandan atılan "Elbrus"lar Gəncədə qətliama səbəb oldu. 10 nəfər həyatını itirdi. 30-dan çoxunu yaraladı. Gəncə böyük bir vəhşət yaşadı. Həmin gün baş verənlər bu üç uşağın həyatında - təkcə onlarınmı? - unudulmayacaq heç vaxt. Üç uşaq - Anar və Nurçin Əlizadələrin övladları Hüseyn və Sevil, Adil və Günay Əliyevlərin iki yaşlı qızları Nilay yetim qaldı. Bəxtiyar, hə, o toppuş, fotosu sosial şəbəkələrdən, saytlardan, agentliklərdən düşməyən, üzünü qan basmış, amma iri gözləriylə işıq saçan Bəxtiyar isə möcüzə nəticəsində sağ qaldı.

Sağ qaldı deyirik ha, baş verənlərin miqyasını anlamaq üçün onca dəqiqəlik də olsa, erməni faşistləri tərəfindən Qələbə Parkı yaxınlığında viran edilmiş o məhəlləyə baş çəkin. On ölü? Bu, bir möcüzədir. Elə Akifə xanımın dediyi kimi, "bizi Allah qurtardı. Səhər açılanda ətrafa baxanda inana bilmirdik ki, bu xarabalıqdan sağ çıxmışıq".

**Nüşabə Heydərova danışır:**

- Bəxtiyar adətən mənim yanımda yatırdı. Bax, burda, bu çarpayıda. Həmin gecə necə oldusa, o biri otağa keçdi. Özü də gec yatdı. Saat iki olmuşdu, ya ya yox, gördüm ev silkələndi. Divarlar üstümə gəldi. Özümdən asılı olmayaraq "Bəxtiyar" qışqırdım. Sonrasından xəbərim olmadı.

Hə, erməni faşistləri məhz gecə hədəfə almışdılar dinc sakinləri. Həmin vaxt Gəncə dərin yuxuya getmişdi. Məqsəd də elə gecə zərbəsiylə daha çox insan qırğınına nail olmaq idi.

Balaca Bəxtiyarı dağılan evin qalıqları arasından güclə tapıb çıxararlar. Evin divarları hər an uça bilərmiş deyə, ehtiyatla davranırlar. Nə baş verdiyini belə anlamırmış uşaq. Üz-gözü qanlı birtəhər ərazidən uzaqlaşdırırlar. Erməni xislətinə yaxşı bələd olduqlarından ikinci zərbədən ehtiyatlanırlar.




- 4 yaşı var. Çox şok keçirdi. Hələ də nə baş verdiyini anlaya bilmir. Onun üçün nağıl kimi gəlir baş verənlər. İnandırım sizi, onun sağ qalması möcüzəydi. Onu tapdığımız yer daş-kəsək, şüşə qırıntılarıyla doluydu. Bir də baxdıq ki, o boyda dağıntının altından baxıb gülür.

"Gəl şəkil çəkdirək" - deyirəm. Əllərini yelləyir.

- Sənə karandaş alacam.

- İstəmirəm, özümünkünü istəyirəm.

Dayısı Miri birtəhər razı salır. Əlimdən tutub məni həmin gecə yatdığı o otağa aparır.

- Sən harda yatmışdın?

Həmin çarpayıya oturub, gözlərini məchul bir nöqtəyə zilləyir...

***

Hər iki valideynini itirmiş Sevil danışır. Qardaşı Hüseyndən fərqli çox ötkəmdi, möhkəmdi. Amma uşaqdı axı. Hərdən kövrəlir, ovcunu çənəsinə söykəyib fikrə gedir. Amma nə baş verdiyini də anlayır. Onu da başa düşür ki, atasınıanasını bir də səsləyə bilməyəcək. Sonuncu dəfə məhz elə həmin gün "ata, ana" deyə bağırıb.

- Həmin gecə qardaşım nənəmgildəydi, atamla anam yatmışdılar. Mən o biri otaqda kinoya baxırdım. O qədər möhkəm partlayış oldu ki, otağın şüşələri çilik-çilik olub üstümə düşdü. Bu vaxt gördüm ki, o biri otaqdan atam xırıltılı səslə məni çağırır. Mən necə olursa olsun o biri otağa keçmək istəyirdim. Amma bacarmırdım. Mamamın isə ümumiyyətlə səsi gəlmirdi. Atam yenə məni çağırdı. Nə illah eləyirdim, keçəmmirdim. Çünki ikinci mərtəbə bizim üstümüzə, atamgil olan otağa aşmışdı. Qışqırırdım, bağırırdım, ağlayırdım, onları çağırırdım. Bir azdan atamın səsi də kəsildi...

Atası Adil elə həmi gecə dünyasını dəyişmişdi. Anası Günayı isə xəstəxanaya çatdırsalar da, həyatını xilas edə bilməmişdilər.

- Onlar mənim atamı, anamı şəhid etdilər.

Bunu Sevilin qardaşı Hüseyn deyir. Əlindəki dəsmalı da tez-tez dişlərinə sıxır. Ağlamaq, kövrəlmək istəmir. Bacardıqca dik dayanmaq istəyir.

Və hər dəfə bu hərəkəti etdikcə, sadəcə özünü saxlaya bilmirsən; Tez-tez əlini bacısının saçlarına uzadır, toxundurur, oxşayır. Elə durmadan da deyir:

- Allah heç olmasa bacımı mənim üçün saxladı.

Hüseynin əmisi Yalçın qardaşının yadigarlarını böyüdəcəyini deyir.

- Ermənin ilk əməli deyil son baş verənlər. İlk vəhşiliyi deyil. Biz Xocalını yaşamışıq. Onlar növbəti dəfə bu alçaqlığa əl atdılar. O boyda qardaş itirdim. Onun bacım kim sevdiyim həyat yoldaşını itirdim. Bütün şəhidlər mənim qardaşım və bacımdı. Bunlar belə vəhşiliklə bizi qorxutmaq, ruhdan salmaq istəyirlər. Amma qıra bilməyəcəklər. Sındıra bilməyəcəklər. Olmayacaq.

"Bu uşaqları təkcə onların qohumları, əzizləri deyil, bütün Gəncə, bütün Azərbaycan böyüdəcək. Onlar bizə əmanətdilər. Şəhid əmanətidirlər". Bunu isə az qala yer üzündən silinmiş o məhəllənin sakinləri deyirlər...

***

Qulağı sarıqlıdır Bəxtiyarın. Bir yerdə dayanmır. Dayısı Miri deyir ki, həmin gecə dağıntılar altında qalan Bəxtiyar valideynləri və yaxınlıqdakı insanlar tərəfindən uçqunun altından çıxarılıb. Hadisə vaxtı o, üzündən və qulağından xəsarət alıb. Elə indi də qulağı sarıqlı gəzir.

Tez-tez də qışqırır, Bəxtiyar: "Açın bunu. Mənim "lampoçka"larımı verin". Hə, karandaşdan keçib kiçik lampalara. Atası Elnur elektrikdi, deyir evdə işləyəndə tez-tez gəlib dururmuş yanında.

- Maraqla baxırdı. Neçə gündü belədi. Girib otaqları ələk-vələk edir, birtəhər çıxardırıq. Bude, yenə getdi. "Bəxtiyar!" Gözünü süzüb atasına tərəf baxır. Şkafın içinə girir az qala. Budur, şkafın qapısının arxasından atasına, dayısına, mənə qıyqacı baxıb gülür: "Tapdım". Karton qutunun içində sınmış balaca lampadır. Atası əlindən almaq istəyir: "Əlini kəsərsən". Dayısının qucağına atılır.

***

16 yaşlı Emin Qurbanlını sağ qaldığına nəinki öz ailəsində, heç həmin məhəllədə belə inanmırlar. Adam bütünlüklə viran edilmiş evin qalıqları arasından...sağ çıxıb. Akifə xanım deyir ki, divar uçub, hər tərəf daş-kəsək, hamı qaçıb bayıra.

- Gördük Emin yoxdu. Qışqırdıq, köməyə çağırdıq, hamı öz canının hayında. Birtəhər dağıntıları yara-yara onun olduğu otağa girdik. Gördük sağdı. Qalaqların altından tapıb çıxardıq.

Dağıntıların arasından xeyli uşaq oyuncaqları, gəlinciklər çıxıb. Qıpqırmızı qərənfillərlə bəzədilib o oyuncaqlar. Onların arasında kiçik bir ayı balası diqqəti çəkir.

- Nilayındı, - deyir, qonşulardan biri. Heç kimi qalmadı. Nənəsi belə həlak oldu. Babası böyüdəcək onu.

O uşaqlara Dövlət sahib çıxacaq. O insanlara əvvəlkindən də gözəl evlər tikiləcək. Amma gecənin bir qaranlığında vəhşicəsinə qətlə yetirilmiş o dinc sakinlər, bu uşaqların valideynləri bir daha geri qayıtmayacaq. Faşizm, əsil erməni faşizmi də elə budur!

***Səbuhi Məmmədli***

# "Qarabağ tribunası" Rusiyanın Qarabağ münaqişəsində destruktiv rolunu pisləyir

***"Rusiya Federasiyanın anti-Azərbaycan fəaliyyəti ilə bağlı "Qarabağ Tribunası" vətəndaş təşəbbüsünün Mövqe Sənədi yayıb.***

Unikal.org xəbər verir ki, sənəddə deyilir:

Azərbaycan ordusu sentyabrın 27-də Ermənistanın hərbi təxribatlarına cavab olaraq və vətəndaşların təhlükəsizliyini təmin etmək, eləcə də 27 illik işğala son qoymaq məqsədi ilə əks-hücum kompaniyasına başlamışdır. Qısa müddət ərzində bir sıra ərazilərin işğaldan azad edilməsi Azərbaycanın dostlarını sevindirdiyi kimi düşmənlərini də məyus etmişdir.

Azərbaycan torpaqlarının işğaldan azad etməsini nəzərdə tutan BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin icrasını 27 il ərzində təmin edə bilməyən ATƏT-in Minsk Qrupunun həmsədrləri Azərbaycan ordusunun beynəlxalq hüquqa uyğun həyata keçirdiyi hərbi əməliyyatları dayandırmağa cəhd etməklə bizdə belə təəssürat yaradır ki, həmsədr dövlətlər vətənimizin bir hissəsinin işğalında maraqlı tərəflərdir.

Xüsusilə də Rusiya Federasiyanın BMT Təhlükəsizlik Şurasının daimi üzvü və ATƏT-in Minsk Qrupunun həmsədri kimi Azərbayanın beynəlxalq hüquqa əsaslanaraq özünün ərazi bütövlüyünü təmin etmək cəhdinə qarşı aktiv fəaliyyəti diqqət çəkir. İşğalçı Ermənistanı təcili sürətdə silahlandırmaqla yanaşı Rusiya dövlətinin himayəsində olan bütün kütləvi informasiya vasitələrində Azərbaycana qarşı qərəzli, böhtan və təxribat xarakterli informasiya siyasəti həyata keçirilir.

Rusiyanın Ermənistana verdiyi hərbi-texniki dəstək nəticəsində çoxsaylı mülki vətəndaşlarımız həlak olub. Eyni zamanda Gəncə şəhərinin qadağan olunmuş ballastik raketlə vurulmasında Rusiyanın Ermənistandakı hərbi kontengentinin iştirakı haqqında da müəyyən ehtimallar var. Rusiyanın bu bədnam hərəkətlərini qəti şəkildə pisləyir və Ermənistanı silahlandırmasına son qoymağa çağırırıq.

Artıq Rusiya ATƏT-in Minsk Qrupunun həmsədri kimi siyasi və mənəvi ligitimliyini itirmişdir. Azərbaycan cəmiyyəti Rusiyanı vasitəçi kimi deyil, Ermənistanın açıq hərbi müttəfiqi və təcavüzkarın himayəçisi hesab edir.

Azərbaycan cəmiyyətinin vətənimiz üçün həyati əhəmiyyətli bu günlərdə yumruq kimi birləşməsi və torpaqlarımızı işğaldan azad etmək üçün müqəddəs vəzifəsini həyata keçirən ordumuza hərtərəfli dəstək verməsi təqdirə layiqdir.

Azərbaycan hakimiyyətini torpaqlarımızı işğalçılardan tamamilə təmizləməkdə tərəddüd etməməyə və işağlçı Ermənistana, onun himayədarlarına qarşı qətiyyətlə müqavimət göstərməyə səsləyirik.

Imza:

1.İlham İsmayıl
2.Abbasağa Məmmədov
3.Xəqani Cəfərli
4.Nəsimi Məmmədli

* "Qarabağ tribunası" 2019-cu ilin dekabrında bir qrup ekspert tərəfindən təsis edilib. Qrup siyasi partiyaların, ictimai təşkilatların və xadimlərin fikirləri əsasında Azərbaycanın Qarabağ problemi ilə bağlı ümumi strategiyasının işlənib hazırlanması vəzifəsini qarşıya qoyur.

"Qarabağ tribunası" nın üzvləri əmindir ki, münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll oluna bilər.

# “Azərbaycan deyiləndə ayağa dur ki...” – Məmməd Arazın əziz xatirəsinə

***Xalq şairi Məmməd Araz Azərbaycan ədəbiyyatında çoxcəhətli və zəngin ədəbi irsinə, sənətkarlıq qüdrətinə görə özünəməxsus yeri və mövqeyi olan görkəmli söz ustadıdır. Məmməd Araz mənalı, keşməkeşli və şərəfli, bütövlükdə Vətənə və sənətə həsr olunmuş əsl şair-vətəndaş ömrü yaşayıb. Sənətkarın tərcümeyi-halının, taleyinin daha çox onun yaradıcılığında öz əksini tapıb. Məmməd Araz özü də şeirlərində bunu dəfələrlə etiraf edib. Kitablarından birinə yazdığı müqəddimədə deyilir: “Əsl tərcümeyi-hal şairin şeirləridir. Şair çox halda öz yazılarının baş qəhrəmanı ola bilir”.***

Dərin məzmunlu, oxunaqlı və milli mündəricəli şeirlərilə Məmməd Araz vətəndaş qeyrətli ədəbiyyat nəhəngidir. Bu görkəmli şair həm də milli azadlıq ideyalı əsərləri ilə istiqlal şairi olaraq əbədi şöhrət qazanıb.



Lent.az AZƏRTAC-a istinadla xəbər verir ki, bu gün Xalq şairi Məmməd Arazın anadan olmasının 87-ci ildönümü tamam olur. Böyük sənətkarın təkrarolunmaz yaradıcılığı zəngin ənənələrə malik milli ədəbiyyatımızı yeni mərhələyə çıxarıb, Azərbaycan fəlsəfi və siyasi lirikası onun dühası hesabına daha da zənginləşib.

Məmməd Araz böyük poetik ilhama malik olan sənətkarlardan idi. Sözün və sənətin Məmməd Araz zirvəsinə gedən yol heç də həmişə hamar olmayıb. Onun həyatı da sənəti kimi daşlı-qayalı yollardan keçib.

1933-cü il oktyabrın 14-də Şahbuz rayonunun Nursu kəndində dünyaya göz açan Məmməd Araz ilk təhsilini həmin kənddə alıb. 1954-cü ildə Azərbaycan Pedaqoji İnstitutunu bitirən böyük sənətkar 1961-ci ildə Moskvada Maksim Qorki adına Ədəbiyyat İnstitutunda oxuyub. Azərbaycan Dövlət Nəşriyyatında bədii ədəbiyyat redaksiyasının müdiri, sonra isə baş redaktorun müavini, “Ulduz” jurnalında məsul katib, “Ədəbiyyat və İncəsənət” qəzetində baş redaktorun müavini işləyib. 1971-1981-ci illərdə Azərbaycan Yazıçılar İttifaqının poeziya bölməsinə rəhbərlik edən Məmməd Araz 1974-cü ildən ömrünün sonunadək “Azərbaycan təbiəti” jurnalının baş redaktoru olub.

Böyük sənətkar 2004-cü ilin dekabrın 1-də Bakıda vəfat edib və Fəxri xiyabanda dəfn olunub.

Harada işləməsindən, hansı vəzifəni tutmasından asılı olmayaraq, Məmməd Araz, əslində, bütün ömrü boyu bir vəzifəni icra edib. O da poetik Azərbaycan dünyasına xidmət, Vətən qarşısında vətəndaşlıq borcunu yerinə yetirməkdir. Böyük istedadı və poetik bacarığı sayəsində Məmməd Araz Nizami Gəncəvi, Məhəmməd Füzuli, Mirzə Ələkbər Sabir və Səməd Vurğun poeziyası ilə ona qədər gəlib çatan klassik şeir ənənəsini və üslubunu təkmilləşdirərək həmin gördüyü və bildiyi, lakin dilə gətirməyi bacarmadığı məsələləri ictimai düşüncənin məhsulu edib, Azərbaycanda vətəndaşlıq poeziyasının əsasını qoyub. Gənc yaşlarından başlayaraq yarım əsrdən artıq davam edən Məmməd Araz yaradıcılığı mənsub olduğu xalqa layiqli şair - vətəndaş xidməti nümunəsidir. Onun şeirinin əvvəli də, axırı da Vətəndir. Məmməd Araza məxsus “Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı” məşhur misraları müasir dövrdə poeziyada və ictimai mühitdə vətəndaşlığın milli düsturu kimi qəbul olunur.

Məmməd Araz yaradıcılığının baş qəhrəmanı Azərbaycandır. Onun “Vətən mənə oğul desə”, “Məndən ötdü, qardaşıma dəydi”, “Mənim Naxçıvanım”, “Ata ocağı”, “Ana yurdum, hər daşına üz qoyum” şeirləri vətən mövzusunda ən yaxşı əsərlər kimi dillər əzbəridir. Poeziyamızda Azərbaycan mövzusunda çox yazılıb. Azərbaycana çoxlu şeirlər ithaf olunub. Amma Məmməd Arazın “Azərbaycan - dünyam mənim” şeirinin bənzəri yaradılmayıb. Bu şeirin bütün intonasiyası şair qəlbinin ağrılarından, fəal vətəndaş narahatlığından keçir. Şeir yaradıcılığında olduğu kimi, poemaları ilə də Məmməd Araz təkrarsızdır. Onun “Üç oğul anası”, “Araz axır”, “Mən də insan oldum”, “Paslı qılınc”, “Əsgər qəbri”, “Atamın kitabı” poemaları hər şeydən əvvəl insan mənəviyyatının mürəkkəbliyi, tarix və müasirlik, milli tale və tarixi yaddaşın bərpası kimi fundamental məsələlərə həsr olunub.

Ümummilli lider Heydər Əliyev Xalq şairi, poeziyamızın istedadlı nümayəndəsi Məmməd Araz yaradıcılığına və şəxsiyyətinə daim yüksək qiymət vermişdir. Təsadüfi deyil ki, Məmməd Araz ilk yaradıcılığa ötən əsrin 50-ci illərindən başlasa da, onun təkrarsız istedadı 1970-ci illərdə, Ulu Öndərin Azərbaycana rəhbərliyinin birinci dövründə parlamışdır. Məmməd Araza böyük şöhrət gətirən “Atamın kitabı”, “Həyatın və sözün rəngləri”, “Oxucuya məktub”, “Qanadlı qayalar”, “Aylarım, illərim” kitabları məhz bu illərdə çap olunub, əsərləri xarici dillərə tərcümə edilərək geniş oxucu kütləsinin məhsuluna çevrilib. 1975-ci ildə Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif olunan böyük şairə 1978-ci ildə “Əməkdar mədəniyyət işçisi” fəxri adı verilib, 1995-ci ildə isə ümummilli lider Heydər Əliyev Xalq şairi Məmməd Arazı “İstiqlal” ordeni ilə təltif edib. Ulu Öndər Məmməd Araz sənətini yüksək dəyərləndirərək deyib: “Bu gün bir daha Məmməd Arazın Azərbaycan xalqının mədəniyyətinə, ədəbiyyatına verdiyi töhfələri gördük, eşitdik və bunların xalqımız üçün nə qədər faydalı olduğunu bir daha bildik, bir daha dərk etdik ki, Azərbaycan xalqının həyatında Məmməd Arazın yaradıcılığının nə qədər böyük əhəmiyyəti var”. Ümidvaram ki, Azərbaycan xalqı daim müstəqilliyini qoruyub saxlayacaq və müstəqil Azərbaycanın ilk “İstiqlal” ordeninə layiq görülmüş şəxsiyyətlərdən biri kimi Məmməd Araz, Azərbaycan xalqının tarixində indi olduğu kimi, gələcəkdə də öz yerini tutacaqdır”.

Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərini nəzərə alan Prezident İlham Əliyev görkəmli sənətkarın xatirəsinin əbədiləşdirilməsi, yubileylərinin keçirilməsi haqqında sərəncamlar imzalayıb. Bu sərəncamlar Azərbaycan ədəbiyyatının, bütövlükdə yaradıcı ziyalıların, o cümlədən Məmməd Araz sənətinin və şəxsiyyətinin böyük himayədarı, ulu öndər Heydər Əliyev ənənələrinin müasir şəraitdə uğurlu davamı kimi yüksək dəyərə malikdir.

# Azərbaycanlı rejissorun filmi Moskvada nümayiş olunacaq

***Rejissor Tahir Əliyevin “Qırmızı” qısametrajlı bədii filmi oktyabrın 21-dən 23-dək Moskvada keçiriləcək VIII Beynəlxalq Etnoqrafik Kinofestivalda iştirak edəcək.***



Film valideynləri ayrıldığı üçün ucqar kənddə tək yaşayan məktəbli qız haqqındadır. Onun yeganə arzusu kəndin palçıqlı dolanbaclarında yeni qırmızı ayaqqabı ilə gəzməkdir.

“Qırmızı” filmi festivalın son günü - 23 oktyabrda nümayiş olunacaq.

Qeyd edək ki, festivalda Rusiya, İtaliya, Böyük Britaniya, Fransa, Danimarka, Hindistan və digər ölkələri təmsil edən rejissorların filmləri nümayiş ediləcək.

# Birpərdəli pyes müsabiqəsinin nəticəsi açıqlanıb




***Koronavirus pandemiyasına qarşı mübarizə tədbirlərinə dəstək məqsədilə iyun ayında Gənc Tamaşaçılar Teatrının təşəbbüsü, Səbail Rayon İcra Hakimiyyəti, Azərbaycan UNESCO Klubları Assosiasiyası, “ASAN Könüllüləri” Təşkilatı, “ASAN Radio” və “Azərbaycan” jurnalının təşkilatçılığı ilə elan olunan “Biz birlikdə güclüyük” adlı birpərdəli pyes müsabiqəsinə yekun vurulub.***

Müsabiqənin təşkilində məqsəd pandemiyanın yaratdığı bəşəri problemləri, dünyada və ölkəmizdə bu epidemiyaya qarşı aparılan mübarizəni teatr sənətinin də aktual mövzusuna çevirməkdir.

Müsabiqə şərtlərinə görə, pyeslərin mövzusu koronavirus pandemiyası ilə mübarizə günlərinin ab-havasını, bu zaman kəsiyində baş verənlərin ümumilikdə ölkənin sosial, ictimai həyatına təsirini, ayrı-ayrı insan talelərində əksini ifadə etməli idi. Mövzuya maraq göstərən bir çox gənc qələm sahibləri yeni pyeslərini təqdim ediblər. Təqdim olunan əsərlər gizli münsiflər heyəti tərəfindən oxunub.

Münsiflərin müzakirəsindən sonra gənc yazıçı-ssenarist Pərviz Seyidlinin “Mələk” pyesi müsabiqənin qalibi elan olunub.

Qeyd edək ki, qalib pyesin bu ilin sonuna qədər Gənc Tamaşaçılar Teatrında səhnəyə qoyulması nəzərdə tutulur.

Həmçinin qalib pyes “Azərbaycan” jurnalında işıq üzü görəcək.

# Kukla Teatrında “Şəngülüm, Məngülüm” tamaşası

***Oktyabrın 18-də Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının sosial şəbəkələrində “Şəngülüm, Məngülüm” tamaşası nümayiş ediləcək.***




AZƏRTAC xəbər verir ki, tamaşaya teatrın rejissoru Anar Məmmədov quruluş verib. Quruluşçu rəssamı İqbal Əliyev, bəstəkarı Əməkdar artist Elza Seyidcahan olan tamaşanın ifaçısı Musiqili Teatrın aktrisası Ülviyyə Əliyevadır.

Azərbaycan xalq nağılı “Ana keçinin intiqamı” əsasında “Şəngülüm, Şüngülüm və Məngülüm” adlı kiçik poema yazan Mikayıl Müşfiq böyük və zəngin poeziyasında balacalara da yer verdi. Onun məktəb şeirlərini əzbər bilən, poetikasına yaxından bələd olanlar bilir ki, şairin zərif duyumu, hadisələrə humanist baxışı bu poemada özünün ən gözəl izlərini buraxıb.

Kuklaçılar da hər kəsin az qala əzbər bildiyi mübariz ana keçinin nağılına bu dəfə müəyyən ixtisarlarla, birhissəli monotamaşa kimi yanaşdı və göstərdi ki, bir aktyorun ifasında, eyni zamanda, bir neçə obrazı canlandırıb ifadə etmək olar.

Tamaşanın mahnı mətnləri də Mikayıl Müşfiqin uşaq şeirləri və eyniadlı poemasından seçilib. Klassik üslubda səhnə tərtibatı verilən tamaşada müxtəlif kukla texnikaları tətbiq olunub. Belə ki, ifaçı həm parket, həm də əlcək kuklalardan istifadə etməklə səhnədə altı obrazda - Nağılçı, Dəmirçi, Ana keçi, Şəngülüm, Məngülüm və Canavar çıxış edir. Onu da qeyd edək ki, bu əsər teatrda əvvəllər də tamaşaya qoyulub. Bu dəfə monotamaşa üslubunda ərsəyə gətiriləcək səhnə işində Keçinin balalarından biri - Şüngülüm ixtisar edilib.



## Varlıların daima istifadə etdiyi bu dərman ömürü uzadır

***Mumiya ilə müalicə bütün orqanizmin bərpa prosesini və maddələr mübadiləsinin normallaşmasını təmin edir. Mumiya nədir?***

Mumiya tünd-qəhvəyi rəngdə plastilinə oxşayan maddədir. Onu əldə asanlıqla müxtəlif formaya salmaq mümükün olur.

Mumiya ilə müalicə zamanı ilk növbədə orqanizmin qan-damar sistemi yaxşılaşır. Bu zaman qanda mikroelementlərin və duzların miqdarı artır, eritrositlərin sayı çoxalır və hemoqlobin yüksəlir. Bu səbəbdən də qan dövranı yaxılaşır və orqanlara qanın yaxşı işləməsi təmin edilir.

Mumiya ilə müalicə tibbi müalicə növü hesab edilmir. Amma onun faydası elmi araşdırmalar nəticəsində öz təsdiqini tapmışdır. Mumiyanın tərkibində olan zülallar, yağ turşuları, steroidlər və mikroelementlər orqanizm üçün vacib sayılır.

Mumiya sınıqlar və əzilmələr zamanı da regenerasiya prosesini sürətləndirir və yaraların tez sağalmasına səbəb olur. Mütəxəssislər mumiya qəbulu zamanı spirtli içkidən istifadə etməyi məsləhət bilmir.

Mumiyadan istifadə etmək aşağıdakı xəstəliklərdən xilas olmağa yardım edir:

* bronxial astma
* vərəm
* mədə və onikibarmaq yarası
* zəhərlənmə
* iflic
* epilepsiya
* böyrək xəstəlikləri
* bütün növ iltihabi xəstəliklər
* miqren
* polimielit
* damar xəstəlikləri
* sümük sisteminin xəstəlikləri
* əzələdə baş verən xəstəliklər.

Mumiyanın ən gözəl xüsusiyyətlərindən biri ürək və beyin kimi həyati vacib orqanların fəaliyyətini yaxşılaşdırmasıdır. Mumiya ürək və beyində olan xəstəlikləri aradan qaldıra bilmək qabiliyyətinə malik olduğu üçün qiymətli sayılır.

Mumiyanın bakteriasid tərkibə malik olduğu üçün onun penisiliin qədər təsirə malik olduğu öz sübutunu tapıb. Bu səbəbdən də onun qəbulu angina, dizenteriya, göbələk xəstəlikləri və ekzemanı sağaldır. Mumiya ilə müalicə orqanizdə immunoloji prosesləri həll edir, orqanizmin müdafiə qüvvəsini artırır, geniş spektrli bioloji təsir göstərir. Mumiya dünyada yeganə maddədir ki, o bütün xəstəlikləri müalicə edir. Bu maddə insanın toxumalarını qocalmağa qoymur və ömrünü uzadır.

## Mövsümün şah meyvəsi NAR FAYDALARI

***Payız aylarının ən çox sevilən meyvəsi narın orqanizmimizə bir çox faydaları vardır.***

"Unikal" medicina.az-a istinadən bildirir ki, liflərlə zəngin olan nar bağırsaqları hərəkət etdirir.

Bol miqdarda C vitamini, dəmir və potasium tərkiblidir.

"Nutrition" jurnalında yayımlanan bir məqalədə içərisindəki polifenollar sayəsində köklüyə qarşı mübarizə apardığı dərc edilmişdir. Xotestrola və şəkər xəstələrinə də faydalıdır.

Bal və nar suyu qarışımı həzmi gücləndirir. Lakin antibiotik istifadə edənlərə məsləhət görülmür.

Nar çubuğu qaynadılaraq ishala qarşı suyu içilir.

# Biz niyə kökəlirik və ya nələr maddələr mübadiləsinin pozulmasına səbəb olur?

***Qəbul etdiyimiz hər bir qida orqanizmdə enerjiyə çevrilir və artıq olanı piy toxumasına çevrilir. Bu səbəbdən də maddələr mübadiləsinin pozulması artıq piyin bədəndə toplanmasına səbəb olur və kökəlmə ilə nəticələnir. Mübadilənin normal getməsi zamani isə insan lazım olan qədər yemək yediyinə baxmayaraq artıq çəkiyə sahib olmur və normal bədən quruluşuna sahib olur.***

Yaşanan həyat tərzi, stresslər, genetik meyillilik, fiziki aktiv həyat keçirməmək, endokrin xəstəliklər orqanizmdə maddələr mübadiləsinin pozulmasına səbəb olur. Ən cox da günün əksər hissəsini evdə keçirən adamlarda maddələr mübadiləsi daha zəif gedir və arıqlamaq mümkün olmur. Bunun səbəbi isə qəbul edilən enerjinin sərfiyyatının az olmasıdır.Bu səbəbdən də aktiv həyat keçirməyən adamlar daima enerjilərini nəzarət altında saxlamalıdır. Kalorili qidaların qəbulu və azhərəkətlilik piy toxumasının orqanizmdə depolanıb yığılmasına səbəb olur. Bunun baş verməməsi üçün isə gündəlik qəbul edilən qidanı 5-6 hissəyə bölmək və səhər yeməyini yuxudan durduqdan 30-50 dəqiqə sonra yemək lazımdır. Mütəxəssislər aşağıdakı qidaların maddələr mübadiləsini sürətləndirdiyini söyləyirlər:



* qreyfurt
* yaşıl çay
* qatıq
* badam
* yaşıl alma
* ispanaq
* brokkoli kələmi
* darçın
* süd
* buğda kəpəyi
* hind quşu əti

Kalsiumla zəngin tərəvəzlər, kofe, yüngül şorbalar, kəskin qidalar və yağsız ağartı məhsulları da maddələr mübadiləsini sürətləndirir.

Metobolozmi sürətləndirmək və arıqlamaq üçün nə etmək lazımdır?

Arıqlamaq üçün mütəxəssislər qida rosionundan yağları və karbohidratları tamamilə xaric etməyi məsləhət bilmirlər. Çünki onların qidadan uzun müddət çıxarılması böyrəklər və qara ciyərdə müxtəlif problemlərə səbəb olur. Çünki karbohidratlar orqanizmdə bütün orqanların fəaliyyəti üçün vacib sayılır.

Arıqlamaq məqsədilə qida rasionundan yağların da tamamilə çıxarılması düzgün hesab edilmir.Çünki,orqanizm üçün yağlar lazımdır.Yağların tərkibində olan leptin hormonların fəaliyyətində mühüm rol oynayır.Orqanizmdə maddələr mübadiləsinin sürətlənməsində ən çox Omeqa-3 yağı rol oynayır. Omeqa-3 yağı isə ən çox dəniz məhsullarında, zeytunda, qara zirə yağında, qoz yağında olur.

Qida qəbulu zamanı acı qidalardan istifadə etmək qidaların bağırsaqlardan sorulmasını sürətləndirir. Bu qidalara isə istiot, acı bibər, pul bibər, zəncəfil və s. aiddir. Qidalanma zamanı müxtəlif şirələrin, kompotların qəbulu da lazımdır, amma bunların tərkibi qidaların həzmə getməsini ləngidə bilir.Bu isə orqanizmdə su-duz mübadiləsinin pozulmasına səbəb olur. Bu səbəbdən də mütəxəssislər təmiz su içilməsini tövsiyə edirlər.

# Babasilin asan yolla müalicəsi varmış

***Xəstəlik insan orqanizminin düşmənidir.İnsan xəstəliklə nə qədər mübarizə aparmağa çalışsa da bəzən onun öhdəsindən gələ bilmir.-Hətta bəzi xəstəliklər vardır ki.Bu xəstəliklərlə qlobal mübarizə yöntəmlərindən istifadə edilir.Belə xəstəlikərdən biri də babasildir.***

Bəzən insanlar babasil xəstəliyinin ilkin dövrlərində onu ciddiyə almır və tezliklə əlamətlərin aradan qalxacağını düşünür.Amma,bu belə deyil.

Babasil ən qorxulu ağırlaşmaya səbəb oluna bilən xəstəliklərdən hesab edilir.Bu səbəbdən də həkimlər babasilə yaxalanan xəstələrin xəstəliyin ilkin dövrlərindən müalicəyə başlamalarını tövsiyə edir.Çünki,xəstəliyin ilkin əlamətlərinin meydana çıxdığı zaman onun müalicəsinə başlamaq daha münasib və faydalı sayılır.

**Babasil xəstəliyi aşağıdakılara səbəb ola bilir:**

* İl ərzində 5 milyon adam düz bağırsaq xərçəngindən ölür.
* Təkcə Rusiyada il ərzində 550 min insan vəfat edir.Bu rəqəm əhali sayının nisbətinə görə Azərbaycanda da az deyil.
* Yer kürəsi əhalisinin hər 1000-dən 160 nəfəri babasildən əziyyət çəkir.
* Yer kürəsi əhalisinin orta yaşından yuxarı 50%-i babasildən əziyyət çəkir.
* Babasil 20-50 yaş arasında olan insanların 20%-də xərçəngə çevrilir.

**Babasil nədir?**

Babasil düz bağırsağın xəstəliyi olub,ilkin əlamətləri anusda diskomfort, geyişmə,ağrı hissi ilə insanı narahat edir.Babasilin əlamətləri aşağıdakılardır:

- düz bağırsaq və anus nahiyəsində narahatçılıq hissi
- qanaxma və ya nəcisdə qan görünməsi
- qaşınma və ya geyişmə



- babasil düyünlərinin çıxması

Bu əlamətlər əksər hallarda defekasiya aktı zamanı baş verir.Mütəxəssislər yuxarıdakı əlamətlərdən əziyyət çəkən adamların mütləq həkimə müraciət etməsini tövsiyə edir.Bu onları gələcəkdə baş verən təhlükələrdən qoruyar və rahat həyat sürmələrinin təminatçısı olar.

# Bu vasitə ilə öskürəyin qısa zamanda kəsilməsinə nail oldum

***Mən uzun müddətdir ki,güclü öskürəkdən əziyyət çəkirdim.Həkimlərin təyin etdikləri dərman və iynələr bir müddət mənim öskürəyimi kəsir,müalicəni saxlayan kimi isə yenidən öskürməyə başlayırdım. Xəstəliyimdən xəbərdar olan nənəm mənə öskürəkdən xilas olmağın yolunu öyrətdi və mən qısa bir zamanda tamamilə sağaldım.Nənəm mənə aşağıdakıları məsləhət bildi.***

Mən yatmazdan əvvəl çaynikə bağayarpağı və kətan toxumu qoydum və dəmlədim və 1 xörək qaşığı duz



əlavə etdim.Sonra yatağıma girib oturdum və çayniki dizlərimin üstünə qoydum.Daha sonra başımın üstünə qalın adyal salıb su tamam soyuyana qədər onun buxarını burnum və boğazımla içimə çəkdim.Sonra da başımı bükük bir stəkan isti bağayarpağı dəmləməsi içib yatdım.Mən bu proseduru bir-neçə gün etdim.Bu üsuldan istifadə etdikdən sonra isə mənim öskürəyim tamamilə sağaldı.Prosedur yeməkdən ən azı 30 dəqiqə sonra edilir və müalicə öskürəklə yanaşı mədə ağrılarını və qıcqırmanı da aradan qaldırır.

# "Burda həyat normaldır" – "Qarabağ"ın ispan futbolçusu



*"Qarabağ"ın legioner futbolçusu Xayme Romero "El Mundo" nəşrinə açıqlama verib.*

**"Unikal" qəzeti xəbər verir ki, ispan futbolçu, Azərbaycanda müharibə ilə bağlı vəziyyət barədə danışıb:**

"Burda həyat normaldır. Təhlükə hissi yoxdur və biz əvvəlki kimi davam edirik, çünki münaqişə digər tərəfdədir. Klubda hər şeydən təcrid olunmağımızı, qarşıda vacib matçlarımız olduğu üçün özümüzü onlara kökləməyimizi istəyirlər. Müharibənin baş verdiyi bölgənin adını daşıyırıq. Buna görə də, ölkənin qəbul etdiyi qərarların bir hissəsiyik. İnsanlar burda bizimlədir.

Avropaya səfər zamanı münaqişədən daha çox, pandemiya ilə bağlı problemlər nəzərə çarpır. Həftənin ilk iki günü testdən keçib səfərə yollanırıq. Sonra isə geri qayıdanda daha bir dəfə test veririk. Vəziyyət bir az qarışıqdır. Ümid edirəm ki, müharibə və virus bitəndə normal həyata qayıda biləcəyik".

**Romero, baş məşqçi Qurban Qurbanovla bağlı da fikirlərini bölüşüb:**

"Ciddi görünən, amma futbolçularla çox yaxın olan bir adamdır. Klubun uğurlarının çoxu onun sayəsində qazanılıb. Futbolçularla bacardığım qədər ingilis dilində danışıram".

**Futbolçu, "Real"da çıxış edərkən Kriştiano Ronaldonu əvəzləməsi ilə bağlı təəssüratlarını da bölüşüb:**

"Bu, xüsusi bir hiss idi. İnsanların gözündə ən çox diqqət çəkən budur. Futbol tarixinin ən yaxşı oyunçusunu əvəzləmişdim. Amma o, başqa oyun idi və həmin vaxt daha vacib hisslər yaşadım".

# "Lazım olarsa, çempionatı dayandırarıq" - Ramin Musayev

*"Əgər Operativ Qərargahdan futbolla bağlı hər hansı bir qadağa qoyularsa, o zaman dövlətin qanunlarına əməl etməyə məcbur olacağıq".*

"Unikal" qəzeti xəbər verir ki, bunu Peşəkar Futbol Liqasının (PFL) prezidenti Ramin Musayev deyib.

Son günlər Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxma hallarında kəskin artım müşahidə olunduğundan, mövcud sanitar-epidemioloji vəziyyət nəzərə alınaraq, xüsusi karantin rejimi çərçivəsində bir sıra məhdudiyyətlərin tətbiq olunmasına qərar verilib.

PFL rəhbəri Nazirlər Kabineti yanında Operativ Qərargahdan idmanla bağlı hansısa qadağanın



yaxın günlərdə tətbiq ediləcəyinə inanmadığını söyləyib: "Açığı, futbolla bağlı məhdudiyyətə inanmıram. Çünki qarşıda avrokubok oyunları var. Hər şey vəziyyətdən asılı olacaq. Təbii ki, insanların sağlamlığı ən vacib məqamdır. Bizim nəsə deməyimizlə və ya müzakirə etməyimizlə heç nə həll olmur. Bu gün bütün təhsil müəssisələrinin, metropolitenin fəaliyyətinin dayandırılması qərara alındı. Futbol təhsil müəssisəsindən heç də önəmli deyil. Əgər idmanla bağlı qadağa tətbiq olunsa, o zaman çempionatı dayandırmalı olacağıq. Bu gün bütün dünyada koronavirusla bağlı vəziyyət çox gərgindir. Güclü dalğaya oxşayır. Bizə ilk növbədə insanların sağlamlığı lazımdır. Lazım olarsa, çempionatı dayandırarıq. Amma yaxın zamanda gözlənilmir".

Musayev həmçinin "Qarabağ"ın Avropa Liqasının qrup mərhələsində oktyabrın 29-da İspaniya klubu "Vilyarreal"la matçının Bakıda keçiriləcəyinə inandığını deyib.

# AÇ-2020-nin formatı dəyişir – Bakı siyahıdan çıxarılır?

*AÇ-2020-nin formatı dəyişdirilə bilər.*

"Unikal" qəzeti xəbər verir ki, bu barədə "The Sun" nəşri məlumat yayıb. Xəbərdə, UEFA-nın koronavirus pandemiyası səbəbindən yarışa ev sahibliyi edəcək şəhərlərin sayını azaltmaq istədiyi bildirilib. Final mərhələsinin bir ölkənin 4 stadionunda keçirilməsi də müzakirə edilir.

Dağlıq Qarabağda baş verən hadisələrə görə Bakı, həmçinin Sankt-Peterburqun siyahıdan çıxarılan ilk şəhərlər olacağı da iddia olunur.

AFFA-nın icraçı vitse-prezidenti Elxan Məmmədov isə AVRO-2020-nin Bakıdan alınacağı ilə bağlı bu fikirləri deyib:

"Son günlər beynəlxalq və yerli mediada AVRO-2020-nin yeni formatı ilə bağlı müxtəlif fikirləri eşidirik. Bugünədək UEFA-dan AFFA-ya aydınlaşdırma məqsədilə heç bir müraciət və sorğu daxil olmayıb".

O daha sonra bildirib ki, UEFA İcraiyyə Komitəsinin son qərarına əsasən AVRO-2020 Bakı da daxil olmaqla, 12 şəhərdə təşkil olunacaq: "Qurumdan




hər hansı məlumat alsaq, ictimaiyyətə bildirəcəyik"

Qeyd edək ki, 12 ölkədə keçirilməli olan AÇ-2020 koronavirus səbəbindən 2021-ci ilə təxirə salınıb.

# "Barselona"da daha bir ciddi itki

*"Barselona" daha bir ciddi itki ilə üzləşib.*



"Unikal" qəzeti xəbər verir ki, Kataloniya təmsilçisinin yarımmüdafiəçisi Miralem Pyaniç Bosniya və Herseqovina yığmasının düşərgəsində zədələnib.

O, ötən gecə UEFA Millətlər Liqası çərçivəsində baş tutan Polşa ilə səfər oyununda (0:3) sıradan çıxıb.

Start heyətdə meydana çıxan futbolçu ilk yarım saatın tamamında belindən ağır zədə alıb. Oyunu davam etdirə bilməyən yarımmüdafiəçi 33-cü dəqiqədə əvəzlənib.

Qeyd edək ki, "Barselona" son dövrlərdə Jordi Alba və Junior Firponun da yoxluğundan əziyyət çəkirdi. Onların sırasına qoşulan Pyaniçin zədəsinin nə dərəcədə ciddi olduğu yaxın günlərdə dəqiq bilinəcək.

# Skolari yenidən keçmiş klubunda

*Braziliyanın "Kruzeyro" klubunun yeni baş məşqçisi məlum olub.*

"Unikal" qzeti xəbər verir ki, B Seriyası təmsilçisinin "sükan"ı Luis Felipe Skolariyə tapşırılıb. Bu barədə klubun rəsmi saytı məlumat yayıb. 72 yaşlı mütəxəssislə iki illik müqavilə imzalanıb.

Skolari 200/2001 mövsümündə də "Kruzeyro"nu çalışdırıb. Braziliyalı mütəxəssis son olaraq "Palmeyras"da baş məşqçilik edib.

"Kruzeyro" Braziliyanın B Seriyasında mübarizə aparır. Komanda 15 turdan sonra 12 xalla 19-cu sırada qərarlaşıb.

# "Vilyarreal" "Qarabağ"la oyuna ciddi itkilərlə çıxacaq



*"Qarabağ"ın Avropa Liqasının qrup mərhələsindəki rəqibi "Vilyarreal" heyətlə bağlı ciddi problemlərlə üzləşib.*

"Unikal" qəzeti xəbər verir ki, komandanın hücumçusu Jerar Morenonun bu ayın sonuna qədər oynamayacağı dəqiqləşib.

İspaniya yığmasının heyətində sol ayaq budundan xəsarət alan forvard tibbi müayinədən keçib və 2-3 həftə meydana çıxa bilməyəcəyi bəlli olub. Bu isə o deməkdi ki, 28 yaşlı forvard Avropa Liqasında ilk iki görüşü buraxmalı olacaq.

"Vilyarreal" Morenodan əlavə Pervis Estupinyan və Sofyen Şaklanı da itirib. Ekvador yığmasının heyətində zədələnən Estupinyanın da zədəsi ciddidir. Klub ekvadorlu futbolçunun müalicəsinə start verildiyini açıqlasa da, dəqiq nə vaxt sıraya dönəcəyi bilinmir. Koronavirusa yoluxan Şakla isə Mərakeşdə karantinə alınıb.

Qrup mərhələsinin ikinci turu çərçivəsində baş tutacaq "Qarabağ" - "Vilyarreal" qarşılaşması oktyabrın 29-da keçiriləcək.

# Fransa klubunun 12 üzvü koronavirusa yoluxdu

*Fransanın "Monpelye" klubunun 12 üzvündə koronavirus aşkarlanıb.*

"Unikal" qəzeti xəbər verir ki, bu barədə Liqa 1 təmsilçisinin mətbuat xidməti məlumat yayıb. Xəbərdə, virusa yoluxanların 8-nin futbolçu, 4-nün isə klubun işçisi olduğu bildirilib. Virus aşkarlanan şəxslərin adları açıqlanmayıb və onlar karantinə alınıblar.

"Monpelye" Liqa 1-in 7-ci turunda sabah "Monako" ilə qarşılaşmalıdır. Matçın təxirə salınacağı gözlənilir.

# Daha bir ölkədə Formula 1 qran-prisi ləğv edildi

*Formula 1 üzrə Vyetnam qran-prisi ləğv edilib.*

"Unikal" qəzeti xəbər verir ki, buna səbəb bu ölkədə koronavirus pandemiyasının sürətlə yayılmasıdır. Təşkilatçılar pilotlara, komandalara və azarkeşlərə təhlükəsiz şərait yaratmağa çətinlik çəkdikləri üçün mərhələ ləğv olunub.

Vyetnam qran-prisi noyabrda keçirilməli idi.

Səhifəni hazırladı: Aygün İlqarqızı

# Doğmaları şəhid olan məşhurlar - Siyahı




***"Unikal"Kulis.az-a istinadən Qarabağ uğrunda gedən döyüşlərdə yaxınları şəhid olan məşhurları təqdim edir.***

Xalq yazıçısı Sabir Əhmədlinin oğlu Məhəmməd Əhmədli 1992-ci ildə Qarabağ uğrunda gedən döyüşlərdə şəhid olub.

Xalq şairi Xəlil Rza Ulutürkün oğlu Təbriz Xəlilbəyli 1992- ci ildə Daşaltı əməliyyatı zamanı şəhid olub.

Əməkdar artist Gülüstan Əliyevanın həyat yoldaşı Zahid Əliyev 1991-ci ildə Qarabağ uğrunda gedən döyüşlərdə şəhid olub.

Əməkdar artist Aybəniz Haşımovanın həyat yoldaşı Xalid Quliyev 1992-ci ildə Qarabağ uğrunda gedən döyüşlərdə şəhid olub.

Xalq artisti Brilliant Dadaşovanın xalası oğlu Elçin 1992- ci ildə könüllü cəbhəyə yola düşüb və Qarabağ uğrunda gedən döyüşlərdə şəhid olub.

Əməkdar artist Məsmə Aslanqızının atası Aslan Ağaverdiyev 20 yanvar faciəsi zamanı şəhid olub.

Aktyor Kamran Ağabalayevin qardaşı Gülağa Ağabalayev 1992-ci ildə Qarabağ müharibəsində şəhid olub.

Aktyor Elşən Orucovun dayısı Elman Zeynalov 1992-ci ildə Qarabağ uğrunda gedən döyüşlərdə şəhid olub.

Müğənni Leyla Ramazanlının atası Nurəddin Ramazanov 1992- ci ildə Laçın və Qubadlı rayonları uğrunda gedən döyüşlərdə şəhid olub.

Tanınmış blogger Günel Hümbətova və teleaparıcı Mehin Hümbətovanın atası Məhəddin Hümbətov 1992-ci ildə Ağdərə uğrunda gedən döyüşlərdə şəhid olub.

Müğənni Təranə Qumralın qardaşı Firdovsi Məmmədov Qarabağ uğrunda gedən döyüşlərdə şəhid olub. Qeyd edək ki, Firdovsi Məmmədov Milli Ordunun ilk şəhididir.

Müğənni Elariz Məmmədoğlunun qardaşı 1991-1992- ci illərdə Qarabağ müharibəsi zamanı qızğın döyüşlərin getdiyi ərazilərdə itkin düşüb. Müğənni müsahibələrinin birində atasının qardaşına görə 14 il saqqal saxladığını bildirib.

Teleaparıcı Nanə Ağamalıyevanın qardaşı da Qarabağda şəhid olub. Aparıcı müsahibələrindən birində qardaşının 6 əsgər yoldaşı ilə birlikdə şəhid olduğunu açıqlayıb.

Aktyor Kənan Yusifin atası Elxan Yusifov Qarabağ uğrunda gedən döyüşlərdə şəhid olub.

# "Filippla danışdım, ermənilərə humanitar yardım etməyib" - Aygün Kazımova



***"Son zamanlar Filipp Kirkorovun atası Bedros Kirkorovun Qarabağa etdiyi humanitar yardımla bağlı çıxan xəbərlərə aydınlıq gətirmək istəyirəm. Filipplə əlaqə saxlamağı özümə borc bildim və hər şeyi danışdıq".***

Bu sözləri Xalq artisti Aygün Kazımova sosial şəbəkədə yazıb. Müğənni Rusiyanın Xalq artisti Filipp Kirkorov və atası Bedros Kirkorovla bağlı yayılan xəbərlərə münasibət bildirib. Kazımova qeyd edib ki, Kirkorovun erməni ordusuna maddi dəstək olması haqda yayılanlar onu narahat edib və həmkarı ilə bu haqda danışıb:

"Filipp mənə dedi ki, "Aygün, sən hansı humanitar yardımdan danışırsan? Mənim atam iki aydır xəstəxanada reanimasiyada yatır. O, öz canının hayındadır. Ürəyindən əməliyyat olunub. Elə bir şey yoxdur və ola da bilməz. Bu xəbərlər yalandır, böhtandır. Belə bir addım atılmayıb. Bu xəbərləri biz təkzib etmişik, bütün rus, hətta erməni mediasında bu haqqda məlumatlar da var, açıb oxuya bilərsiniz. Qarabağda baş verənlər məni də çox üzür və mən yalnız sülhün tərəfindəyəm".

Yayılan yalan xəbərlər Filippi də sarsıdıb. Bir xəbəri araşdırmadan bir-birimizi top atəşinə tutmayaq. Unutmayaq ki, bizi düşmən izləyir. Yeri gəlmişkən Filipp bu günə qədər nə "Can Rossiya", nə "Bolqarıstan", nə də "Can Ermənistan" oxuyub. Amma "Can Azərbaycan" ifa edib. Bu mahnıya görə ermənilər Filippi tənqid atəşinə tuturlar, İnstagram səhivələrində və saytlarında təhqirlər yağdırırlar.

Müharibə tək ön cəbhədə deyil, həm də sosial şəbəkələrdədir - informasiya müharibəsi gedir. Odur ki, ermənipərəst insanların oyununa alət olmayaq. Yalnız rəsmi xəbərlərə inanaq".



# "Atamın qəbrini ziyarət edib, deyəcəm, məni bağışla" – Manaf Ağayev

***"Doğulduğum Füzulinin Şıxlı kəndinin işğaldan azad ediləcəyi günü səbirsizliklə gözləyirəm. Son günlər yaşadığım həyəcanı sözlə izah edə bilmərəm. Tezliklə doğma kəndimin də düşməndən azad ediləcəyinə inanıram".***

Bu sözləri Axşam.az-a açıqlamasında müğənni Manaf Ağayev deyib. Sənətçi bildirib ki, ən böyük arzusu "qaçqın" ifadəsinin üzərindən götürülməsidir: "Bilirsiniz ən çox nəyə sevinirəm? Daha "qaçqınlıq" statusu üzərimdən götürüləcək. İstər-istəməz hərdən adama "qaçqın" deyirlər. Bu da mənə pis təsir edir".

M.Ağayev atasının Şıxlı kəndində dəfn edildiyini bildirib: "Atamı dəfn edib çıxmışıq. Onun qəbrini ziyarət edəcəm. Deyəcəm, ata, məni bağışla. O qədər arzularım var ki... Gedib böyüdüyüm kəndin torpağını öpəcəm. Kənddən uşaq yaşından çıxmamışam, hər yeri xatırlayıram. Gedib evimizi tapacam, görüm dağıtmayıblar ki... Təəssüratlarımı sözlərlə izah edə bilmirəm, bunları yaşamaq lazımdır. Amma məni ən çox həyəcanlandıran atamın qəbrini görmək olacaq".

# Zamiq Hüseynovun kəndi də işğaldan azad olunub

***"Son günlər cəbhədə baş verən hadisələr, rəşadətli ordumuzun sayəsində bir sıra torpaqlarımızın işğaldan azad edilməsi xəbərləri Azərbaycan xalqının hər bir nümayəndəsi kimi məni də çox sevindirir. Sevincimin həddi-hüdudu, hisslərimin izahı yoxdur".***



Bu sözləri Axşam.az-a açıqlamasında müğənni Zamiq Hüseynov deyib. Təəssüratlarını bölüşən sənətçi yaşadığı xoş anları belə izah edib: "30 ildir Azərbaycan xalqı bu günü gözləyir. Çox şükürlər olsun ki, bu gün ordumuz bizə tarixi anlar yaşadır. Azərbaycan tarixi yenidən yazılır! Biz bu tarixi günləri heç vaxt unuda bilmərik... Yaşasın qüdrətli Azərbaycan. Yaşasın cənab Prezident, Ali Baş Komandan İlham Əliyev! Yaşasın qüdrətli Ordumuz!".

Əslən Füzulidən olan Zamiq işğaldan azad olunan Aşağı Əbdürrəhmanlı kəndində doğulduğunu bildirib: "Cəbhədən ilk qələbə xəbəri gələndə sevincimdən bütün dostlarıma zəng vurub "Xəbəriniz var" sualını verirdim. Həmin sevinc hissi başqa nə iləsə əvəz oluna bilməz. Kəndimizin işğaldan azad edilməsini eşidəndə birinci valideynlərimlə danışdım. Əmim, dayım hamı vətən üçün darıxıb. Biz kənddən çıxanda 7 yaşım var idi. O qədər də çox xatirəm qalmayıb. Amma böyüklərimiz artıq indidən qayıdanda kəndimizdə nələr edəcəkləri ilə bağlı planlar qururlar. Mən də gedəndə ilk olaraq həyətimizin meyvələrindən dadmaq istərdim. O zamanlar balaca da olsam, yadımda qalıb. Amma inanmıram, indi o ağaclardan əsər-əlamət qalsın. Bilirəm ki, məktəbimiz, evlərimiz hamısı yanıb kül olub".